AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ

P O L İ S  A K A D E M İ Y A S I

# CİNAYƏT HÜQUQU
# XÜSUSİ HİSSƏ
# Praktikum
## (bakalavr təhsili üçün)

Bakı – 2021

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**P O L İ S   A K A D E M İ Y A S I**

# “CİNAYƏT HÜQUQU” (XÜSUSİ HİSSƏ) FƏNNİ ÜZRƏ

# PRAKTİKUM

**(metodik vəsait)**

**Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Elmi Şurasının tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (protokol № 4).**

**Bakı – 2021**

*Tərtib etdilər:*
**Canpolad  Alı oğlu Daanov**
**Polis Akademiyasının rəisi, polis polkovniki**

**İmrəli Fətiyalı oğlu Məmmədli**
"Jinayət hüququ" kafedrasının rəisi, polis polkovniki,
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Rəsul İslam oğlu Rüstəmov**
"Jinayət hüququ" kafedrasının dosenti, polis polkovniki, hüquq
üzrə fəlsəfə doktoru dosent

**Şamxal Şahin oğli Kərimov**
"Jinayət hüququ" kafedrasının müəllimi,
polis polkovnik-leytenantı

*Elmi redaktor:*
**Mahir Bayram oğlu Əhmədov**
Polis Akademiyası rəisinin birinci müavini, polis polkovniki,
hüquq elmləri doktoru, professor, əməkdar müəllim

*Rəy verənlər:*
**Cabir Məhəmməd oğlu Quliyev**
Bakı Dövlət Universitetinin "Cinayət hüququ və
kriminologiya" kafedrasının dosenti, hüququ üzrə fəlsəfə
doktoru

**Orxan  Rüfət oğlu Aslanov**
Bakı Dövlət Universitetinin "Cinayət hüququ və
kriminologiya" kafedrasının dosent əvəzi, hüquq üzrə fəlsəfə
doktoru

# Mündəricat

ÖN SÖZ ........................................................................... 6
Referatlarin yazılması üçün metodiki tövsiyələr ................. 9
XÜSUSİ HİSSƏ................................................................. 11
Mövzu № 21 ..................................................................... 11
Cinayət hüququnun Xüsusi hissəsinin anlayışı, sistemi və cinayətin tövsifi................................................................. 11
Mövzu № 22 ..................................................................... 18
Sülh və insanlıq əleyhinə olan cinayətlər........................... 18
Mövzu № 23 ..................................................................... 23
Şəxsiyyət əleyhinə olan cinayətlər....................................... 23
Mövzu № 24 ..................................................................... 57
Mülkiyyət əleyhinə olan cinayətlər..................................... 57
Mövzu № 25 ..................................................................... 78
İqtisadi fəaliyyət sahəsində olan cinayətlər. ....................... 78
MÖVZU № 26 .................................................................. 91
İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər..................... 91
MÖVZU № 27 ................................................................ 106
Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər və ictimai mənəviyyət əleyhinə olan cinayətlər. .................................................. 106
MÖVZU № 28 ................................................................ 118
Ekoloji cinayətlər ............................................................ 118
MÖVZU № 29 ................................................................ 124
Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər və kibercinayətlər....... 124
MÖVZU № 30 ................................................................ 136
Dövlətin konstitusiya quruluşunun əsasları və.................. 136
təhlükəsizliyi əleyhinə olan cinayətlər............................. 136
MÖVZU № 31 ................................................................ 147
Ədalət mühakiməsi əleyhinə olan cinayətlər .................... 147
MÖVZU № 32 ................................................................ 159
Korrupsiya cinayətləri və qulluq mənafeyi...................... 159

əleyhinə olan digər cinayətlər ........................................... 159
MÖVZU № 33 .................................................................... 170
İdarəetmə qaydası əleyhinə olan cinayətlər ....................... 170
Terminoloji tapşırıq........................................................... 173

# ÖN SÖZ

İctimai həyatda baş verən dəyişikliklər, cəmiyyətin ictimai-iqtisadi və siyasi modelinin dəyişməsi sosial münasibətlərin də formalaşmasını zəruri edir. Bu yeniləşmə prosesi cinayət hüquq sahəsindən də yan keçmir. Belə ki, hüquqi islahatlar çərçivəsində həyata keçirilən fəaliyyət digər hüquq sahələri ilə yanaşı cinayət qanunvericiliyinin də müasir tələblərə cavab verməsini, qanunvericilikdə olan boşluqların və ziddiyyətli məqamların aradan qaldırılmasını şərtləndirir. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normasının olmaması və yaxud eyni ictimai münasibətləri tənzimləyən qüvvədə olan normativ hüquqi aktların uyğunsuzluğu cinayət-hüquqi təcrübədə müəyyən çətinliklər yaradır. Qeyd olunan neqativ hallar cinayət hüquq elminin və nəzəriyyəsinin də müasir tələblər istiqamətində təkmilləşdirilməsini tələb edir. Bu baxımdan elm və nəzəriyyə bu kimi hüquqi problemləri aşkar etməklə onun həlli yollarını müəyyən edən köməkçi vasitələrdən birinə çevrilir.

Yaranmış hüquqi problem insan zəkasının məhsuludur. Cinayət hüququ təcrübədə məsuliyyətin qanunauyğun və ədalətli şəkildə realizəsi yetişdiriləcək hüquqşünasların düşüncə tərzinin yüksək və müasir səviyyədə formalaşmasını tələb edir. Bununla əlaqədar tədris prosesində nəzəriyyə ilə təcrübənin vəhdətinə ciddi ehtiyac yaranır. Buradan irəli gələrək praktiki biliklərin yaranması və inkişafı üçün cinayət hüququ fənninin tədrisi prosesində təcrübi dərslərə də yer ayrılır. Buna baxmayaraq, kursant və dinləyicilər baş vermiş cinayət hadisələrinin məzmununu özündə əks etdirən bir sıra məsələlərin həllində yenə də çətinlik çəkirlər. Hətta Polis Akademiyasının məzunu olmuş kursant və dinləyicilər icraatlarında olan cinayət işi və cinayət təqibi ilə bağlı digər materiallarla əlaqədar tövsif məsələlərində yaranmış mübahisəli məqamlarla əlaqədar cinayət hüququ kafedrasının

müəllimlərinə müraciət edirlər. Bu da təcrübi sualları, məsələləri, eləcə də bu səpkidə digər xüsusatları özündə əks etdirən müasir tədris vəsaitinin hazırlanmasını zəruri edir. Göstərilənlərdən irəli gələrək, kursant və dinləyicilərin təcrübi bacarığının daha da təkmilləşdirilməsi üçün Polis Akademiyasının tarixində Cinayət hüququ kafedrasının əməkdaşları tərəfindən ilk dəfə "Cinayət hüququ" fənni üzrə "Praktikum" hazırlanmışdır.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini ali məqsəd hesab edən dövlətimizin cinayət qanunu sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməyi, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumağı, habelə cinayətlərin qarşısını almağı ən mühüm vəzifələrdən biri sayır. Bu kimi məsul vəzifələrin həyata keçirilməsində aparıcı yerlərdən birini də daxili işlər orqanları tutur. Bu istiqamətdə polis əməkdaşlarının çiyninə ağır yük düşür. Polis əməkdaşının şərəfi məhz bu yükü daşıması ilə bağlıdır.Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının şəxsi heyyətinin xüsusən də müəllim-professor heyyətinin amalı məhz belə bir polis əməkdaşlarını yetişdirməkdir. Bu istiqamətdə professor-müəllim heyəti tərəfindən günün tələblərinə uyğun hazırlanmış tədris vəsaitlərini əməkdaşların nəzəri və təcrübi biliklərinin formalaşmasına böyük töhvə verir.

Cinayət hüququ fənni üzrə praktikum fənn proqramı əsasında hazırlanmaqla xüsusi hissənin mövzularını əhatə edir. Praktikumda hər bir mövzuya dair seminar məşğələsinin sualları və mövzunun qısa məzmunu verilmişdir. Mövzulara aid biliklərin daha məqsədyönlü və səmərəli şəkildə qavranılması üçün kursant və dinləyicilərə eləcə də yoxlama

sualları, referat mövzuların adları, referat mövzuların hazırlanması üçün metodiki tövsiyələr, test sualları və məsələlər təqdim edilir. Vəsaitdə bunlarla yanaşı mövzularla əlaqəli terminoloji tapşırıqlara da yer verilmişdir.

Kursant və dinləyicilərin seminar məşğələ suallarına və mövzunun qısa məzmununa diqqət edərək mövzuların əsas istiqamətləri barədə kifayət qədər məlumatlanmaqla vəsaitdə terminoloji tapşırıqlarda nəzərdə tutulan terminləri öyrənmələri, referat mövzuları və test sualları üzrə hazırlaşmaları üçün hər bir mövzuya aid istinad ediləcək ədəbiyyat siyahısı təqdim olunmuşdur. Mövzular üzrə istinad ediləcək ədəbiyyat siyahısının təqdim olunması təhsilalanların zəruri biliklərinin əldə edilməsini asanlaşdırmaqla, onların biliklərinin bir daha formalaşmasına köməyi nəzərdə tutur.

Cinayət hüququ fənni üzrə praktikum Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının kursant və dinləyicilərin üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, vəsaitdən cinayət hüququ sahəsində öyrənməyə maraqlı olan istənilən şəxslər də yararlana bilər.

## Referatlarin yazılması üçün metodiki tövsiyələr

Məlum olduğu kimi referat hər hansı bir nəzəri məsələnin (əsərin, elmi məqalənin və s.) əsas məzmununun yaxılı şəkildə və məzmunu əhatə etməklə ifadə olunmasıdır.

Tədris vəsaitində referat yazılmasının nəzərdə tutulmasında əsas məqsəd kursantlarda hər hansı bir aktual məsələ barəsində düşünmək və bu məsələ barəsində fikirlərini sərbəst şəkildə ifadə edərək, onu əsaslandırmaq bacarığının inkişaf etdirilməsidir.

Kursant referat yazmaq üçün seçdiyi mövzu barəsində hansı nəzəri və praktiki problemlər olduğunu qeyd edərək onun həlli yolları barəsində öz təkliflərini təqdim etməyə və bunu imkan dairəsində praktiki misallarla əsaslandırmağa çalışmalıdır. Bunun üçün internet informasiya ehtiyatlarından geniş şəkildə istifadə olunması tövsiyə olunur. Qeyd edək ki bu mövzu tədris vəsaitində göstərilməyənlərdən də olmaya bilər. Lakin seçilmiş mövzu tərtib olunmamışdan əvvəl müəllimlə razılaşdırılmalıdır.

Referat mövzunun aktuallığını əsaslandırılmasından ibarət olan girişdən, mövzunun əsas hissəsindən təkliflərin verilməsindən ibarət olan nəticə hissəsindən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olan struktura malik olmalıdır.

Tərtib olumuş referatın kursantların iştirakı ilə təqdim olunması təşkil olunur. Kursant 10-15 dəqiqə ərzində referat mövzusunun məzmunu barədə, onun nəzəri və praktik problemləri və bu problemlərin həlli yolları barədə təkliflərini əsaslandırmaqla təqdim edir. Sonda iştirakçılar tərəfindən verilmiş sualları cavablandırır.

Referat mövzularının hazırlanmasına dair qısa metodik tövsiyələr mövzu seçilir, onun barəsində ədəbiyyat və digər materiallar toplanır.

- toplanmış ədəbiyyat və digər materiallar diqqətlə oxunur və təhlil olunur və gəlinən fikirlər barəsində qeydiyyat aparılır.

-yaxşı olardı ki, referat mövzusu, onun aktuallığı, yaranan nəzəri və praktik problemlər və onların həlli yolları barəsində təqdim olunacaq təkliflər barəsində müəllif kursant yoldaşları və ya digər tanışları ilə fikir mübadiləsi etsinlər

- referat tərtib olunduqdan sonra çıxış etmək üçün bir neçə dəfə oxunmalıdır

- referat çıxış etməklə təqdim olunarkən müəllif çıxışını verilmiş müddət çərçivəsində qısa, lakonik və aydın şəkildə təqdim olunmalıdır

# XÜSUSİ HİSSƏ

## Mövzu № 21

## Cinayət hüququnun Xüsusi hissəsinin anlayışı, sistemi və cinayətin tövsifi

***Vaxt: - 4***
***Mühazirə: - 2***
***Seminar: - 2***

### Seminar məşğələsinin sualları

1. Cinayət hüququnun Xüsusi hissəsinin anlayışı, vəzifələri və sistemi.
2. Cinayətin tövsifinin anlayışı, əhəmiyyəti və mərhələləri.
3. Cinayətin tərkib əlamətlərinə görə tövsifi.
4. İştirakçılıqla törədilən cinayətlərin, cinayətlər çoxluğuna daxil olan cinayətlərin, başa çatmayan cinayətlərin tövsifi və normaların rəqabəti zamanı tövsif.

### Mövzunun qısa məzmunu

Cinayət hüququnun Xüsusi hissəsinin anlayışı və vəzifələri. Cinayət hüququnun Xüsusi və Ümumi hissələrinin vəhdəti. Azərbaycan Respublikasının Konstitusiyası cinayət qanunvericiliyininin təkmilləşdirilməsinin əsas bazası kimi.

Xüsusi hissənin sistemi. Xüsusi hissənin quruluşunun prinsipləri. Xüsusi hissənin əhəmiyyəti.

Cinayət hüququ elminin Xüsusi hissəsinin predmeti.

Cinayətin tövsifinin anlayışı və nəzəri əsasları. Cinayətin tövsifinin növləri. Cinayətin tövsifinin əsası. Cinayətin tövsifində istinad olunan cinayət hüquq normaları. Cinayət tərkibinin cinayətin tövsifi üçün qanunvericilik modeli kimi əhəmiyyəti.

Cinayətin tövsifi prosesinin mərhələləri.

Tövsifin cinayətin obyektinə görə aparılması.

Tövsifin cinayətin obyektiv cəhətinə görə aparılması. Cinayətin tövsifi prosesində təqsirin formasının müəyyən olunması. Cinayətin obyektiv və subyektiv cəhətlərinin əlavə əlamətlərinin müəyyən olunmasının tövsif prosesində əhəmiyyəti.

Başa çatmamış cinayətlərin tövsifi.

İştirakçılıqla törədilən cinayətlərin tövsifi.

Cinayətlər çoxluğu zamanı cinayətlərin tövsifi.

Cinayət hüquq normalarının rəqabəti və cinayətin tövsifi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının cinayətlərin tövsif olunmasında əhəmiyyəti.

**Yoxlama sualları:**

1. Cinayət hüququnun Xüsusi hissəsinin anlayışını verin.
2. Xüsusi hissənin əhəmiyyətini göstərin.
3. Cinayətin tövsifi nəyə deyilir?
4. Cinayətin tövsifinin hansı mərhələləri var?
5. Cinayətin tövsifinin hansı prinsipləri vardır?
6. Cinayətin tövsifinin hüquqi əsasları nədir?
7. Cinayətin tövsifinin hansı növləri var?
8. Cinayətin predmetinin cinayətin tövsif edilməsində nə kimi rolu var?
9. İştirakçılıqla törədilən cinayətlərin tövsifinin hansı xüsusiyyətləri var?
10. Başa çatmayan cinayətlərdə tövsif necə aparılır?
11. Cinayətin çoxluğu zamanı tövsif necə aparılır?
12. Cinayət hüquq normalarının rəqabəti nə deməkdir və bu zaman tövsif necə aparılır?

## Mövzuya aid ədəbiyyat:


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
3. Ağayev İ.A. Cinayət tərkibi. Dərs vəsaiti. Bakı, 2005.
4. İmanlı M.K Cinayət hüququ Xüsusi hissə Dərslik. Bakı, 2019
5. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
6. Qarayev T., Şəmsizadə R. Cinayətin tövsifinin nəzəri əsasları. Bakı, 1984.
7. Əliyev A.İ. Cinayətin tövsifinin qısa ümumi xarakteristikası. Nəqliyyat hüququ. Elmi-nəzəri təcrübi jurnal №2, Bakı, 2014, s.180-186
8. Ахмедов М.Б. Критерии истины в процессе познания уголовного закона. Баку, 1994.
9. Бурчак Ф.Г. Квалификация преступлений. Киев, 1985.
10. Кудрявцев Б.А. Общая теория квалификации преступлений. М., 1972.
11. Попов А.М. Вина и квалификация преступлений, М., 1982.
12. Уголовное право. Особенная часть. Учебник. (под. ред. Ветрова Н.И. и Ляпунова Ю.И.) М., 2003.


## Referat mövzuları:

1. Cinayətin obyektə görə tövsifi
2. Cinayətin obyektiv cəhətə görə tövsifi
3. Cinayətin subyektiv cəhətə görə tövsifi
4. Cinayətin subyektə görə tövsifi
5. İştirakçılıqla törədilən cinayətlərin tövsif məsələlri
6. Cinayətlərin çoxluğu zamanı tövsif məsələləri

## Terminoloji tapşırıq

**Aberrasiy**a - normadan uzaqlaşma, kənara çıxma, yayılma

**Abeyant-** fəaliyyətsiz (qayda qanun haqqında)

**Absurt-** mənasız, cəfəngiyyat

**Aktuallı**q- mühümlük, əhəmiyyətlilik, zərurilik

**Amnistiya**- yu. Amentia- unutmaq, bağışlamaq. Cinayət törətmiş şəxslərin cəzadan qismən və ya tamamilə azad edilməsi, cəzanı çəkmiş və ya vaxtından əvvəl cəzanı çəkməkdən azad edilmiş cəzanı çəkməkdən azad edilmiş şəxslərin üzərindən məhkumluğun götürülməsi və yaxud bu şəxslər barəsində məhkəmənin təyin etdiyi cəzanın daha yüngül cəza ilə əvəz edilməsi

**Analogiya** – yu. Analogia-uyğunluq

**Analoji**- analogiyaya əsaslanan

**Aspekt**- lat. Aspectus- nöqteyi-nəzər, baxış

**Dispozisiy**a – tərkibində müəyyən göstəriş olan hüququ normasının bir hissəsi

**Xəta** – qüvvədə olan qanunvericiliyə görə intizam məsuliyyətinə, yaxud inzibati məsuliyyətə səbəb olan hüquqazidd hərəkət

**İmperativ** - lat. Imperativus - əmredici- qəti tələb, əmr, qanun

**Kazus** – lat . cazus – hadisə 1) şəxsin iradəsindən asılı olmayaraq baş verən və bu səbəbdən də həmin şəraitdə nəzərə alınması mümkün olmayan hadisə; 2) təsadüfi hərəkət (qəsdən və ya ehtiyatsızlıqla edilmiş hərəkətdən fərqli olaraq) hansında zahirən hüquqpozma əlamətləri olsa da, təqsir əlamətləri yoxdur və bu səbəbdən də hüququ məsuliyyəti yaratmır

**Kodifikasiya** - son lat. codificatio məcəlləşdir(il)mə - hüququn müxtəlif sahələri üzrə qanunvericiliyin sistemə salınması forması

**Kolliziya ( lat. collisio- toqquşma, ziddiyyət** – qanunlar, normalar, qətnamələr və onların müddəaları arasında ziddiyyət uyğunsuzluq

**Kriminologiya -** lat. criminis-cinayət, yu. Loqos- söz, təlim- cinayətkarlıq, onun səbəbləri. cinayətkarın şəxsiyyəti, cinayətkarlığın qarşısının alınması yolları və vəsaitləri, onun ləğvi perspektivləri haqqında elm

**Məcəllə** - ictimai münasibətlərin müəyyən sahəsini nizamlayan hüquq normalarını birləşdirən və ya sistemləşdirən

**Prinsip -** lat. preincipitium- əsas, başlanğıc Ritifikasiya – beynəlxalq müqavilənin ali dövlət hakimiyyət orqanı və ya dövlət başçısı tərəfindən təsdiq edilməsi

qanunvericilik aktı

**Referat** – alm. Referat lat. refere – məruzə etmək – müəyyən mövzu üzrə yazılı məruzə və ya çıxış

**Termin -** lat. terminus – sərhəd – elmdə, incəsəntdə, texnikada və s. istifadə edilən müəyyən anlayışı dəqiq ifadə edən söz birləşməsi

**Test** – ing. Test-sınaq. Yoxlama psixologiyada: şəxsinəqli inkişafını, qabiliyyətini, bilik səv iyyəsini və s. yoxlamaq üçün standart tapşırıqlar forması

**Fakültətiv** – könüllü, qeyri-məcburi

**Hüquq düşüncəsi** – adamların, sosial qrupların, siniflərin hüquqa, qanunçuluğa, ədalət mühakiməsinə münasibətini, onların nəyin hüquqi və nəyin hüquqazidd olması haqqında təsəvvürlərini ifadə edən görüşlərin ideyaların məcmusu

**Hüquq elmi -** hüquqşünaslıq - xüsusi sosial normalardan ibarət olan hüququ, bütövlükdə dövlətin və cəmiyyətin siyasi sisteminin təşkilini və fəaliyyətinin hüquqi formalarını öyrənən ictimai elm

**Hüquqpozma -** cəmiyyətə zidd olmaqla, cəmiyyətə ziyan vuran və ya qanunla cəzalandırılan təqsirli əməl

**Metodika -** hər hansı bir işin yerinə yetirilməsi üçün təcrübədən keçmiş metodların üsullarının məcmusu

## Test tapşırıqları

**1. Cinayət hüququnun Xüsusi hissəsi:**

a) cinayət hesab edilən ictimai təhlükəli əməllərin dairəsini və hüquqi əlamətlərini, habelə onların törədilməsinə görə konkret cəzaları müəyyən edən cinayət-hüquq normalarının məcmusudur
b) cinayət hüququnun cinayət qanununa, cinayətlərə, cəzalara, cinayət məsuliyyətindən və cəzadan azad etməyə dair prinsiplərini və ümumi müddəalarını müəyyən edən cinayət-hüquq normalarının məcmusudur
c) hüququ sisteminin tərkib hissəsi kimi, dövlət tərəfindən müəyyən edilən normalar sistemi olub, cinayət hesab edilən əməllərin dairəsini, onların törədilməsinə görə cəzaların növ və hədlərini, habelə normaların tətbiqi və cəzaların təyin edilməsi şərtlərini müəyyən edir
d) fiziki şəxslərin inzibati, mülki və cinayət məsuliyyətini müəyyən edən normaların məcmusudur.

**2. Cinayət hüququnun Xüsusi hissəsinin predmetinə aid edilmir**
a) konkret cinayət növləriin istintaqı metodikası və cəzaların icrası şərtləri
b) cinayət qanunun tətbiqi təcrübəsi
c) qüvvədə olan qanunların təkmilləşdirilməsi və onların tətbiqi təcrübəsi üzrə tövsiyyələr
d) şəxsiyyət əleyhinə olan cinayətlər

**3. CM-in quruluşunu daha düzgün xarakterizə edən cavabı göstərin**
a) CM-in Xüsusi hissəsi 20 fəsli əhatə edən 6 bölmədən ibarətdir
b) CM-in Xüsusi hissəsi 6 bölmə 21 fəsildən ibarətdir
c) CM-in Xüsusi hissəsi 5 bölmə 27fəsildən ibarətdir
d) CM-in Xüsusi hissəsi 5 bölmə 26 fəsildən ibarətdir.

**4. Cinayətin tövsifi:**

a) törədilmiş ictimai təhlükəli əməlin əlamətləri ilə cinayət hüquq normasınıda nəzərdə tutulmuş tərkib əlamətləri arasında uyğunluğu müəyyən etməklə onun müvafiq hüquqi sənəddə təsbit edilməsidir

b) müəyyən bir təzahürün keyfiyyət xarakteristikası üzrə hər hansı kateqoriyaya, növə, dərəcəyə aid edilməsidir

c) törədilmiş əməllə baş vermiş ictimai təhlükəli nəticələr arasında səbəbli əlaqənin müəyyən edilməsidir

d) cinayət qanununda cinayət kimi nəzərdə tutulmuş əməli törətmiş şəxsə cəza tətbiqidir

**5. Cinayət-hüquq normalarının rəqabəti:**

a) cinayət qanununun iki və ya daha çox norması ilə nəzərdə tutulmuş cinayətlərin əlamətlərini əks etdirən bir ictimai təhlükəli əməlin törədilməsidir

b) vahid cinayət sayılan eyni bir əməli əhatə edən iki cinayət-hüquq norması arasında münasibətdir

c) cinayət qanunu ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin şəxs təfərindəb törədilməsidir.

d) iki cinayət-hüquq normasının müqayisə edilməsidir.

## Mövzu № 22

## Sülh və insanlıq əleyhinə olan cinayətlər

*Vaxt: - 2*
*Mühazirə: - 2*

### Seminar məşğələsinin sualları

1. Sülh və insanlıq əleyhinə cinayətlərin anlayışı və təsnifatı
2. Sülh və insanlıq əleyhinə cinayətlərin növləri

### Mövzunun qısa məzmunu

Sülh və insanlıq əleyhinə olan cinayətlərin anlayışı və ümumi xarakteristikası.

Təcavüzkar müharibəni Seminar məşğələsinin suallarılaşdırma, hazırlama, başlama və ya aparmanın anlayışı və tövsifedici əlamətləri. Təcavüzkar müharibəni başlamağa açıq çağırışların anlayışı və tövsifedici əlamətləri. Beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmənin anlayışı və əlamətləri. Soyqırım cinayətının anlayışı və əlamətləri. Soyqırım cinayətinin törədilməsinə təhrik etmənin anlayışı və əlamətləri. Əhalini məhv etmə cinayətinin anlayışı və əlamətləri. Köləlik, anlayışı və tövsifedici əlamətləri. Əhalini deportasiya etmə və ya məcburi köçürmə cinayətinin anlayışı və əlamətləri. Məcburi hamiləliyin anlayışı və əlamətləri. Təqibin anlayışı və əlamətləri. İnsanları zorakılıqla yoxa çıxarma cinayətinin anlayışı və əlamətləri. İrqi ayrı-seçkiliyin (aparteid) anlayışı və tövsifedici əlamətləri. Beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmənin anlayışı və əlamətləri. İşgəncənin anlayışı və əlamətləri. Müharibə cinayətlərinin anlayışı və ümumi xarakteristikası. Muzdluluq cinayətinin anlayışı və tövsifedici əlamətləri. Müharibə qanunlarını və adətlərini pozma cinayətinin anlayışı və əlamətləri. Silahlı münaqişə zamanı

beynəlxalq humanitar hüquq normalarını pozmanın anlayışı və tövsifedici əlamətləri. Silahlı münaqişə zamanı hərəkətsizlik etmənin və ya cinayətkar əmr vermənin anlayışı, əlamətləri və tövsifedici əlamətləri. Hərbi soyğunçuluğun anlayışı və əlamətləri. Müdafiə olunan nişanlardan sui-istifadənin anlayışı və tövsifedici əlamətləri.

**Yoxlama sualları:**

1. Soyqrım nəyə deyilir?
2. Soyqrımın hansı növləri var?
3. Cinsi zorakılıq nəyə deyilir və bu cinayətin zorlama cinayətindən fərqi nədir?
4. Köləlik nəyə deyilir?
5. Muzdluluq nəyə deyilir?
6. Hərbi soyğunçuluq nəyə deyilir?
7. Müdafiə olunan nişanlar nədir?

**Mövzuya aid ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.
2. 1948-ci il 10 dekabr Ümumdünya İnsan hüquqları Bəyannaməsi
3. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 4 noyabr 1950-ci il Avropa Konvensiyası.
4. "Mülki və siyasi hüquqlar haqqında" 18 dekabr 1966-cı il Beynəlxalq Pakt.
5. "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" BMT-nin 9 dekabr 1948-ci il Konvensiyası.
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
7. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.

8. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə Dərslik. Bakı, 2019.
9. Əkbərov F,Q. Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2006.
10. Əliyev Ə.İnsan hüquqları. Dərslik. Bakı. 2013.
11. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
12. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011.

## Referat mövzuları:

1. Soyqırım cinayətinin obyektiv cəhətinin xarakteristikası
2. Əhalini deportasiya etmə və ya məcburi köçürmə cinayətinin obyektiv cəhətinin xarakteristikası

## Terminoloji tapşırıq

**Assimilyasiya** – lat. Assimilatio-bənzətmə. Bir xalqın başqa xalqın dilini, adətlərini, mədəniyyətini və s. qəbul etmək nəticəsində öz milli mədəniyyətini itirməsi və bu xalqa qarışması

**Bəşəriyyat** – insanlar, insanlıq

**Biosid-** bəşəriyyətə qarşı beynəlxalq cinayət, kütləvi məhvetmə silahı vasitəsilə insanların və canlı təbiətin qəsdən və kütləvi məhv edilməsi

**Debellyasiya-** bütün dövlətin işğalı

**Demillitasiya edilmiş zona** – beynəlxalq müqaviləyə əsasən silahlı qüvvələrin saxlanması, hərbi tikintilərin və başqa obyektlərin yerləşdirilməsi qadağan edilən ərazi

**Deportasiya** - köçürülmənin bir növü; sürgün edilmə

**Ekoterrorizm** - ekoloji terrosrizm - ətraf mühitin qəsdən çirkləndirilməsi

**Etnik** – bir xalqa, onun mədəniyyətinə aid olan
**Ekosid** – bitki və heyvanlar aləminin məqsədli məhv edilməsi
**Pakt-** lat. pactum- müqavilə razılaşma- böyük siyasi əhəmiyyəti olan beynəlxalq müqavilə
**Reparasiya** - beynəlxalq hüququda məğlub olan dövlətin qalib dövlətə vurduğu zərəri ödəməsi
**İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə** - BMT Baş Məclisi tərəfindən 1948-ci il dekabrın 10-da qəbul edilib İlk növbədə hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hər kəsin fikir, vicdan, din azadlığını, bütün adamların heç bir fərq olmadan qanun qarşısında bərabər olduğunu bəyan edir.

## Test tapşırıqları

**1. Sülh və insanlıq əleyhinə olan cinayət tərkiblərinin subyektiv cəhəti xarakterizə edilir.**
a) yalnız birbaşa qəsdlə
b) həm dolayı, həm də birbaşa qəsdlə
c) birbaşa, dolayı qəsdlə, cinayətkarcasına etinasızlıqla
d) həm birbaşa qəsdlə, həm də ehtiyatsızlıqla

**2. Hansı cinayətlər insanlıq əleyhinə olan cinayətlərə aid edilmir?**
a) yetkinlik yaşına çatmayanların silahlı qüvvələrə cəlb edilməsi
b) köləlik
c) məcburi hamiləlik
d) əhalini məhv etmə

**3. Sülh və insanlıq əleyhinə olan cinayətləri hansı cavab düzgün xarakterizə etmir?**
a) belə əməllərə görə cinayət məsuliyyəti 18 yaşdan yaranır
b) belə əməllərin cins obyekti sülh və insanlığın təhlükəsizliyini mühafizə edən ictimai münasibətlərdir

c) CM-in Xüsusi hissəsi həmin cinayətləri nəzərdə tutan bölmə ilə başlanır
d) göstərilən əməllər həmçinin beynəlxalq məhkəmənin yurisdiksiyasına daxildir

**4. İnsanlıq əleyhinə olan cinayətlər qrupunu göstərin.**
a) əhalini məhv etmə, irqi ayrı-seçkilik, insanları zorakılıqla yoxa çıxarma, köləlik, işgəncə
b) köləlik, insan alveri, cinsi zorakılılıq, məcburi hamiləlik, məcburi əmək
c) muzdluluq, cinsi zorakılıq, əhalini məhv etmə, köləlik
d) beynəlxalq terrorçuluq, insan alveri, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi, soyqrım, köləlik

**5. Soyqırım CM mad 103 cinayət tərkibinin obyektiv cəhətinə hansı əməl aid deyil:**
a) qrup üzvlərini məcburi əməyə cəlb etmə
b) qrup üzvlərinin sağlamlığına ağır zərər vurma
c) bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə
d) qrup üzvlərini öldürmə

**6. Soyqırım (CM mad. 103) cinayət tərkibinin subyektiv cəhətinə daxil deyil:**
a) sosial qrupun məhv edilməsi məqsədi
b) milli qrupun məhv edilməsi məqsədi
c) irqi qrupun məhv edilməsi məqsədi
d) etnik qrupunun məhv edilməsi məqsədi

# Mövzu № 23

## Şəxsiyyət əleyhinə olan cinayətlər.

***Vaxt: - 20***
***Mühazirə: - 8***
***Seminar: - 6***
***Təcrübi məşğələ- 6***

### I seminar məşğələnin Seminar məşğələsinin suallarıı:

1. Şəxsiyyət əleyhinə olan cinayətlərin anlayışı və ümumi xarakteristikası.
2. Həyat əleyhinə olan cinayətlərin anlayışı və növləri.
3. Sağlamlıq əleyhinə olan cinayətlərin anlayışı və növləri.

### II seminar məşğələnin Seminar məşğələsinin suallarıı:

4. Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərin anlayışı və növləri.
5. Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərin anlayışı və növləri.

### III seminar məşğələnin Seminar məşğələsinin suallarıı:

6. İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin anlayışı və növləri.
7. Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərin anlayışı və növləri.

### Mövzunun qısa məzmunu

Azərbaycan Respublikasının Konstitusiyasına görə şəxsiyyətin hüquq və azadlıqlarının mühafizəsi.

Həyat əleyhinə olan cinayətlərin anlayışı, ümumi xarakteristikası və növləri. Həyatın başlanğıcı və son anlarının təyini. Adam öldürmənin anlayışı və növləri. Qəsdən adam öldürmə. Məsuliyyəti ağırlaşdıran hallar olmadan qəsdən adam öldürmənin anlayışı və növləri. Məsuliyyəti ağırlaşdıran hallarda qəsdən adam öldürmənin anlayışı, növləri və təsnifatı. Məsuliyyəti yüngülləşdirən hallarda qəsdən adam öldürmə. Bu cinayətin növləri.

Ananın yeni doğduğu uşağı qəsdən öldürməsinin anlayışı və əlamətləri.

Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmənın anlayışı, şərtləri və tövsifedici əlamətləri.

Zəruri müdafiə həddini aşmaqla qəsdən adam öldürmənın anlayışı, qanunauyğun şərtləri və əlamətləri.

Cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla qəsdən adam öldürmə, anlayışı, qanunauyğun şərtləri və əlamətləri.

Ehtiyatsızlıqdan adam öldürmə. Obyektiv və subyektiv əlamətləri.

Özünü öldürmə həddinə çatdırma. Obyektiv və subyektiv əlamətləri.

Sağlamlıq əleyhinə olan cinayətlərin anlayışı və ümumi xarakteristikası.

Sağlamlığa zərər vurmanın anlayışı, növləri və onların ağırlıq dərəcələrinin müəyyən olunması.

Qəsdən sağlamlığa ağır zərər vurmanın anlayışı və tövsifedici əlamətləri.

Zərərçəkmişin ölümü ilə nəticələnən qəsdən sağlamlığa ağır zərər vurmanın ehtiyatsızlıqdan adam öldürmədən fərqi.

Qəflətən baş vermiş güclü ruhi həyacan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma. Anlayışı və tövsifedici əlamətləri.

Zəruri müdafiə həddini aşmaqla sağlamlığa ağır və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla sağlamlığa ağır və ya az ağır zərər vurmanın anlayışı və qanunauyğun şərtləri.

Ehtiyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurmanın anlayışı və növləri.

Əzab vermə. Anlayışı və tövsifedici əlamətləri. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə cinayətinin anlayışı.

Evtanaziya cinayətinin anlayışı.

Qanunsuz süni mayalanma və embrionu imSeminar məşğələsinin suallarıtasiya etmə, tibbi sterilizasiya anlayışı və tövsifedici əlamətləri.

İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transSeminar məşğələsinin suallarıtasiya məqsədi ilə götürülməsinə məcbur etmənin anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq biotibbi tədqiqatlar aparma və qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmənın anlayışı və tövsifedici əlamətləri.

Zöhrəvi xəstəlikləri yaymanın anlayışı və tövsifedici əlamətləri.

Epidemiya əleyhinə rejimin sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması anlayışı və tövsifedici əlamətləri.

İnsan immunçatışmazlığı virusu ilə yoluxdurmanın anlayışı və növləri.

Qanunsuz abort etmənin anlayışı və tövsifedici əlamətləri. Xəstəyə kömək göstərməmənin anlayışı və tövsifedici əlamətləri.

Təhlükədə qoymanın anlayışı, şərtləri və əlamətləri.

Dopinq vasitələrindən və (və ya) metodlarından istifadəyə məcbur etmə cinayətinin anlayışı və əlamətləri.

Şəxsiyyətin azadlığı əleyhinə olan cinayətlərin anlayışı və növləri.

Azərbaycan Respublikasının Konstitusiyası insan azadlığının, insanın şərəf və ləyaqətinin təminatçısı kimi.

İnsan hüquqları üzrə Ümumdünya Konvensiyanın insan hüquqlarının müdafiəsinin hüquqi mexanizminin yaradılması haqqında mülahizələri.

Adam oğurluğunun anlayışı və tövsifedici əlamətləri.

İnsan alverinin anlayışı və tövsifedici əlamətləri .

Məcburi əməyin anlayışı və tövsifedici əlamətləri.

İnsan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərin anlayışı və tövsifedici əlamətləri .

Qanunsuz azadlıqdan məhrum etmə. Anlayışı və tövsifedici əlamətləri. Adam oğurluğu cinayətinin bu cinayətdən fərqi.

Qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmənin anlayışı və tövsifedici əlamətləri.

Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə olan cinayətlərin anlayışı və növləri.

Böhtan cinayətinin anlayışı və tövsifedici əlamətləri.

Təhqir cinayətinin anlayışı. Böhtanla təhqir cinayətlərinin fərqi.

Cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan cinayətlərin anlayışı və növləri.

Zorlamanın anlayışı və tövsifedici əlamətləri.

Seksual xarakterli zorakılıq hərəkətlərinin anlayışı və tövsifedici əlamətləri.

Seksual xarakterli hərəkətlərə məcbur etmə, anıayışı və obyektiv cəhətinin xüsusiyyətləri.

On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və seksual xarakterli digər hərəkətlər etmə. Anlayışı və tövsifedici əlamətləri.

Əxlaqsız hərəkətlərin anlayışı və obyektiv cəhətinin xüsusiyyətləri.

İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərin anlayışı və növləri. Siyasi hüquq və azadlıqlar əleyhinə olan cinayətlərin anlayışı və ümumi xarakteristikası.

Bərabərlik hüququnu pozmanın anlayışı və tövsifedici əlamətləri.

Seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma. Anlayışı və tövsifedici əlamətləri.

Seçkilərdə (referendumda) iştirak qaydalarını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə. Anlayışı və tövsifedici əlamətləri.

Seçki (referendumda iştirak) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozmanın anlayışı və tövsifedici əlamətləri.

Əmək mühafizəsi qaydalarını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Jurnalistlərin qanuni peşə fəaliyyətlərinə mane olmanın anlayışı və tövsifedici əlamətləri.

Hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının əmək hüquqlarını pozma cinayətinin anlayışı.

Müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozmanın anlayışı və tövsifedici əlamətləri.

İnteqral sxem topoqrafiyasından istifadəyə müstəsna hüququ pozmanın alayışı və tövsifedici əlamətləri.

Folklor nümunələrindən istifadə tələblərinin pozulmasının anlayışı və tövsifedici əlamətləri.

Məlumat toplularından qeyri-qanuni istifadənin anlayışı və tövsifedici əlamətləri.

İxtiraçılıq və patent hüquqlarını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Şəxsi hüquq və azadlıqlar əleyhinə olan cinayətlərin anlayışı və növləri.

Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma cinayətinin anlayışı.

Şəxsiyyətin toxunulumazlığını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Mənzil toxunulmazlığını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Hüquqi şəxslərin binalarının (otaqlarının) toxunulmazlığını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Dini ayinləri icra etməyə mane olma cinayətlərinin anlayışı.

Dinə etiqad etməyə məcbur etmə və ya bu əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsini maliyyələşdirmə. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq dini təyinatlı ədəbiyyatı, audio və video materialları, mal və məmulatları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, idxal etmə, satma və ya yaymanın anlayışı və tövsifedici əlamətləri.

Dini ekstremist materialları hazırlama, saxlama, yayma və ya bu əməlləri maliyyələşdirmə. Anlayışı və tövsifedici əlamətləri.

Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmənin anlayışı və tövsifedici əlamətləri.

Dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozma. Anlayışı və tövsifedici əlamətləri.

ToSeminar məşğələsinin suallarıtıları keçirmə qaydasını pozmanın anlayışı və tövsifedici əlamətləri.

Siyasi partiyada üzvlüyə məcbur etmənin anlayışı və əlamətləri.

Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərin anlayışı, ümumi xarakteristikası və növləri.

Yetkinlik yaşına çatmayan cinayətkar fəaliyyətinə cəlb etmənin anlayışı və tövsifedici əlamətləri.

Yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmənin anlayışı və tövsifedici əlamətləri.

Uşaq pornoqrafiyasının dövriyyəsinin anlayışı və tövsifedici əlamətləri.

Özgənin uşağını dəyişdirmə cinayətinin anlayışı və əlamətləri.

Qanunsuz olaraq övladlığa götürmə cinayətinin anlayışı və əlamətləri.

Övladlığa götürmə sirrini yayma cinayətinin anlayışı və əlamətləri.

Qadını nikaha daxil olmağa məcbur etmənin anlayışı və tövsifedici əlamətləri.

**Yoxlama sualları:**

1. Şəxsiyyət nədir?
2. Adam öldürmə nə deməkdir?
3. Güclü ruhi həyəcan vəziyyəti nə deməkdir və onun hansı növləri var?
4. Özünü öldürmə həddinə çatdırmanın subyektiv cəhətini xarakterizə edin.
5. Sağlamlığa zərər vurmanın hansı növləri vardır?
6. “Sağlamlığa zərər vurma” ilə “bədənə xəsarət yetirmə” anlayışları arasında nə kimi fərq vardır?
7. “Evtanaziya” əməlinin cinayət sayılmaması barədə siz nə deyə bilərsiniz?
8. Evtanaziya cinayətdir, yoxsa ölmək hüququnun pozulmasıdır?
9. Təhlükədə qoyma cinayətinin subyekti kimlər ola bilər?
10. Sağlamlığa vurulan zərərin ağırlıq dərəcəsi necə müəyyən olunur.
11. Təhlükədə qoyma nəyə deyilir?
12. İnsan alveri nə deməkdir?
13. “İnsanın istismarı” nəyə deyilir?
14. Şərəf və ləyaqət nə deməkdir?

15. Qanunda "köməksiz vəziyyət" dedikdə nə başa düşülməlidir?
16. Seçki hüququ nədir və onun hansı növləri vardır?
17. Referendum nədir?
18. Mənzil toxunulmazlığını pozma cinayətinin anlayışını verin.
19. Kəşf, ixtiraçılıq və səmərələşdirici təkliflərin fərqi nədir?
20. Yetkinlik yaşına çatmayanlar kimlər hesab olunur?

**Aşağıdakı məsələləri həll edin.**
**I təcrübə məşğələsi.**

1-ci taqım № 1-3
2-ci taqım № 13-15
3-cü taqım № 19-21
4-cü taqım № 25-27
5-ci taqım № 30-32
6-cı taqım № 35-37

**II təcrübə məşğələsi**

1-ci taqım № 39-41
2-ci taqım № 42-44
3-cü taqım № 45-47
4-cü taqım № 48-50
5-ci taqım № 51-53
6-cı taqım № 34,54,55

**III təcrübə məşğələsi**

1-ci taqım № 4-6
2-ci taqım № 7-9
3-cü taqım № 10-12
4-cü taqım № 16-18
5-ci taqım № 22-24
6-cı taqım № 28,29,33

**Mövzuya aid ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası (25,27,28,30,31,32,33,34,35,37,46,48,49,50,56, 58-ci maddələr). Bakı, 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021

3. “İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında” BMT-nin 2 dekabr 1949-cu il Konvensiyası
4. “İnsan alverinə qarşı mübarizə haqqında” Avropa Şurasının 16 may 2005-ci il tarixli Konvensiyası (AR 11 may 2010-cu il tarixli Qanunla bu Konvensiyaya qoşulmuşdur.
5. “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu.
6. Azərbaycan Respublikası Prezidentinin 6 may 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Seminar məşğələsinin suallarıı” .
7. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanunu.
8. “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının 25 may 2005-ci il tarixli Qanunu.
9. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin “Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan “mütəşəkkil dəstə” anlayışının şərh edilməsi haqqında” 20 aprel 1999-cu il tarixli Qərarı.
10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 avqust tarixli 269№-li Qərarı ilə təsdiq edilmiş “Ağır, az ağır və yüngül xəsarət növlərinin siyahısı”.
11. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqında” 12 dekabr 2002-ci il tarixli Qərarı.
12. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
13. Səməndərov F.Y. Şəxsiyyət əleyhinə edilən cinayətlər (tövsif məsələləri). Bakı, 1997.
14. İmanlı M.K Cinayət hüququ Xüsusi hissə. Dərslik. Bakı, 2019.

15. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
16. Əfəndiyev E. Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
17. Rüstəmov R.İ. Ehtiyatsızlıqdan həyat və sağlamlıq əleyhinə törədilən ictimai-təhlükəli əməllərlə cinayət hüquqi mübarizə. Bakı. 2006.
18. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
19. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
20. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

**Referat mövzuları:**

1. İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transSeminar məşğələsinin suallarıtasiya məqsədi ilə götürülməsinə məcbur etmə cinayətinin anlayışı və tövsif problemləri
2. Xəstəyə kömək göstərməmə cinayətinin anlayışı və tövsif problemləri
3. Adam oğurluğu cinayətinin anlayışı və tövsif problemləri
4. İnsan alveri cinayətinin anlayışı və tövsif problemləri
5. Məcburi əmək cinayətinin anlayışı və tövsif problemləri
6. İnternet informasiya ehtiyatlarında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə cəhətinin obyektiv cinayətin xüsusiyyətləri
7. Şəxsi həyatın toxunulmazlığı cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
8. Əmək mühafizəsi qaydalarını pozma cinayətinin anlayışı və tövsif problemləri

9. Jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma cəhətinin obyektiv cinayətinin xüsusiyyətləri
10. Yetkinlik yaşına çatmayanları cinayətkar fəaliyyətinə cəlb etmə cinayətinin xüsusiyyətləri
11. Qadını nikaha daxil olmağa məcbur etmə cinayətinin anlayışı və tövsif problemləri

## Terminoloji tapşırıq

**Abort**- lat. abortus - uşaq salma hamiləliyin vaxtından əvvəl süni yolla pozulması

**Affekt** – lat. affectus - həyacan - cinayət hüququnda adamın güclü və dərin sarsıntısı, şüurun məhdudlaşması və hərəkətlərinə nəzarətin zəifləməsi ilə xarakterizə edilən anlaqsız və ya məhdud anlaqlı hesab edildiyi emosional vəziyyəti

**Asfikasiya** – oksigen çatmazlığı boğulma

**Ambisiya**- fr. lovğalıq, təkəbbür, özünə vurğunluq, şəxsi ləyaqət hissini ifratlaşdırma, şöhrətpərəstlik

**Birbaşa seçkilər-** seçkilərin keçirilməsi qaydası, hansına görə seçicilər nümayəndəli orqanlara deputatları birbaşa və bilavasitə yolla seçirlər

**Böhtan-** cinayət hüququnda yalan olduğunu bilə-bilə başqa şəxsi ləkələyən uydurmalar yaymaqdan ibarət cinayət

**Cinsi cinayətlər** - əsas cinsi əxlaq prinsiplərini kobudcasına pozan ictimai-təhlükəli əməllər

**Degenerat** – lat degeneratus – cismani və ruhi pozğunluq əlamətləri olan adam

**Desperado -** cinayət və ağılsız hərəkətlər etməyə meyilli şəxs

**Diffamasiya-** bir şəxsi ləkələyən məlumatın mətbuatda çap edilməsi

**Emosiya** – həyəcan, təəssür, hiss

**Epikriz**- tibb xəstənin vəziyyəti haqqında həkimin son qərarı, rəyi

**Evtanaziya** - ing. euthanasia- asan ölüm: yun. Eu-yaxşı, düzgün, thanatos-ölüm, üidsiz xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə və ya hərəkətlə tezləşdirmə, həmçinin həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma

**Əmək qabiliyyəti -** adamın sağlamlığı vəziyyətindən asılı olaraq əmək fəaliyyətində olma qabiliyyəti

**Kidnap (ing. kidnap-uşaq oğurluğu)** - pul alma məqsədilə insanların əsasən, uşaqların oğurlanması

**Manyak** – 1) məc. maniyalı, düşgün , mübtəla ; 2) maniya xəstəliyinə tutulmuş adam

**Nikah** – qadın ilə kişinin ailə qurmaq üçün qarşılıqlı məhəbbət və hörmət hisslərinə əsaslanan, azad, könüllü, bərabərhüquqlu. Qarşılıqlı hüquq və vəzifələr əmələ gətirən ittifafaqı

Orden - alm. orden- 1) dövlət, hərbi və s. sahələrdə göstərilən xidmətlərə görə verilən fəxri mükafat, nişan; 2) birlik, ittifaq, cəmiyyət

**Patent** – lat. patentus-şəhadətnamə, fərman- 1)ticarət və ya sənədlə məşğul olmaq hüququ verən sənəd (məs. ticarətlə məşğul olmaq hüququ)2) ixtiraçının ixtira və müxtəlif hüququnu təsdiq üdən vəsiqə

**Paligiat -** lat. paligio-oğurlayiram əbədi oğurluq: özgəsinin elmi, ədəbi, müsiqi və ya bədii əsərini bilə-bilə qəsdən mənimsəmə

**Referendum -** lat. referendum - hər hansı bir vacib məsələyə xalq tərəfindən ümumi səsvermə yolu ilə öz rəyini bildirmə

**Sadizm -** başqasına əziyyət, işgəncə verməkdən həzz alma, vəhşilik

**Şok -** tib. fr. chjc- zərbə - ağır ruhi sarsıntı və ya bədənin ağır zədələnməsi nəticəsində orqanizm funksiyalarının ümumi pozuluşu

**Toksimaniya** – yu. toxikum - zəhər qısamüddətli eyforiyaya səbəb olan və məstlik gətirən maddələrin qəbulu nəticəsində yaranmış xəstəliklərin ümumi adı

**Translyasiya** – lat. translatio - verilmə, veriliş - studiyadan kənar televiziya və ya ya radio verlişlərin konsert, iclas və s. həmçinin başqa şəhərlərdən yayımlanan verilişlərin yerli radio və televiziya vasitəsilə yayımlanması
**Uşaqlar** - hüquqi vəziyyətləri – yetkinlik yaşına çatmayan şəxslər
**Valideyinlik hüququndan məhrum etmə** - valideynləri uşaqlarını tərbiyə etmək hüququndan məhkəmə qaydasında məhrumetmə
**Yetkinlik yaşı** - qanunun müəyyən etdiyi, mülki fəaliyyət qabiliyyətinin, habelə bir çox başqa hüquqların və vəzifələrin əmələ gəldiyi yaş
**Zərərçəkmiş şəxs -** cinayət prosesində cinayət nəticəsində mənəvi, fiziki, yaxud əmlak ziyanı çəkmiş vətəndaş
**Zorakılıq** – şəxsiyyətin toxunulmazlıq hüququnu pozmaqla bir şəxsin digər şəxsə fiziki və ya psixi təsir göstərməsi
**Mentalitet** – milli adətlərlə, həyat tərzi ilə, etik, estetik və dini prinsiplərlə təyin edilən dünyagörüş

**Məsələlər:**

1. Şabanlı 24.04.2020-ci il tarixdə saat 01 radələrində Mingəçevir şəhərdə yetkinlik yaşına çatmayan dostları ilə parkda söhbət edərkən bir nəfər şəxs siqaret çəkə-çəkə onların yanında keçmişdir. Həmin vaxt Şabanlı ondan siqaret istəmiş, lakin həmin şəxs siqaret verməkdən imtina etmişdir. Şabanlı ondan siqaret verməməsinin səbəbini soruşduqda onlar arasında mübahisə yaranmışdır. Şabanlı mübahisə zamanı üzərində olan məişət-təsərrüfat təyinatlı bıçaqla onun qarın nahiyyəsindən vuraraq, onu qətlə yetirmiş və sonra onun cibində olan 250 manat pulu və bir qutu siqareti götürərək dostları ilə oradan qaçmışdır.

**Əmələ hüquqi qiymət verin.**

2. Bakı şəhəri Əhmədli qəsəbəsində kirayədə yaşayan Sabirabad rayon sakini Əziz Musayev 12.12.2020-ci il tarixdə saat 23 radələrində sərxoş vəziyyətdə evə gəlib arvadı Mənsurənin yatdığını görərək əsəbləşmiş və evdə olan çəkici götürüb onun başından bir neçə dəfə vurmuşdur. Həmin vaxt o arvadının ölmədidyini və xırıldadığını görüb stolun üstündən mətbəxt bıçağını götürərək onun boğazını kəsmişdir. Nəticədə Mənsurə Qədirli ölmüşdür. Hadisə zamanı onların 5 yaşlı oğlu da evdə olmuşdur.O yalvararaq atasından anasını öldürmməməsini xahiş etsə də, Musayev fikrindən daşınmamışdır. Evdə olan səs-küyə gələn qonşulardan Səlimova DİN-in 102 xidmətinə zəng edərək hadisə barədə məlumat vermişdir. Musayev bu səbəbdən Səlimovu da bıçaqla vurub onun sağlamlığına az ağır zərər yetirmiş və qaçaraq küçəyə çıxmışdır. Lakin o çox keçmədən polis əməkdaşları tərəfindən saxlanılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

3. 24.12.2020-ci il tarixdə Sənubər Ramazanovanın qardaşı Elşən Məmmədov tərəfindən döyülməsi barədə daxil olmuş məlumat əsasında polis əməkdaşları həmin ünvana getmişlər. Həmin vaxt Sənubər Ramazanova azyaşlı qızı ilə birlikdə onlara yaxınlaşmışdır.Bu zaman Elşən Məmmədov əlindəki bıçaqla bacısını təqib edərək ona xəsarətlər yetirmək istəmişdir. Lakin orada olan təhqiqatçı Elçin İsayev xidməti vəzifəsini həyata keçirməklə Sənubər Ramazanovanın bıçaqlanmasının qarşısını alarkən Elşən bıçaqla onun bədən səthinin müxtəlif nahiyyələrindən xəsarətlər yetirmişdir. Elşən Məmmədov orada olan polis əməkdaşları tərəfindən zərərsizləşdirilərək ərazi aidiyyatı üzrə polis şöbəsinə aparılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

4. Kənd sakini, 1987-ci il təvəllüdlü Səmədli Fəxri Qadir oğlu ailə münaqişəsi zamanı babası, 1962-ci il təvəllüdlü Nuruyev

Tapdıq İslam oğlunun və nənəsi 1966-cı il təvəllüdlü Hüseynova Zərqələm Aslan qızının əl-qolunu bağlayaraq, onları armaturla döyüb qətlə yetirmişdir. Fəxri Səmədli onları öldürdükdən sonra qardaşı Asimin evinə gedərək ona tüfəngdən atəş açıb yaralamışdir. O yenə Asimə atəş açmaq istəyərkən Asim qaçaraq kənddə gizlənmişdir. Fəxri qardaşını tapmayıb onun evini yandırmışdir. İsmayıllı rayon Polis Şöbəsinin və prokurorluq əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri zamanı hadisəni törədən Fəxri Bakı şəhərində tutularaq istintaqa təhvil verilmişdir. Hadisənin mülk üstündə baş verdiyi bildirilir.

**Əmələ hüquqi qiymət verin.**

5. Şirinov Alim İslam oğlu nikahları pozulmuş keçmiş arvadı Qurbanovanın başqa kişilərlə görüşərək əxlaqsız həyat tərzi keçirməsindən şübhələndiyi üçün 23.12.2020-ci il tarixdə onu gizli şəkildə izləmiş, saat 16 radələrində arvadının əvvəllər tanımadığı şəxs ilə səmimi görüşərək yanaşı getdiklərini görüb yaxın münasibətlərdə olduqlarını başa düşərək onları öldürmək məqsədilə təxminən iki il əvvəl qanunsuz olaraq əldə etdiyi və gəzdirdiyi, zavod üsulu ilə hazırlanmış, soyuq silah hesab edilən qatlanan ov tipli bıçaqla həmin şəxsə beş, arvadına isə dörd zərbə vuraraq və oradan qaçmışdır. Həmin vaxt Hüseyinli aldığı bıçaq xəsarətlərindən hadisə yerində ölmüş, vətəndaşların köməyi ilə xəstəxanaya çatdırılan Qurbanova isə ağır xəsarətlər almasına baxmayaraq həkimlərin müdaxiləsi sayəsində sağ qalmışdır.

**Əmələ hüquqi qiymət verin.**

6. 45 yaşlı Kamil Rəhimli 7 bıçaq zərbəsi ilə qətlə yetirilib. Xaliq İdrisli anbardar işlədiyi ticarət mərkəzindəki mağazanın meneceri Kamil Rəhimli tərəfindən azad edilməsini özünə qarşı ədalətsizlik kimi qəbul etmiş və qisas almaq məqsədi ilə onu öldürmək qərarına gəlmişdir. Niyyətini həyata keçirmək

üçün Xaliq İdrisli Rəhimlini iş yerindən mənzilinə kimi izləyərək yaşadığı ünvanı dəqiqləşdirmişdir. O növbəti gün saat 21:00 radələrində həmin qəsəbəyə gəlib, evin işıqlarının yanmadığını görüb, Kamilin qayıtmasını gözləmişdir. Təxminən 1 saatdan sonra Kamil Rəhimli ailəsi ilə birgə evə gəlmişdir. Həmin vaxt onların ardınca gələn İdrisli evə daxil olub bıçaqla çoxsaylı zərbələr endirmişdir. O, Rəhimlinin arvadı Arifə və azyaşlı uşaqlarının gözü qarşısında Rəhimliyə 7 bıçaq zərbəsi vurmuşdur. Həmin vaxt qadın uşaqlarla yataq otağına qacıb qışqırmağa başlamışdır. Xaliq İdrisli qadının üzərinə bıçaqla gedərək qışqırmamasını tələb edib daha sonra dəhlizdə yaralı vəziyyətdə olan Kamil ona yanına qayıdaraq onun boğazını kəsib hadisə yerindən qaçmışdır.

**Əmələ hüquqi qiymət verin.**

7. 13.06.2021-ci il tarixdə saat 18 radələrində Arifə Quluyeva evdə olarkən, onlarda olan tanışı Asim Qarayev ona cinsi əlaqədə olmağı təklif etmişdir. Arifə bu təklifi rədd etdikdə onlar arasında mübahisə yaranmışdır. Mübahisə zamanə Asim Qarayev onun qolundan tutub zorla yataq otağına aparmaq istəyərkən Arifə stolun üzərində olan güldanı Asimin başına vuraraq onu qətlə yetirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

8. Arif Muxtarov 14.12.2020-ci il tarixdə saat 15 radəlrində inzibati binanın 5-ci mərtəbəsində yerləşən xidməti iş otağını xadiməyə təmizlətdirərkən ondan pəncərəyə çıxıb şüşələri də təmizləməsini bildirmişdir. Xadimə pəncərənin şüşəsini təmizləyərkən yerə yıxılmış və aldığı xəsarətdən ölmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

9. Mahir Xəlilov 13.02.2020-ci il tarixdə saat 20 radələrində oğlu Seymurun doğum günü münasibəti ilə Gədəbəy rayonunda yaşadığı evdə arvadı Hüseynovaya yemək üçün

kəsdiyi qazın ətini bişirməsini tapşırmışdır. Hüseynova qaz ətini bıçaqla parçalayaraq onun bir hissəsini soyuducuya qoymaq istəyərkən əri ona ad gününə dostlarının da gələcəyini bildirərək ondan qazın ətini bütöv şəkildə qızartmasını xahiş etmişdir. Kasıb olduqları üçün Hüseynova həmin vaxt ona məsləhət bildirmişdir ki, evə sərxoş dostlarını yığmasın, qazın ətinin bir hissəsini növbəti gündə bişirməklə özləri yesinlər. Bu zaman Xəlilov əsəbləşmiş və stolun üstündən götürdüyü mətbəxt bıçağını arvadı Hüseynova istiqamətində atmışdır. Bıçaq Hüseynovanın kürək nahiyyəsini zədələmişdir. Buna görə Hüseynova bir qədər keçdikdən sonra özünü pis hiss etmişdir. Xəlilov arvadının narahat olduğunu görüb onun belində olan zədə hissəsini yaylıqla bağlayaraq, qonşusu ilə birlikdə Şəmkir rayon Mərkəzi Xəstəxanasına aparmışdır. Lakin, Hüseynova Şəmkir rayon Mərkəzi Xəstəxanasına çatmamış yolda ölmüşdür. Məhkəmə tibb ekspertizası meyidi müayinə etdikdən sonra onun kürək nahiyyəsində olan damarın zədələnməsi ilə əlaqədar daxilə qanaxmanın baş verməsi səbəbindən ölməsi qənaətinə gəlmişdir.

**Əmələ hüquqi qiymət verin.**

10. Qusar rayon sakini 15 yaşlı İlkin Kərimli 14.11.2020-ci il tarixdə saat 16 radələrində yaşadıqları evin həyətində qardaşı İlqarla oynayarkən əli ilə onu itələmiş, nəticədə İlqar yerə yıxılmış və başı daşa dəyərək hadisə yerində ölmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

11. Əliyev arvadı Hüseynovanın tez-tez özünü öldürəcəyi barədə fikir söylədiyini dəfələrlə eşitmişdi. O evdə olan gəmiricini öldürmək üçün pəncərənin qarşısına qoyduğu dərmanı göstərərək “özünü öldürmək istəyirsənsə dərmanı iç” deyərək evdən çıxıb getmişdir. Həmin vaxt Hüseynova dərmanı su ilə qataraq içmiş və zəhərlənmişdir. Həkimlərin

müdaxiləsinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmamışdır.

**Əmələ hüquqi qiymət verin.**

12. 15yaşlı Quluyeva ilə qonşuları 42 yaşlı Şahbazov arasında dəfələrlə cinsi əlaqə olmuşdur. O sonuncu dəfə 23.12.2020-ci il tarixdə saat 16 radələrində Şahbazovla intim əlaqədə olarkən digər qonşusu İbrahimov onları görmüşdür. Buna görə Quluyeva qonşuları və yaxın adamları içərisində rəzil olmaması üçün həmin günü saat 02 radələrində özünü yaşadıqları evin çardağından kəndirlə asıb intihar etmişdir. İbrahimov Şahbazovun əməli barədə Quluyevanın anasına məlumat vermişdir. Süleymanova bu barədə yaşadıqları ərazinin polis orqanına müraciət edərək qızının ölümünə səbəbkarın Şahbazov olmasını bildirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

13. 1992-ci il təvəllüdlü Əliyeva Rüxsarə Məcid qızı 14.10.2021-ci il tarixdə saat 15 radələrində 6 yaşlı qızı Nurayı və 4 yaşlı oğlu Səlmanı yaşadıqları binanın ikinci mərtəbəsində yerləşən mənzilin eyvanından yerə atıb. 2 yaşlı oğlu Nurlanı da atmaq istəyərkən qaynanası uşağı onun əlindən almışdır. Rüxsarə Əliyeva dayanmayıb özünü də eyvandan yerə atmışdır. Lakin xoşbəxtlikdən hər üç şəxs qapalı kəllə beyin travması alaraq xəstəxanaya yerləşdirilmişdirlər. Qadın istintaqa ilkin ifadəsində bildirib ki, əri Zamin Əliyev narkomandır və uşaqlarını da narkotikə öyrəşdirmək istəyir. O deyib ki, ərinin bu hərəkətlərinə görə övladlarının narkotikə qurşanmaması üçün onları və özünü öldürmək qərarına gəlib.

**Əmələ hüquqi qiymət verin.**

14. Zamir Salmanov mütəmadi olaraq arvadı Salmanovanı azyaşlı uşaqlarının gözü qarşısında döyərək onun bədən səthinə müxtəlif xəsarətlər yetirirdi. Lakin buna baxmayaraq Salmanova ondan heç vaxt rayon polis şöbəsinə şikayət

etməmişdi. Bundan istifadə edən Salmanov bu cür əməllərini davam etdirməklə 13.09.2020-ci il tarixdə saat 24 radələrində sərxoş vəziyyətdə yaşadıqları evə daxil olub heç bir səbəb olmadan Salmanovanı yatdığı yerdə ağacla döymüşdür. Aldığı güclü zərbələrdən Salmanovanın ayaqları sınmışdır. Zamir Salmanov onu döydükdən sonra yatmış, səhəri günü isə evdən çıxıb getmişdir. Evdə olan azyaşlı uşaqlar anasının ayağa qalxa bilmədiyinə görə onun yanında durub ona qulluq etməyə çalışmışdırlar.İki gündən sonra evə gələn Salmanov arvadının yatdığını görüb ondan ona qulluq göstərməsini tələb etmişdir. Həmin vaxt Salmanova ona ayağa dura bilmədiyini bildirdikdə Salmanov yenidən əsəbləşərək azyaşlı uşaqlarının gözü qarşısında ağacla onun başından və bədəninin müxtəlif nahiyyələrindən zərbələr vurmuşdur. O Salmanovanın huşunu itirdiyini görüb uşağından qonşularını çağırmağı tələb etmişdir. Evlərinə gələn qonşulara Salmanovanın nədənsə ayağa dura bilmədiyini söylədikdə, qonşusu Hüseynova Salmanovanın üzərində olan yorğanını götürmüş və onu gördükdə həyəcanlanaraq, arvvadının artıq öldüyünü bildirmişdir. Bu barədə məlumat alan polis əməkdaşları tərəfindən Zamir Salmanov tutularaq rayon Polis Şöbəsinə aparılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

15. Əli Qasımlı 29.10.2020-ci il tarixdə gecə saat 01.00 radələrində Bakı şəhərində yaşayan, qonşusu Məsimlinin onun ünvanına nalayiq sözlər deməsi səbəbindən, aralarında şəxsi münasibətlər zəminində baş vermiş münaqişə zamanı üzərində olan zavod üsulu ilə hazırlanmış təsərrüfat-məişət təyinatlı turist bıçağı ilə onun döş qəfəsinin sol yarısına bir dəfə zərbə vuraraq sağlamlığına ağır zərər vurmuşdur.

**Əmələ hüquqi qiymət verin**

16. Samir Əhmədli 25 avqust 2021-ci il tarixdə saat 01 radələrində Bakı şəhəri, Xəzər rayonunda yerləşən yaşadığı

evin yaxınlığında heç bir əsaslı səbəb olmadan, aralarında baş vermiş mübahisə zamanı Tofiq Qafar oğlunu üzərində gəzdirdiyi soyuq silah hesab edilməyən bıçaqla vuraraq onun sağlamlığına az ağır xəsarət yetirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

17. Əli Qasımlı keçmiş arvadı ilə münasibətlərinin bərpa olunmasına arvadının bacısı Quluyevanın maneçilik törətməsini güman edərək, onu öldürmək qərarına gəlmişdir. O, bu niyyətini həyata keçirmək üçün əvvəlcədən əldə etdiyi zavod üsulu ilə hazırlanmış məişət təyinatlı bıçaqla 07 iyun 2021-ci il tarixdə saat 21 radələrində evdən çıxıb xalasını evinə getmək istəyən Quluyevaya ardıcıl bir neçə zərbə vuraraq onu yerə yıxmışdır. Həmin vaxt qışqırıq səslərinə qonşuların çıxdığını görən Qasımlı oradan qaçmışdır. Vaxtında hadisə yerinə gələn qonşular Quluyevanı xəstəxanaya çatdırmaqla onun həyatını xilas etmişdirlər. Quluyeva hadisə nəticəsində Quliyevanın sağlamlığına ağır zərər vurulmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

18. İsayev bir neçə dəfə koronavirus xəstələri ilə yaxın təmasda olaraq özünün bu xəstəliyə yoluxmasını istəmişdir. Sonradan məlun olmuşdur ki, o həqiqi hərbi xidmətə çağırıldığı üçün bunu etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

19. Koronavirus xəstəsi olan Ələkbərli dəfələrlə və tez-tez qohumluq münasibətlərində olan Həşimovla münasibətdə omuşdur. Nəticədə Həşimov xəstəliyə tutulmuş və müalicə almasına baxmayaraq xəstəxanada vəfat etmişdir. Məlum olmuşdur ki, Ələkbərov onunla münasibət qurmasında məqsədi Həşimovun da bu xəstəliyə tutulmasıdır.

**Əmələ hüquqi qiymət verin.**

20. Covid-19 xəstəsi olan Qəmbərli bir neçə dəfə yaxın qonşusu Səmədlinin evinə getmiş və nəticədə Səmədli və ailə üzvləri xəstəliyə yoluxmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

23. Asif Quluzadə qonşusu Aliyə Səlimova ilə mütəmadi olaraq cinsi əlaqədə olmuşdur. Bundan hamilə qalan Səlimova Asif Quluzadə ilə ailə həyatı qurmaq niyyətində olduğunu söyləmişdir. Asif Quluzadə narazılığını bildirərək onu yeməyə dəvət etmiş və spirtli içki içməyə vadar etməklə onu sərxoş vəziyyətə gətirmişdir. Bundan sonra o xəstəxanada həkim işləyən tanışı Baxşəliyevaya zəng vuraraq ondan Aliyəni abort etməyi xahiş etmişdir. Baxşəliyeva ondan Aliyəni abort edəcəyinə görə 1500 manat pul alacağını bildirmişdir və əks halda abort etməyəcəyini bildirmişdir. Quluzadə məcburiyyət qarşısında onunla razılaşmış və sərxoş vəziyyətdə olan Aliyəni xəstəxanaya aparmışdır. Həkim Baxşəliyeva Aliyəni abort etmişdir. Sabahısı gün Aliyə başına gələnlər barədə rayon prokurorluğuna şikayət etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

24. Nazim Əliyev sevdiyi 16 yaşlı Qafarova ilə bir neçə dəfə cinsi əlaqədə olmuşdur. O bu tarixdən sonra bir neçə dəfə Qafarova ilə görüşüb onunla cinsi əlaqədə olmaqda davam etmişdir. Nəticədə Qafarova hamilə qalmışdır. O, bu barədə Əliyevə bildirdikdə, Əliyev onu 18 yaşı tamam olduqdan sonra ailə quracağı barədə aldadaraq uşağı abort etdirməyi məsləhət etmişdir. Qafarova həmin vaxt Əliyevə narazılığını bildirmişdir. Buna görə Əliyev əgər abort etdirməsə onunla ailə qurmayacağını bildirmiş və qonşu kəntdə yaşayan tanıdığı həkimin yanına getməklə onu abort etdirməyi təklif etmişdir. Qafarova məcbur qalıb onunla razılaşmışdır. Əliyev Qafarovanı qonşu kənddə yaşayan tanışı tibb bacısı Allahverdiyevanın yanına aparmış və ona Qafarovanı abort

etməyi xahiş etmişdir. Allahverdiyeva Əliyevin sözünü yerə salmayaraq dörd aylıq dölü Qafarovanın bətnindən kənarlaşdırmışdır. Həmin vaxt Qafarovada qanaxma baş vermiş və onu dayandırmaq mümkün olmadığından xəstəxanaya çatdırmışdırlar. Bu səbəbdən xəstəxanadan rayon Polis Şöbəsinə məlumat verilmişdir.

**Əmələ hüquqi qiymət verin.**

25. Tovuz rayon sakini Məmmədov neçə il idi ki, yaxın qonşusu Aliyə İsayevanı sevirdi. Buna görə də onunla ailə həyatı qurmaq arzusu ilə yaşayırdı.Lakin qızın valideyinləri buna razı deyldi. Bu səbəbdən Məmmədov yaxın dostları İslamovdan və Həsənovdan Aliyəni qaçırmaqda ona kömək etmələrini xahiş etmişdir. İslamov və Həsənov qızın zorla qaçırılmasının düzgün olmadığını dedikdə, Məmmədov onlara bildirmişdir ki, qız onu sevir. Aliyə özü də onun tərəfindən qaçırılmasına razıdır. Sadəcə Aliyə qaçırılma prosesində yalandan elə hərəkət edəcək ki,guya ona qoşulub getmək istəmir. Aliyənin belə etməsini elin adəti vadar edir. Çünki, kənd caamatı xoşluqla qoşulub qaçan qıza yaxşı baxmır. Məmmədovun bu sözlərinə inanan dostlar onunla razılaşmışdırlar. 15.07.2020-ci il tarixdə saat 16 radələrində onlar küçə ilə gedən Aliyəyə yaxınlaşaraq, onu zorla Həsənovun Vaz 2107 markalı avtomobilinə mindirib Məmmədovun Şəmkir şəhərində yaşayan qohumu Şabanovanın evinə aparmışdırlar. Lakin İsayeva Məmmədovla ailə həyatı qurmaq istəmədiyini bildirərək ağlamış və ondan onu evlərinə aparmalarını xahiş etmişdir. İsayevaMəmmədos və digəriləri tərəfindən zorla avtomobilə mindirilib qaçırılarkən sol ayağından yüngül xəsarət almışdır.

**Əmələ hüquqi qiymət verin.**

26. Bayramlı tanışları kasıb vəziyyətdə yaşayan Qənizadə və digərlərinə “Almaniyada yaxşı iş var, fəhləliyə ayda bizim

pulla beş min manat verirlər deyərək"onların Almaniyaya getmək istəyib istəməmələrini soruşmuşdur. Qənizadə və digərləri Almaniyaya işləmək istədiklərini lakin, oraya getmək imkanlarının olmadığını bildirmişdirlər. Bayramlı bu sahədə kömək edərək əlaqədə olduğu adamların vasitəsi ilə 21.01.2020-ci il tarixdə onları dövlət sərhəddindən kənarda Rusiyaya, oradan isə Çinə aparmışdır. Həmin şəxslər gözü bağlı şəkildə Çinin paytaxtı Pekində binaların altında yerləşən " N" adlı böyük ayaqqabı fabrikinin zirzəmisinə yerləşdirilərək üç il əmək haqqı verilmədən orada məcburi işlədilmişdirlər. Bayramlı gördüyü işin müqabilində əlaqədə olduğu şəxslərdən küllü miqdarda pul almışdır. Məlum olmuşdur ki, Bayramlı üç il müddətində 179 nəfər Azərbaycan vətəndaşını aldadaraq qeyd olunan şəkildə Çinə aparmışdır.

**Əmələ hüquqi qiymət verin.**

27. Samir Musayev tanışı Səbinə Quluzadənin Mingəçevir şəhərində işlədiyi "Qonşular" çay evinə gələrək orada Səbinə Quluzadənin İlqar adlı tanışına olan pul borcunu həll etmək üçün onu Mingəçevir şəhərində yerləşən evinə getməyi təklif etmişdr. Səbinə onun istəyi ilə razılaşıb onunla birlikdə həmin ünvana getmişdir. Evə daxil olduqdan sonra Samir Musayev qapını bağlamış və Səbinənin evdə sərbəst hərəkət etməsinə imkan verməyib əl-qolunu bağlayaraq onunla cinsi əlaqədə olmaqla, iradəsinə zidd şəkildə iki gün evdə saxlamışdir.

**Əmələ hüquqi qiymət verin.**

28. Bəkir Quluyev 16.12.2020-ci il tarixdə saat 20 radələrində Biləsuvar rayonunda yaşadığı kəndin yaxınlığında yol kənarında dayanan tanımadığı taksi sürücüsünə onu Bakı şəhərinə aparmağı bildirmişdir. Taksi sürücüsü ona Bakı şəhərinə aparmaq üçün 50 manat pul istəmişdir. Bəkir Quluyev ona pulunun olmadığını deyərək, bildirmişdir ki, əgər Bakı şəhərinə onu aparaarsa orada tanışından 100 manat alıb ona verəcək. Sürücü Zamanlı onun bu fukri ilə razılaşmadığından

onlar arasında mübahisə yaranmışdır. Mübahisə zamanı Quluyev üstündə gəzdirdiyi bıçaqla Zamanlının qarın nahiyyəsinə bir neçə zərbə vurmuşdur. Sonra isə onu avtomaşının yük yerinə qoyub avtomobili Bakı Şəhəri istiqamətində hərəkət etmişdir. O yolda avtomobili təhlükəli vəziyyətdə idarə etdiyi üçün DYP əməkdaşları tərəfindən saxlanılmağa cəhd edilmişdir. Həmin vaxt o polis əməkdaşlarının “saxla” əmrinə tabe olmayaraq idarəetməni davam etdirmiş və yol kənarında dayanan Qaradağ rayon sakini Eyvazovanı vüraraq öldürmüş özü isə avtomobillə yol kənarına yuvarlanmışdır. Polis əməkdaşları həmin vaxt avtomaşına baxış keçirərkən Zamanlını avtomobilin yük yerində ölü vəziyyətdə aşkar etmişdirlər. Məlum olmüşdur ki, onun ölümünə səbəb avtomobilin yuvarlanması olmuşdur. Bəkir Quluyev yaralı vəziyyətdə avtomaşından çıxarılaraq xəstəxanaya yerləşdirilmişdir.

**Əmələ hüquqi qiynət verin.**

29. Qaynanası Könül Quluzadənin evində yaşayan Qalib Nurulu onunla tez-tez mübahisə edirdi. Qalibin arvadı Gülnarə mübahisə zamanı həmişə ərinin haqlı olduğunu bildirirərək onun tərəfini saxlayırdı. Bu səbəbdən Könüllə qızı arasında da mübahisələr olurdu. 13.10.2020-ci il tarixdə yenə aralarında olan mübahisə zamanı Qalib Gülnarədən ayrılacağı barədə fikir söylədikdə, Gülnarə narahat olmuş və Qalibə anasını psixatriya xəstəxanasına yerləşdirməyi məsləhət etmişdir. Qalib arvadının bu sözünü bəyənərək, həmin xəstəxanada işləyən həkimin köməkliyi ilə heç bir psixi xəstəliyi olmayan Könül Quluzadəni psixatriya xəstəxanasına yerləşdirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

32. Sabir Yusifov 16 mart 2021-ci il tarixdə, saat 21 radələrində alkoqol sərxoşluğu vəziyyətində Bakı şəhəri, Binəqədi rayonunda yaşadığı binanın liftində qonşusu – 10

sentyabr 2011-ci il təvəllüdlü S.A.A qızının çiyinlərini və saçını sığallamış, sonra əlini onun sinə nahiyəsinə salaraq sol döşünə toxunmuş, zərərçəkmiş şəxs S.A.A əlini sinəsinə sıxmaqla ona mane olduqda əlini geri çəkmişdir.

**Əmələ hüquqi qiymət verin.**

35. Sənan Əlizadə rayon Polis Şöbəsinə ərizə ilə müraciət edərək qonşusu Bəhruz Kərim oğlunun onu döyərək sağlamlığına xəsarət yetirməsi barədə məlumat vermişdir. Polis Şöbəsinin təhqiqatçısı Allahverdiyev icraatında olan həmin ərizə əsasında Bəhruz Kərim oğlunun evinə daxil olarkən Pərviz ona uşaqlarının narahat olacağını deyib evə girməməsini xahiş etmişdir. Allahverdiyev onun xahişinə məhəl qoymadan mənzilə daxil olmuşdur.

**Əmələ hüquqi qiymət verin**

36. Daimi səfil həyatı sürən Abbaslı qış aylarında soyuqda üşüdüyünə görə yaxınlıqda yerləşən evin giriş qapısının qıfılını qıraraq iki həftə müddətində həmin evdə yaşamışdır. Bundan xəbər tutan evin qonşuluğunda yaşayan Zahid Oruclu Bakı şəhərində yaşayan Eyvaz Kərimliyə zəng edərək Abbaslının onun evində yaşaması barədə məlumat vermişdir.

**Əmələ hüquqi qiymət verin.**

37. Samir Sədizadə yaşadığı kəndin ərazisində yerləşən elektrik yarım stansiyasının yaxınlığında quzu otararkən, stansiyanın ətrafına çəkilmiş çəpərə bərkidilmiş, açıq vəziyyətdə qalmış giriş qapısından keçərək orada olan futbol topunu götürmək üçün içəri daxil olmuşdur. Həmin vaxt elektirik cərəyanı onu vuraraq öldürmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

38. Elşən İsmayılzadə direktoru olduğu istehsal müəssisəsinin yarıtmaz fəaliyyəti barədə jurnalist Sübhan Elmanlının

informasiya vasitələrində material dərc etdirmək niyyətində olduğunu eşidərək, onun mobil telefonuna zəng edib topladığı məlumatların yanlış olduğunu bildirmiş və belə məlumatları yaymamağı məsləhət etmişdir. Bu zəngdən sonra Sübhan Elmanlı Elşən İsmayılzadənin müəyyən dairələrdə nüfuz sahibi olduğunu və buna görə onun işində problem yarada biləcəyini ehtimal edərək, müəssənin fəaliyyəti barədə topladığı məlumatları ictimailəşdirmək fikrindən daşınmışdır.

**Əmələ hüquqi qiymət verin.**

39. Müəssisə rəhbəri Mənsur Kərimli vətəndaş Altay Nəsiblinin və onunla birgə on iki işçinin onun rəhbərlik etdiyi siyasi partiyadan çıxmaq niyyətində olduğunu bilərək onları işdən çıxarmaq qərarına gəlmişdir. Nəsibli və digərləri ailələrinin maddi imkanı olmadığına görə partiyanın üzvlüyündən çıxmaq fikrindən daşınmışdırlar.

**Əmələ hüquqi qiymət verin.**

40. 5 yaşlı Yusifovanın tərbiyyəçisi onun yaşadığı evin pəncərəsindən baxarkən küçə ilə gələn, ədavətdə olan qonşusu Rzayevanı görüb dərhal Yusivovaya onun başına əşya atıb gizlənməsini bildirmişdir. Yusifova Rzayevanın ona öyrətdiyi əməli yaxşı bir iş kimi qarşılayaraq eyvana çıxıb orada olan dəmir parçasını götürərək Rzayeva istiqamətində atmışdır. Nəticədə dəmir parçası küçə ilə gələn 8 yaşlı Ləmanın başına dəyməklə sağlamlığına az ağır xəsarət yetirmişdir. Ləman Kərimovanın anası Quluyeva Yusifovanın əməli ilə bağlı yaxşı tərbiyyə vermədikləri üçün onun valideyinləri barəsində Bərdə rayon PŞ-nə ərizə ilə müraciət etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

41. Gəncə şəhərində yaşayan Şahmar Hacılı 2020-ci ilin dekabırın 6-da saat 15 radələrində on səkkiz yaşına çatmamış Suleymanlı ilə birlikdə üzlərinə maska taxaraq Gəncə şəhəri,

Nizami rayonunda yerləşən «Lukoyl-Azərbaycan» qapalı səhmdar cəmiyyətinin 12 saylı yanacaqdoldurma məntəqəsinin inzibati binasına qanunsuz girməklə əllərində olan oyuncaq tapançalardan istifadə edərək yanacaqdoldurma məntəqəsinin operatorları olan Kərimli və Abbasbəylini öldürməklə hədələmiş, Kərimlidən 800 manat, Abbasbəylidən isə 280 manat ələ keçirmişdir. Onlar ümumilikdə «Lukoyl-Azərbaycan» qapalı səhmdar cəmiyyətinə 1080 manat məbləğində maddi ziyan vurmaqla oradan kənarlaşmışdırlar.

**Əmələ hüquqi qiymət verin.**

42. Əxlaqsız həyat tərzi sürən İvanova 15 yaşlı qızı Nataşaya artıq onu saxlamağa maddi imkanının olmadığını bildirmişdir. Buna görə Nataşa iş tapıb pul qazanmaq üçün müəyyən yerlərə müraciət etmişdir. Lakin, müraciət etdikləri yerlərdə ona münasib iş olmadığı üçün anasına nə etməli olduğunu soruşduqda, İvanova ona pul qazanmaq üçün imkanlı şəxslərlə cinsi əlaqədə olmağı məsləhət etmişdir. Nataşa əvvəllər anasının sözünə tərəddüd etsə də, sonradan onun məsləhətinə qulaq asaraq bir neçə şəxslə cinsi əlaqədə olmuşdur.

**Əmələ hüquqi qiymət verin**

43. Osmanlı neçə illər idi ki, Bakı şəhərində kirayədə qaldığı çoxmənzilli binanın zirzəmisində vətəndaşlara erotik filmlər təqdim edib pul qazanırdı. Onun nümayiş etdirdiyi filmləri izləməyə azyaşlı uşaqlar daha tez-tez gəlirdi.

**Əmələ hüquqi qiymət verin.**

44. Aslanova işlədiyi tibb müəssəsində Salmanlının uşağı ilə Qədirlinin uşağının bezlərini dəyişdirərkən onların qollarında olan qolbaqlar yerə düşmüşdür. Aslanova yerə düşmüş qolbaqları dəyişik şəkildə uşaqların qoluna bağlamışdır. Aslanova həmin vaxt qolbaqların səhv olaraq bağlanacağı ehtimalını dərk etsə də bu işə biganə yanaşmışdır.

**Əmələ hüquqi qiymət verin.**

45. Qasımlı yaxın qohumu İldırımzadənin övlad kimi saxladığı Ayişənin üşaq evindən götürüldüyünü bilirdi. O, 12.05.2000-ci il tarixdə Ayişənin ad günündə ona arzularını bildirərkən, orada belə bir cümlə də işlətmişdir. Sağ olsun əmioğlum İldırımzadə, Ayişəni öz döğma balasından ayırmır.

**Əmələ hüquqi qiymət verin.**

46. Azər Bayramlı ilə arvadı Qafarzadə arasında yaranmış mübahisə zamanı müəyyən olunmuşdur ki, Qafarzadə Azər ilə könüllü nigaha daxil olmamışdır. Məlum olmuşdur ki, Qafarzadənin atası Azərin xətrini çox istədiyinə görə qızına onunla ailə qurmasını məsləhət etmişdir. Qafarzadə atasının sözündən çıxmayaraq nigaha daxil olmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

47. Gəncə şəhəri 16 saylı orta məktəbin 9-cu sinfində oxuyan 15 yaşlı Qurbanov məktəbin inzibati binasının 3-cü mərtəbəsindən pilləkanla aşağı istiqamətdə sürətlə qaçarkən ayağı dolaşaraq pilləkanla çıxan Məmmədova toxunmuş və nəticədə hər ikisi yıxılaraq yüngül bədən xəsarətləri almışdırlar.

**Əmələ hüquqi qiymət verin.**

48. Dağlıq rayonda buzlu yolla gedən Kərimli həmkəndlisi Hüseynovanın iki azyaşlı uşağının əlindən tutub aparmasında çətinlik çəkdiyini görüb kömək məqsədi ilə ondan uşağın birini alaraq qucağına götürmüşdür. O uşaq qucağında yolla hərəkət edərkən onun arxasınca piyada gələn qonşusu Məmmədovun ayağı sürüşmüşdür. Həmin vaxt Məmmədov özünü saxlaya bilmədiyindən Kərimliyə toxunmuş və onu yerə yıxımışdır. Bu zaman Kərimlinin qucağında olan azyaşlının başı yerdə olan iri buz parçasına dəymiş və nəticədə uşaq ölmüşdür. Uşağın anası

Hüseynova bu barədə rayon polis şöbəsinə şikayət ərizəsi verərək azyaşlı oğlunun öldürüldüyünü bildirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

**Test tapşırıqları**

**1. Şəxsiyyət əleyhinə olan cinayətlər sisteminə daxil deyildir:**

a) əhalinin sağlamlığı əleyhinə olan cinayətlər
b) şəxsiyyətin ləyaqəti əleyhinə olan cinayətlər
c) insanın həyat və sağlamlığını təhlükə altına alan cinayətlər
d) həyat əleyhinə olan cinayətlər

**2. M.və C. A-nı öldürdükdən sonra meyidi gizlətmək məqsədilə onu hissələrə parçalayıb müxtəlif yerlərdə zibilliklərə tullayırlar. Əməlin düzgün tövsifini göstərin**

a) CM 120.2.1 (bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə) və CM 245-ci maddəsi ilə (qəbir və meyid üzərində təhqiredici hərəkətlər) tövsif olunmalıdır.
b) yalnız 120.2.1-ci maddəsilə (bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə) tövsif olunmalıdır.
c) CM 120.2.1(bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə) və CM 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə) tövsif olunmalıdır.
d) 120.2.1 (bir qrup şəxs tərəfindən qəsdən adamöldürmə) və CM 120.2.6 (digər cinayəti gizlətmək məqsədilə adam öldürmə) tövsif olunmalıdır.

**3. Qonşuluqda yaşayan ər və arvadı şəxsi ədavət zəmnində öldürmək barədə qabaqcadan razılıq əsasında rolları bölüşdürən iki qardaşdan biri kişini, digəri isə qadını boğaraq qətlə yetirmişdir. Onların əməli necə tövsif edilməlidir?**

a) hər birinin əməli ayrı-ayrılıqda sadə adam öldürmə ilə (CM mad. 120.1)

b) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə ilə (CM mad.120.1)

c) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən iki və ya daha çox şəxsi öldürmə kimi (CM mad. 120.2.1 və 120.2.7)

d) iki və ya daha çox şəxsi öldürmə ilə (CM mad. 120.2.7)

**4. Ədavətli olduğu qardaşlarla meşədə rastlaşan təqsirkar onların hər ikisini öldürmək niyyəti ilə ov silahından atəş açaraq, birini öldürmüş, digərinə isə ağır xəsarət yetirmişdir. Təqsirkarın əməli necə tövsif edilməlidir?**

a) sadə adam öldürmə CM 120.1 və iki və ya daha çox şəxsi öldürməyə cəhd kimi (CM 29, 120.2.7)

b) iki və daha çox şəxsi öldürmə ilə (CM 120.7)

c) iki və daha çox şəxsi öldürməyə cəhd ilə (CM 29, 120.2.7)

d) sadə adamöldürmə (CM 120.1) və təkrar adamöldürməyə cəhd kimi (CM 29,120.2.10)

**5. Zəruri müdafiə həddini aşmaqla iki və ya daha çox şəxsi qəsdən öldürmüş təqsirkar, beş gündən sonra qısqanclıq motivi ilə qəsdən adam öldürmüşsə, (CM 120.1) onun əməli necə tövsif olunur?**

a) zəruri müdafiə həddini aşmaqla iki və ya daha çox şəxsi öldürmə və sadə adam öldürmə kimi (CM 120.1)

b) təkrar adam öldürmə maddəsi ilə (CM 120.2.10)

c) iki və daha çox şəxsi öldürmə maddəsi ilə (CM 120.2.7)

d) zəruri müdafiə həddini aşmaqla şəxsi öldürmə (CM 123.1) və iki və ya daha artıq öldürmə maddələri ilə (CM 120.2.7)

**6. Zəruri müdafiə həddini aşmaqla adam öldürmə affekt vəziyyətində adam öldürmədən fərqlənir:**

a) motiv və məqsədinə görə

b) cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə görə

c) cinayətin törədilmə zamanına görə

d) zərərçəkənin hüquqazid hərəkətlərinə görə

**7. CM 170-ci maddəsilə nəzərdə tutulmuş yetkinlik yaşına çatmayanı cinayət fəaliyyətinə cəlb etmə cinayət tərkibinin zəruri ünsürləriinə daxildir:**

a) cinayətin edilmə üsulu
b) cinayətin məqsədi
c) cinayətin motivi
d) cinayətin obyektiv və subyektiv cəhətinin yuxarıda sadalanmış əlamətləri

**8. Fikirlərdın biri düzgün deyildir;**

a) güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə cinayətinə görə cinayət məsuliyyəti 16 yaşdan yaranır
b) bütün adam öldürmə əməllərinə görə cinayət məsuliyyəti 14 yaşdan yaranır
c) xüsusilə ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə əməllərinə görə cinayət məsuliyyəti 14 yaşdan yaranır
d) qəsdən adamöldürmə cinayətinə hazırlıq cinayət məsuliyyəti yaradır

**9. A. və B. C.-ni öldürdükdən sonra meyiti gizlətmək məqsədilə, onu hissələrə parçalayıb müxtəlif yerlərə atırlar. Əməlin tövsif edin:**

a) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə (CM 120.2.1) və qəbir üzərində təhqiredici hərəkətlər (CM 245) maddələrilə cinayətlərin məcmusu qaydasında
b) xüsusi amansızlıqla qəsdən adam öldürmə (CM 120.2.4)
c) bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə (CM 120.2.1)
d) ümumi təhlükəli üsulla qəsdən adam öldürmə (CM 120.2.4)

**10. Əməlin zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını qəsdən öldürmə kimi tövsif edilməsi üçün vacibdir ki,**
a) zərərçəkmiş şəxs xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirilməsi ilə əlaqədar öldürülsün
b) zərərçəkmiş şəxsin xidməti vəzifəsi və ya ictimai borcunun yerinə yetirdiyi (icra etdiyi) anda öldürülsün
c) zərərçəkmiş şəxsin xidməti vəzifəsi və ya ictimai borcunu yerinə yetirməsindən əvvəl öldürülsün
d) zərərçəkmiş şəxsin xidməti vəzifəsi və ya ictimai borcunu yerinə yetirməsindən sonra öldürülsün

**11. Qanunsuz abort etmə nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması**
a) ehtiyatsızlıqdan adam öldürmə (CM 124)
b) qəsdən sağlamlığa ağır zərər vurmanın ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması (CM 126.3)
d) ehtiaytsızlıqdan sağlamlığa ağır zərər vurma (CM 131.2)
d) abort etmənin ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olması (CM 141.4)

**12. Adam oğurluğu (CM 144) cinayət tərkibinin xüsusilə ağırlaşdırıcı halına aiddir:**
a) silahdan, yaxud silah qismində istifadə edilən əşyalardan istifadə etməklə törədilməsi
b)zərərçəkmiş şəxsin həyatı və sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədilməsi
c) bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsi
d) yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsi

**13. Oğurlanan şəxsin insan alveri cinayətinin predmetinə çevrilməsi**
a) adam oğurluğu və insan alveri cinayətlərinin məcmusu qaydasında tövsif edilməlidir
b) adam oğurluğu cinayəti kimi tövsif edilməlidir
c) insan alveri cinayəti kimi tövsif edilməlidir
d) başa çatmış adam oğurluğu və insan alveri cinayətinə hazırlığa görə tövsif edilməlidir.

**14. Oğurlanmış şəxsin qanunsuz azadlıqdan mərhum edilməsi:**
a) "Adam oğurluğu" (CM144) və "Qanunsuz azadlıqdan məhrum etmə" (CM 145)
b) "Adam oğurluğu" (CM 144.1)
c) "Qanunsuz azadlıqdan məhrum etmə" (CM 145)
d) ağır nəticələrə səbəb olan adam oğurluğu cinayəti (CM 144.3)

**15. Bərabərlik hüququnu pozma (CM 154) cinayəti başa çatmış sayılır:**
a) şəxsin hüquq və qanuni mənafelərinə zərər vurulduğu andan
b) zərərçəkmiş şəxsin sağlamlığına zərər vurulduğu andan
c) zərərçəkmiş şəxsin ölümü və ya sağlamlığına zərər vurulduğu andan
d) zərərçəkmiş şəxsin ölümü baş verdiyi andan

**16. Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma (CM 155) cinayəti başa çatmış sayılır:**
a) təqsirkarın qəsdən edilmiş qanunsuz hərəkətləri nəticəsində digər şəxslərin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatlarının sirrini pozduğu andan
b) təqsirkarın qəsdən edilmiş qanunsuz hərəkətləri nəticəsində digər şəxslərin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatları ələ keçirdiyi andan

c) təqsirkarın qəsdən edilmiş qanunsuz hərəkətləri nəticəsində digər şəxslərin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların məzmunu ilə tanış olduğu andan
d) təqsirkarın qanunsuz hərəkətlər etməklə digər şəxslərin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatları topladığı andan

**17. "Seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma" (CM 159) cinayətindən zərərçəkmiş şəxs :**
a) 18 yaşına çatmış seçki hüququna malik olan istənilən şəxsdir
b) Azərbaycan Respublikasının 18 yaşına çatmış seçki hüquqlarına malik olan vətəndaşlarıdır
c) Azərbaycan Respublikasının 16 yaşına çatmış seçki hüquqlarına malik olan vətəndaşlarıdır
d) Azərbaycan Respublikasının 25 yaşına çatmış passiv seçki hüququna malik olan vətəndaşlarıdır

**18. Bu hərəkətlərdən biri "Seçki (referendumda iştirak") sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma (CM 161) cinayətinin obyektiv cəhətinə daxil deyil**
a) seçki (referendumda iştirak) sənədlərinin saxtalaşdırılması
b) vətəndaşın adının seçici siyahısına daxil edilməməsi
c) bilə-bilə səslərin düzgün hesablanmaması
d) səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi

**19. "Bilə-bilə səsləri düzgün hesablamama, səsvermənin nəticələrini düzgün müəyyənləşdirməmə, yaxud səsvermənin gizliliyini pozma" (CM 161.1) cinayətinin sübyekti:**
a) istənilən vəzifəli şəxsdir
b) seçki komissiyasının üzvüdür
c) yalnız seçki komissiyasının sədridir

d) seçki komissiyasının üzvləri istisna olmaqla, istənilən vəzifəli şəxs, o cümlədən seçki komissiyasının sədri ola bilər

## Mövzu № 24

## Mülkiyyət əleyhinə olan cinayətlər

***Vaxt: - 16***
***Mühazirə: - 6***
***Seminar: - 6***
***Təcrübi məşğələ - 4***

### I Seminar məşğələsinin sualları:

1. Mülkiyyət əleyhinə olan cinayətlərin anlayışı və təsnifatı
2. Talamanın anlayışı, əlamətləri, formaları və növləri

a) oğurluq cinayətinin anlayışı, tərkibinin təhlili və tövsifedici əlamətləri

b) soyğunçuluq cinayətinin anlayışı, tərkibinin təhlili və tövsifedici əlamətləri

### II Seminar məşğələsinin sualları:

c) quldurluq cinayətinin anlayışı, tərkibinin təhlili, tövsifedici əlamətləri və onun soyğunçuluq cinayətindən fərqi

d) dələduzluq cinayətinin anlayışı və tövsifedici əlamətləri

e) mənimsəmə və ya israfetmə cinayətinin anlayışı, tərkibinin təhlili, tövsifedici əlmaətləri və onun dələduzluq cinayətindən fərqi

### III Seminar məşğələsinin sualları:

1. Hədə-qorxu ilə tələb etmə cinayətinin anlayışı, tərkibinin təhlili, tövsifedici əlamətləri və onun quldurluq cinayətindən fərqi

2. Tamah motivi ilə əlaqədar olmayan mülkiyyət əleyhinə olan cinayətlərin növləri və ümumi xarakteristikası

**Mövzunun qısa məzmunu**

İnsan və vətəndaşın mülkiyyət hüquqlarının müdafiəsinin konstitusiya təminatı.

Mülkiyyət əleyhinə olan cinayətlərin anlayışı, əlamətləri və növləri.

Talamanın anlayışı, əlamətləri, predmeti, formaları və həcmə görə növləri.

Oğurluğun anlayışı və tövsifedici əlamətləri. Dələduzluğun anlayışı və tövsifedici əlamətləri.

Mənimsəmə və ya israf etmənin anlayışı və tövsifedici əlamətləri. Mənimsəmə və israf etmənin dələduzluq cinayətindən fərqləndirici əlamətləri.

Soyğunçuluğun anlayışı və tövsifedici əlamətləri. Bu cinayətin oğurluqdan fərqi.

Quldurluq. Anlayışı və tövsifedici əlamətləri. Quldurluqda tətbiq olunan zorun xarakteri. Quldurluğun soyğunçuluqdan fərqli əlamətləri. Quldurluğun tərkib quruluşunun xüsusiyyətləri.

Hədə-qorxu ilə tələb etmə. Hədə-qorxu ilə tələb etmə cinayətinin predmetinin xüsusiyyətləri. Anlayışı və tövsifedici əlamətləri. Hədə-qorxu ilə tələb etmənin quldurluq cinayətindən fərqli əlamətləri.

Xüsusi dəyəri olan əşyaları talama. Anlayışı və tövsifedici əlamətləri.

Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə. Anlayışı və tövsifedici əlamətləri.

Əmlakı qəsdən məhv etmə və ya zədələmə. Anlayışı və tövsifedici əlamətləri.

Əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə. Anlayışı və tövsifedici əlamətləri.

Torpaq üzərində mülkiyyət hüququnu pozma cinayətinin anlayışı və əlamətləri.

Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması. Anlayışı və tövsifedici əlamətləri.

**Aşağıdakı məsələləri həll edin.**
**I təcrübə məşğələsi.**

| | |
|---|---|
| 1-ci taqım № 1-3 | 4-cü taqım № 10-12 |
| 2-ci taqım № 4-6 | 5-ci taqım № 13-15 |
| 3-cü taqım № 7-9 | 6-cı taqım № 16-19 |

**II təcrübə məşğələsi.**

| | |
|---|---|
| 1-ci taqım № 25-27 | 4-cü taqım № 36-38 |
| 2-ci taqım № 29-31 | 5-ci taqım № 39-40 |
| 3-cü taqım № 33-35 | 6-cı taqım № 41-43 |

**Yoxlama sualları:**

1. Mülkiyyət əleyhinə olan cinayətlərin predmeti nə ola bilər?
2. Mülkiyyət əleyhinə olan cinayətlərin növləri.
3. Talamanın anlayışı, əlamətləri və formaları.
4. «Qanunsuz daxil olma» dedikdə nə başa düşülür?
5. «Xeyli miqdarda ziyan vurmaqla» və ya «külli miqdarda ziyan vurmaqla» dedikdə nə başa düşülməlidir?
6. Mənimsəməyə anlayış verin.
7. İsraf etməyə anlayış verin və bu cinayəti mənimsəmədən fərqləndirin.
8. Quldurluq cinayətinin soyğunçuluq cinayətindən fərqli əlamətini göstərin.
9. Quldurluq cinayətinin hədə-qorxu ilə tələb etmə cinayətindən fərqli əlamətlərini göstərin.
10. Nə üçün hədə-qorxu ilə tələb etmə cinayəti talama cinayəti hesab edilmir?

## Referat mövzuları:

1. Dələduzluq və mənimsəmə cinayətlərinin oxşar və fərqli cəhətləri.
2. Mənimsəmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.
3. İsraf etmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.
4. Talama məqsədi olmadan qanunsuz avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ kecirmə.
5. Əmlakı qəsdən məhv etmə və ya zədələmə cinayətinin məsuliyyəti ağırlaşdıran əlamətləri.
6. Talama cinayətlərinin predmetinin xarakteristikası.
7. Talama cinayətlərində təkrarlılıq əlaməti.

## Mövzuya aid ədəbiyyat:

1. Azərbaycan Respublikasının Konstitusiyası (13,29-cu maddələr). Bakı , 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2021.
4. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 9 iyun 2011-ci il tarixli Qərarı.
5. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.4-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 21 oktyabr 2011-ci il tarixli Qərarı.
6. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.4-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 21 oktyabr 2011-ci il tarixli qərarı ilə bağlı hakim İ.Ə.Nəcəfovun xüsusi rəyi

7. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeyd hissəsinin 3-cü bəndinin şərh edilməsi haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 4 mart 2013-cü il tarixli Qərarı.
8. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 30 mart 2015-ci il tarixli Qərarı.
9. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 22 iyun 2015-ci il tarixli Qərarı
10. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeyd hissəsinin 1 və 3-cü bəndlərinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 23 aprel 2018-ci il tarixli Qərarı.
11. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Oğurluq, soyğunçuluq və quldurluğa dair işləri üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2005-ci il tarixli 1№-li Qərarı
12. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 11 iyun 2015-ci il tarixli 7 №-li Qərarı.
13. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). "Bakı, 2019.
14. İmanlı M.K. "Cinayət hüququ Xüsusi hissə" Dərslik. Bakı, 2019
15. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. "Bakı, 2010.

16. Əhmədov M., Əliyev Ə. Məmmədli İ., Mülkiyyət əleyhinə olan cinayətlər. Dərs vəsaiti. Bakı. 2008.
17. Əhmədov M.B.. Məmmədli İ.F. "Oğurluq cinayətinin anlayışı və onun tövsifinə dair bəzi məsələlər "Gənc alimlərin əsərləri №15, Bakı, 2017, s.144-149
18. Aslanov Orxan. Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində mülkiyyət əleyhinə edilən cinayətlərə görə müəyyən edilən sanksiyaların təkmilləşdirilməsi problemləri. Bakı, 2018.
19. Yousefi M.H.Talama cinayətlərinin növü kimi quldurluq cinayətinin İran İslam Respublikası və Azərbaycan Respublikası Cinayət Məcəllələrinə əsasən tövsifi məsələləri. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri. Humanitar elmlər seriyası № 34, Bakı, 2014, s.44-50

## Terminoloji tapşırıq

**Beh** – müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək üçün tərəflərdən birinin digərinə müqavilə üzrə çatacaq ödəmə hesabına verdiyi pul məbləği

**Daşınar əmlak** - torpaq və onunla bilavasitə bağlı olmayan, bir yerdən başqa yerə aparıla bilən bütün əmlak: daşınmaz əmlakın əksi

**Daşınmaz əmlak** – torpaq və onunla bilavasitə bağlı olan şeylər (torpaq sahələri, binalar, qurğular və s.) habelə daşınmaz şeylərə olan əşya hüququ

**Dələduzluq** - aldatma və etibardan sui-istifadə etmək tolu ilə dövlətin və ya vətəndaşların əmlakını ələ keçirmə və ya əmlaka olan hüquqları əldə etmə

**Ekspeditor** – fr. Exspediteur 1) mal və s. göndərməklə məşğul olan və ya üzərinə malların daşınmasını götürən şəxs; 2) tar. Çar Rusiyasında: bəzi idarələrdə şöbə rəisi, məmur

**Əşya** - hüquqda – təbii vəziyyətdə olan, yaxud insan əməyi ilə yaradılan xarici (maddi) aləmin predmeti; əmlak hüquq münasibətlərinin əsas obyekti
**Ekvivalent-** iqt. Başqa bir əmtəənin dəyərini təmsil edən eyni qiymətli, bərabər-qüvvəli əmtəə
**Kleptofibiya –** yun. klepromania – oğurluqdan, qarət edilməyə məruz qalmaqdan qorxmaq
**Kleptomaniya** – yun. kleptomania – oğurluğa meyillik – impulsiv olaraq heç nə ilə əsaslanmayan oğurluq
**Konteyner -** ing. Container müxtəlif nəqliyyat növləri ilə yük daşımaq üçün müəyyən ölçüdə və quruluşda böyük yeşik
**Mülkiyyət hüququ** – maddi nemətlərin ayrı-ayrı şəxslərə, yaxud kollektivlərə məxsus olduğunu təsbit və mühafizə edən, mülkiyyətçinin öz əmlakına münasibətdə hüquqlarının həcmini və məzmununu, onların həyata keçirilməsi üsullarını və dairəsini müəyyən edən hüququ normalarının məcmusu

**Məsələlər:**

1. Rasim Əlirzayev 05 may 2020-ci il tarixdə saat 19 radələrində Gəncə şəhəri, Kəpəz rayonunda yerləşən mağazaya müştəri qismində daxil olarub 120 manat dəyərində spirtli içki hesab edilən "Gilan" adlı konyakı gizli yolla talayaraq zərərçəkmiş şəxsə maddi ziyan vurmuşdur. Bundan başqa, o, tanışı Sahib Qədirov ilə 07 may 2020-ci il tarixdə saat 20:00 radələrində Gəncə şəhəri Nizami rayonunda yerləşən mağazaya müştəri qismində daxil olaraq 48 manat dəyərində spirtli içki hesab edilən "Organika" adlı araq və eyni zamanda 74 manat dəyərində Fransa istehsalı olan 1.0 litr spirtli içki hesab edilən "Grey Goose" adlı arağı gizli yolla talayaraq zərərçəkmiş şəxsə ümümilikdə 122 manat maddi ziyan vurmuşdur. Bundan başqa, o, 25 may 2020-ci ildə saat 18 radələrində Bakı şəhəri, Nəsimi rayonunda yerləşən mağazaya müştəri qismində daxil olaraq 256 manat dəyərində spirtli içki hesab edilən «Macallar» adlı viskini gizli yolla talayaraq əynindəki şalvarın kəmərinin arxa

nahiyyəsinə bərkidərək mağazanı gizli olaraq tərk edərkən mağazanın mühafizəçiləri tərəfindən saxlanılmış və öz iradəsindən asılı olmayan səbəblərə görə cinayət əməlinin başa çatdıra bilməmişdir.

**Əmələ hüquqi qiymət verin.**

2. Şəmkir şəhər sakini Tərlan Qəmbərli 25.02.2021-ci il tarixdə saat 16 radələrində Şəmkir şəhərində yerləşən, tanıdığı şəxs olan Osmanlının işlətdiyi qızıl mağazasına gələrək bir neçə qızıl əşyasını seçib mücrüyə yığmaqla ona verməsini xahiş etmişdir. Qızıl mağazasının sahibi Osmanlı onun seçib göstərdiyi qızılları mücrüyə yığıb Qəmbərlinin qarşısına qoymuşdur. Həmin vaxt Qəmbərli vitrində olan brilyant qaşlı üzüyü də ona verməyi bildirmişdir. Osmanlı çevrilib Qəmbərovun göstərdiyi üzüyü götürərkən Qəmbərov cəld şəkildə qarşısına qoyulmuş mücrünu açıb orada olan qızıl əşyalarından ikisini götürüb ağzını bağlamışdır. Osmanlı isə vitrindən götürdüyü üzüyü ona təqdim etdikdə, Qəmbərli ona bildirmişdir ki, yadından çıxıb pul götürməyib. O indi pulu gətirib qızılları götürəcək. Osmanlı bir müddət gözləsə də Qəmbərli gəlməmişdir. Buna görə o mücrüyə yığdıqları qızılları yerinə qoymaq istəyərkən qızıl əşyalarından ikisinin mücrüdə olmadığını aşkar etmişdir və bu səbəbdən Şəmkir rayon Polis Şöbəsinə ərizə ilə müraciət etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

3. Qasımlı Nicat 12.04.2020-ci iltarixdə saat 18 radələrində Bakı şəhərində bankomatın yanında dayanarkən 77 yaşlı Dursun Musayeva yaxınlaşaraq pensiya kartından pulunu çıxarıb ona verməsini xahiş etmişdir. Nicat Qasımlı qadının pensiya kartında olan pulunu çıxarmış, lakin ona kartında pulunun olmadığını bildirmişdir. Dursun Musayeva Qasımlıya inanıb ondan kartı alıb çıxıb getmişdir. Əməliyyat axtarış tədbirləri nəticəsində Qasımlı tutularaq Binəqədi rayon Polis İdarəsinə aparılmışdır. Məlum olmuşdur ki, Qasımlı dəfələrlə

bu kimi əməlləri törətmişdir. Belə ki, o şəhərin müxtəlif istiqamətlərində yerləşdirilmiş bankomatların yanında dayanmış, bankomatdan pul çıxarmaq məqsədi ilə oraya gəlmiş yaşlı adamların xahişləri ilə onlardan pensiya kartlarını alaraq pullarını mənimsəmişdir.

**Əmələ hüquqi qiymət verin.**

4. Sərxan Əzizov qonşusu Salmanovun sərxoş vəziyyətdə olduğunu görüb ondan 1000 manat borc verməsini xahiş etmişdir. Salmanov cibindən 2500 manat pul çıxararaq ona verərək "dayın ölməyib al götür" demişdir. Sərxan Əzizovun rahatlıqla narazılıq etmədən ona pul verdiyini görüb əgər imkandırsa 1000 manat da ver demişdir. Həmin vaxt Salmanov ona pul vermək istəsə də bir daha verməyə pulu olmamışdır. Sərxan pulu götürüb bir daha ona qaytarmamışdır.

**Əmələ hüquqi qiymət verin**

5. Hüseyin Abbasov Tovuz şəhərində qonşu küçədə yaşayan şəhər sakini Qədirolinin evinə daxil olmaqla evdən ona məxsus olan qızıl-zinət əşyalarını və sürücülük vəsiqəsini götürmüş və qızılları satmaq məqsədi ilə Şəmkir şəhərində olan qızıl mağazasına gətirmişdir. O, mağaza sahibinə şəxsiyyət vəsiqəsinin üzərində olmadığını bidirərək, Qədirolinin sürücülük vəsiqəsini öz vəsiqəsi kimi təqdim etməklə evdən götürdüyü qızıl-zinət əşyalarını 12 min manata ona satmış, Qədirliyə məxsus olan sürücülük vəsiqəsini isə Şəmkir şəhərində yol kənarına atmışdır.

**Əmələ hüquqi qiymət verin**

6. İsmayıllı Sübhan Pünhan oğlu 27.03.2020-ci il tarixdə Seyidli Aybəniz Qulam qızına məxsus Bakı şəhəri, Binəqədi rayonu, 9-cu mikrorayon, Cəfər Cabbarlı küçəsi, ev 145 ünvanında yerləşən 5 otaqlı fərdi yaşayış evinin 4 otağını kirayə götürməsi barədə onunla razılığa gələrək evin giriş

qapısının açarlarını almışdır. 04 aprel 2020-ci il tarixdə saat 03 radələrində isə o Seyidli Aybəniz Qulam qızının şəxsi əşyalarının və digər əmlakının saxlanılması üçün saxlanc yeri kimi istifadə etdiyi evin 5-ci otağın qapısının kilidini açaraq oraya daxil olub hər birinin qiyməti 900 manat olan 16 ədəd xalçanı və hər birinin qiyməti 300 manat olan 8 ədəd tül pərdəni götürməklə zərərçəkmişə maddi ziyan vurmuşdur. Seyidli Aybəniz Qulam qızı ona məxsus əşyalarının naməlum şəxs tərəfindən oğurlanması barədə DİN-in 102 xidmətinə zəng etmişdir.

**Əmələ hüquqi qiymət verin**

7. Asim Xudaverdiyev 14 mart 2020-ci il tarixdən 10 noyabr 2020-ci il tarixədək olan müddət ərzində Arif Muradlıya məxsus Bakı şəhəri, Abşeron rayonu Qobu qəsəbəsi sahəsində olan, saxlanc yeri hesab edilən, yaşayış üçün yararsız olan evin plastik pəncərəsindən qanunsuz içəri daxil olmuş və oradan hər birinin uzunluğu 170 metr, dəyəri 150 manat olan üç bağlama mis naqilləri, 1250 manat dəyərində divara quraşdırılmış vəziyyətdə olan elektrik naqillərini və 200 manat dəyərində olan bir ədəd "BOSCH" markalı laqondanı gizli olaraq talamışdır.

**Əmələ hüquqi qiymət verin.**

8. Akif Göyüşov həmkəndlisi İslam Xəlilovdan 1500 manat borc almışdı. O Xəlilovla telefonla danışaraq 17.02.2020-ci il tarixdə yaşadığı evin yaxınlığında onunla görüşüb pulunu verəcəyini bildirmişdir. Lakin xəstələndiyi üçün pulu bacısı oğlu İkram Hüseynliyə verib İslam Xəlilovun əlamətlərini ona bildirməklə çatdırmasını tapşırmışdır. İkram Hüseynov həmin ünvana gedərək küçədə bir nəfər şəxsin İslam Xəlilov olduğunu zənn etmiş və ona yaxınlaşmaqla özünü təqdim edib 1500 manat pulu və özünə məxsus 1000 manat pulu ona vermişdir. Sonradan İslam Xəlilov Göyüşova zəng edərək pulunun çatmadığını bildirmişdir. Məlum olmuşdur ki, İkram şəxsiyyəti məlum olmayan həmin şəxsdən İslam Xəlilov olmasını soruşduqda şəxs ona yalandan "bəli İslamam"

cavabını vermişdir. İkram dayısının borclu olduğu 1500 manatı ona verdikdə o İkrama dayısının 1500 yox 2500 manat məbləğində ona borclu olduğunu bildirmişdir. Buna görə İkram üzərində olan özünə məxsus 2000 manatdan 1000 manatını da həmin şəxsə vermişdir.

**Əmələ hüquqi qiymət verin**

9. Dəfələrlə məhkum olunmuş Qurbanlı özünü vətəndaşlara qazi kimi təqdim etmiş, onlara ailəsinin maddi imkanının olmadığını bildirmişdir. O vətəndaşlarla söhbət əsnasında həmişə hərbi geyimdə olmuşdur. Onun həqiqətən ikinci vətən müharibəsinin qazisi olduğunu zənn edən vətəndaşlar ayrı-ayrılıqda ona pul və digər formada maddi yardım etmişdirlər. Sonradan Qurbanlının fırıldaqçı olduğu və heç bir döyüşdə iştirak etmədiyi məlum olmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

10. Rüxsarə İmanova “Cin çıxarma ”adı ilə dəfələrlə yanına gələn xəstələrə baxmış,bunun müqabilində onlardan istədiyi pulları almışdır. Sonuncu dəfə o yaşadığı evdə Hüseynovanın bədənindən “cin çıxarmaq” üçün onun böğazından tutub sıxaraq ayinlər oxumuşdur. Həmin vaxt Hüseynova özünü piss hiss etmiş və bir neçə dəqiqə içərisində ölmüşdür. Rüxsarə İmanova Hüseynovanın qohumlarına onu gec gətirdiklərindən “cinin çıxması”-nın mümkün olmadığı üçün öldüyünü bildirmişdir. O, qeyd etmişdir ki, cini boğaz nahiyyəsindən çıxarmağa cəhd etsə də cin onunla razılaşmamış, buna görə Hüseynova vəfat etmişdir. Sonradan məlum olmuşdur ki, bu kimi ölüm hadisəsini İmanova bir dəfə də törətmişdir.

**Əmələ hüquqi qiymət verin.**

11. Ağdam rayon sakini Səid Muxtarlı özünü hüquqşünas kimi təqdim edib 20 sentyabr 2019-cu il tarixdə Gəncə şəhəri Gülüstan qəsəbəsində yerləşən Arif Vəliyevin direktor işlədiyi

“Sərdarlı-C” MMC-nin ofisində, ona “Nbank” ASC ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında onun xeyrinə qətnamə çıxaracağı, yəni Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 22.12.2019-cu il tarixli qətnaməsini ləğv etdirəcəyi barədə yalandan vəd verib aldadaraq bu məqsədlə 1.800 manat pulunu almış, bundan sonra bu hərəkətlərinin davamı olaraq həmin məqsədlə 2019-cu ilin oktyabr ayında 11.400 manat pulunu alaraq, ümumilikdə 13.200 manat pulunu ələ keçirməklə zərərçəkmiş şəxs Vəliyevə maddi ziyan vurmuşdur. O Vəliyevi inandırmaq məqsədilə guya Ali Məhkəmənnin hakimi tərəfindən qəbul edilmiş onun kassasiya şikayətinin təmin edilərək Gəncə Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 22.12.2010-cu il tarixli qətnaməsinin ləğv olunması və “N bank” ASC tərəfindən ona dəymiş 11.000 manat məbləğində maddi ziyanın ona ödənilməsi barədə istintaqa məlum olmayan yerdə, vaxtda və şəraitdə Ali Məhkəmənin Mülki Kollegiyasının 22.10.2019-cu il tarixli qərarını və 15.11.2019-cu il tarixli məktubunu, yəni hüquq verən rəsmi sənədləri istifadə etmək məqsədi ilə saxtalaşdırıb qanunsuz hazırlayaraq ona təqdim etmişdir. O bundan əlavə MC-nin ofisində, “Sbank” ASC ilə S.A.A. arasında bağlanmış kredit və ipoteka müqavilələrini ləğv etdirəcəyi, girov qoyulmuş “Zamanlı-C” MMC-nin balansında olan 0,28537 hektar torpaq sahəsində yerləşən 3772,4 kv.m ümumi, 1574,2 kv.m əsas, 2198,2 kv.m köməkçi sahədən ibarət əmlak kompleksinə dair çıxarışları alıb Aslanova verəcəyi barədə yalan vəd verib aldadaraq, bu məqsədlə onun 9.750 manat pulunu ələ keçirməklə zərərçəkmiş şəxs Aslanova maddi ziyan vurmuş, onu inandırmaq məqsədilə guya Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi S.A.A. tərəfindən qəbul edilmiş, onunla “Sbank” ASC arasında bağlanmış kredit və ipoteka müqavilələrinin ləğv edilməsi barədə istintaqa məlum olmayan yerdə, vaxtda və şəraitdə Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 22.10.2019-cu il tarixli qərarını, habelə guya

müqavilələr ləğv olunduğu üçün girovluqdan çıxarmış olduğu əmlaklara dair istintaqa məlum olmayan vaxtda və şəraitdə MH 1234567 və MH 3456789 seriya nömrəli 2 ədəd çıxarışı, yəni hüquq verən rəsmi sənədləri istifadə etmək məqsədi ilə saxtalaşdırıb qanunsuz hazırlayaraq ona təqdim etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

12. Asim Xudaverdiyev oğlunu işə düzəltdirmək istəyirdi və bununla bağlı vasitəçi axtarırdı. Onun bu fikirini eşidən tanışı Baxşəli Məsimov Asim Xudaverdiyevin pulunu almaq üçün yaxın dostu Kamil Vəliyevi ona vəzifəli şəxs kimi təqdim etmişdir. Kamil Vəliyev Xudaverdiyevə "SOCAR" neft şirkətində yüksək vəzifə sahibi olduğunu bildirərərk ondan 15000 manat almışdır. Lakin o Xudaverdiyevin oğlunu işə düzəltməmiş və ona yalandan verdiyi pulun oğurlandığını bildirmişdir və hətta o, pulunun oğurlandığı barədə DİN-in 102 xidmətinə zəng edərək məlumat vermişdir.

**Əmələ hüquqi qiymət verin**

13. Cavid Namazlı 23.11.2021-ci il tarixdə saat 18 radələrində Şəmkir rayonunda ev tikintisi üçün karxanada daş satan Qasımlı ilə razılaşaraq "Kamaz" markalı yük avtomaşınını daşla doldurmuş və Qasımlıya avtomaşını aparıb evində boşaltdıqdan sonra pulunu verəcəyini bildirmişdir. O daşları aparmış, pulunu isə verməmişdir. Bu səbəbdən Qasımlı ərazi aidiyyatı üzrə Şəmkir RPŞ-nə şikayət etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

14. Qonşusunun tövləsinin yandığını və orada olan insanların tövləni söndürməyə cəhd etdiklərindən başlarının qarışdığını görən Mahmudov yanğını söndürməyə kömək edən digər qonşusunun evində heç kəsin olmadığını müəyyən edərək, onun evinə daxil omuş və evdən 2500 manat pul götürmüşdür. O pulu götürdükdən sonra yanğını söndürməkdə qonşusuna

kömək etmişdir. Tövləsi yanan qonşu ondan həmin vaxt xırda buynuzlu heyvanların bir qismini müvəqqəti olaraq tövləsində saxlamasını xahiş etmişdir. Qonşu heyvanları saxlamaq üçün ona verdikdə gecə vaxtı olduğundan və eyni zamanda etibar etdiyindən onları sayıb təhvil verməmişdir. Onun xırda buynuzlu heyvanları çox olduğu üçün heyvanların bir qismini də digər qonşuların tövləsinə yerləşdirmişdir. Mahmudov heyvanları tövləyə saldıqdan bir qədər sonra onlardan doqquz baş xırda buynuzlu erkək quzuları öz tövləsindən çıxarmış və qonşu kənddə yaşayan əvvəllər məhkum olunmuş dostu Qədimovun evinin həyətinə aparmaqla onları taladığını bildirmiş və ondan bazar günü tezdən quzuları satıb pulunun yarısını ona verməsini bildirmişdir. Qədimov onunla razılaşmış və bazarda heyvanları sataraq pulları bölüşdürmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

15. Muxtarov Asif Qədir oğlu 14 aprel 2021-ci il tarixdə, saat 19 radələrində Bakı şəhəri, Nərimanov rayonu ərazisində küçə ilə gedən, 1948-ci il təvəllüdlü Seyidova Gülmira Abbas qızınaköməklik göstərəcəyini bildirərək, ondan hər iki əlində ümumilikdə içərisində 22 manat 40 qəpik dəyərində tərəvəz olan sellofan torbaları daşımaq üçün verməsini təklif etmişdir. Abbasova torbaları ona verdikdən sonra Asif Muxtarov oradan qaçmışdır.

**Əmələ hüquqi qiymət verin.**

16. Arif Xudu oğlu və qardaşı Asif 21 aprel 2021-ci tarixdə, saat 15 radələrində, Bakı şəhəri, Nəsimi rayonu, 3-cü mikrorayon dairəsində Akif Süleymanlının sərxoş vəziyyətdə olduğunu görüb, aralarında onun pulunu talamaq barədə razılığa gəldikdən sonra həmin məqsədlə onu Bakı şəhəri, Nəsimi rayonunda yerləşən "Narzan" adlanan kafeyə aparmışdirlar. Onlar orada ona bir qədər də spirtli içki qəbul etdirib müqavimət göstərə bilməyəcək vəziyyətə gətirdikdən

sonra Arif Xudu oğlu sonradan geri qaytaracağını bildirərək Akif Süleymanlıdan içərisində 3800 manat nağd pul olan pul kisəsini almışdır.

**Əmələ hüquqi qiymət verin.**

17. Bilgəh qəsəbəsində yaşayan Səmədov bir müddət qonşu küçədə yerləşən villanın sahiblərinin evə çox gec-gec gəldiklərini müşahidə etmiş və evdə olan nəzarətçinin qapını bağlayaraq getdiyini görüb əvvəllər məhkum olunmuş Bayramov ilə birlikdə “Qazel” markalı avtomaşınla həyətə daxil olmuşdur. Onlar evdə olan 3.000 manat dəyərində məişət avadanlıqlarını avtomaşına yükləyib həyətdən çıxıb küçə istiqamətində gedərkən, nəzarətçi ilə qarşılaşmışdırlar. Nəzarətçi onların əməllərini başa düşüb dayanmağa məcbur etmək istəyərkən, Səmədov avtomaşını onun üzərinə sürmüşdür. Həmin vaxt nəzarətçi Rüstəmov yıxılıb, ayağından yüngül xəsarət almışdır. Həmin vaxt nəzarətçi avtomaşının dövlət nömrə nişanının üzərinə çəkilmiş örtüyü cırmış,avtomaşının dövlət qeydiyyat nişanı barədə RPİ-nə məlumat vermişdir. Səmədov polis əməkdaşları tərəfindən tutulmuşdur. Sabahısı gün Səmədovun talamada iştirak edən dostu Bayramov nəzarətçi Rüstəmovu bıçaqla vuraraq, onun sağlamlığına ağır xəsarət yetirmişdir. Bayramov polis əməkdaşlarına nəzarətçini bıçaqlamağı Səmədovun tapşırdığını bildirmişdir.

**Əmələ hüquqi qiymət verin**

18. Salmanlı keçmiş məhkum yoldaşları Məsimli və Qafarlı ilə birlikdə söhbət edib Gəncə şəhər sakini Tofiq Quluzadənin 60.000 manat pulunu ələ keçirmək üçün onu evin zirzəmisinə salaraq döymüş və ondan Qulamova verdiyi pulu istəməsini tələb etmişdirlər. Buna görə Qulizadə Əbülfəz Qulamova telefonla zəng edərək 60.000 manat pulu qaytarmasını tələb

etmişdir. Qulamov pulu Salmanlının məhkum yoldaşı olmuş Qafarlıya vermişdir.

**Əmələ hüquqi qiymət verin**

19. Qulam Rzayev Bakı şəhəri, Binəqədi rayonunda yaşadıqları evdə nənəsindən qızıllarını verməsini tələb etmiş və vermədiyi təqdirdə onu öldürəcəyini bildirmişdir. Nənəsi ona qızılların yerinin yadından çıxdığını bildirdikdə o, nənəsinin başına bir neçə yumuruq zərbəsi vurmuşdur və qızılların yerini deməyəcəyi halda onu öldürəcəyini bir daha ona bildirib mətbəxtdə olan bıçağı götürərək ona yaxınlaşmışdır. Həmin vaxt Rzayeva qorxduğundan cibindən sandığın açarlarını çıxararaq ona vermiş və qızılların sandıqda olduğunu bildirmişdir. Qulam sandığı açaraq Rzayevaya məxsus qırx beş min manat dəyərində olan qızıl əşyalarını oradan götürmüş və nənəsinə yaxınlaşaraq onun yalvarışlarına baxmadan bədən səthinin müxtəlif nahiyyəsindən bıçaq zərbələri vurmaqla onu qətlə yetirmişdir. Sonradan isə üstündəki alışqanla evi yandıraraq oradan çıxmışdır. Əməliyyat-axtarış tədbirləri nəticəsində Rzayev yaxalanaraq Xətai rayon Polis İdarəsinə aparılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

20. Kərəm Quluyev 18.01.2021-ci il tarixdə saat 21 radələrində Bakı şəhəri Binəqədi rayonu ərazisində yolla piyada hərəkət edən 16 yaşlı Allahverdiyevə yaxınlaşıb konturunun olmadığını bildirib ondan xəstə atası ilə danışmaq üçün bir dəqiqələyinə telefonunu istəmişdir. Allahverdiyev ona inanaraq mobil telefonunu Quluyevə vermiş və sonradan ondan telefonu qaytarmağı tələb etmişdir. Lakin, Quluyev telefonu ona qaytarmaqdan imtina etmiş və onu öldürməklə hədələmişdir.

**Əmələ hüquqi qiymət verin.**

21. Quba rayon sakini Fəxri Vəliyev 29.11.2021-ci il tarixdə saat 18 radələrində məhkum yoldaşı Abbasovla Bakı şəhəri, Binəqədi rayonu ərazisində şəhər sakini Qarayevi öldürməklə hədələyərək ona məxsus olan “Mersedes” markalı avtomobili iki saat müddətində istifadə etmək üçün onlara vermələrini tələb etmişdirlər. Qarayev avtomobili verməkdən imtina edərkən Abbasov onun qarın nahiyyəsindən bıçaqla vuraraq sağlamlığına az ağır xəsarət yetirmişdir. Bundan Sonra Vəliyev yerə yıxılmış Qarayevin cibindən avtomobilin açarını və 143 manat pulunu götürərək avtomobilllə Salyan rayonuna getmişdirlər. Onlar avtomobildə olan və Qarayevin arvadına məxsus 800 manat məbləğində olan qızıl boyunbağını da aşkar edib götürmüşdür. Bundan sonra onlar avtomobili yol kənarında qoyub düşüb getmək istəyərkən DYP əməkdaşları tərəfindən saxlanılaraq Salyan RPŞ-nə aparılmışdırlar.

**Əmələ hüquqi qiymət verin.**

22. Ceyhun Məhərrəmov 24.01.2021-ci il tarixdə saat 21 radələrində spirtli içki qəbul etdikdən sona Ucar şəhər sakini Əliyevə məxsus "VAZ 2107" markalı avtomaşını onun yaşadığı binanın qarşısından sürərək yaşadığı evə gəlmişdir. Spirtli içkinin təsirindən ayıldıqdan sonra tanımadığı avtomaşında olduğunu başa düşərək, avtomaşında olan sənədlər vastəsilə avtomaşının sahibinin mobil nömrəsini öyrənib ona zəng vurmuş və avtomaşını geri qaytarmışdır. O avtomaşınına heç bir zərər yetirməmişdir.

**Əmələ hüquqi qiymət verin.**

23. Faiq Hüseynov yaşadığı rayonun ərazisində evinə yaxın məsafədə yerləşən 1ha torpaq sahəsinin ətrafını külünglə torpağa şıram çəkməklə işarələyərək oraya yaxınlaşan şəxslərə həmin ərazinin ona məxsus olmasını bildirmişdir. Məlum olmuşdur ki, Hüseynov həmin sahəyə özbaşına işarələr qoymuşdur. Torpaq bələdiyyə mülkiyyətində olmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Başqa şəxsə rüşvət verəcəyi adı ilə etibatrdan sui-istifadə etməklə özgənin əmlakını ələ keçirən təqsirkarın əməli necə tövsif edilməlidir?**

a) dələduzluq (CM 178) maddəsi ilə
b) rüşvət verməyə təhrik etmə (CM 32.4,312) maddəsi ilə
c) rüşvət verməyə təhrik etmə (CM 32.4,312) və dələduzluq (CM 178) maddəsi ilə
d) "Rüşvət vermə" (CM 311) maddəsi ilə

**2. Özünü vəd etdiyi öhdəliyi yerinə yetirə biləcək vəzifəli şəxs kimi təqdim edərək zərərçəkmişdən pul alıb onu mənimsəyən təqsirkarın əməli necə tövsif edilməlidir?**

a) "Dələduzluq" (CM 178) kimi
b) rüşvət verməyə təhrik etmə (CM 32.4, 312) kimi
c) "Dələduzluq" (CM 178) və rüşvət verməyə təhrik etmə (CM 32.4, CM 312) kimi
d) "Dələduzluq" (CM178) və rüşvət vermə (aktiv rüşvətxorluq) (CM 312)

**3. Təqsirkar şəxsin niyyətini əvvəlcədən bilərək ona 580 manat müavinat almaq hüququ verən saxta məzmuna malik olan rəsmi sənədi ona verən vəzifəli şəxsin əməlini tövsif edin.**

a) dələduzluğa köməkçilik (CM 32.5, 178) və "Vəzifə saxtakarlığı" (CM 313)
b) dələduzluğa köməkçilik (CM 32.5, 178)
c) dələduzluqda birgə icraçılıq (CM 32.2, 178.2.1)
d) "Vəzifə saxtakarlığı" (CM 313)

**4. İqtisadi sahədə cinayətlər:**

a) maddi nemətlərə sahiblik, istifadə və sərəncam verilməsi, habelə malların və xidmətlərin istehsalı, mübadiləsi,

bölüşdürülməsi və istehlakı ilə bağlı ictimai münasibətlərə qəsd edən ictimai təhlükəli əməllərdir
b) dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının normal idarəetmə fəaliyyətinə, vətəndaşların hüquq və qanuni maraqlarına ziyan vuran və ya ziyan vurulması təhlükəsi yaradan ictimai təhlükəli əməllərdir
c) dövlətin iqtisadi münasibətlərinin və siyasi sisteminin əsaslarına qəsd edən ictimai təhlükəli əməllərdir
c) dövlətin iqtisadi münasibətlərinin və siyasi sisteminin əsaslarına qəsd edən ictimai təhlükəli əməllərdir
d) fərdi və ya ümumi istehlak təyinatına malk maddi nemətlərin bölüşdürülməsi və ya istehsal fəaliyyətinin həyata keçirilməsi sahəsində yaranan münasibətlərə qəsd edən ictimai təhlükəli əməllərdir

**5. Talama hesab edilmir:**
a) özgə əmlakını hədə-qorxu ilə tələb etmə
b) özgə əmlakını aldatma yolu ilə ələ keçirmə
c) özgə əmlakını qanunsuz mənimsəmə
d) özgə əmlakını qanunsuz israf etmə

**6. Cinayət hüququnda talama cinayətlərinin anlayışını səciyyələndirmir:**
a) obyektiv cəhətin quruluşuna görə bütün talama cinayətləri maddi tərkiblidir
b) talamanın predmeti qismində ümumi (birgə) mülkiyyətdə olan əmlak çıxış edə bilməz
c) bütün talama cinayətləri subyektiv cəhətdən birbaşa qəsd və tamah niyyəti ilə səciyyələnir
d) talamanın predmeti qismində yalnız müəyyən hüquqi, fiziki və iqtisadi əlamətlərə malik əmlak çıxış edə bilər.

**7. Talamanın xeyli miqdarda ziyan vurmaqla törədilməsi dedikdə başa düşülür:**
a) 5000 manatdan – 50 000 manat ziyan vurulması
b) 500 manatdan – 5000 manatadək ziyan vurulması
c) 3000 manatdan – 7000 manatadək ziyan vurulması
d) 500 manatdan – 10000 manatadək ziyan vurulması

**8. Təqsirkar avtobusun şüşələrini sındırmaqla onun içərisinə daxil olmuş və oradan 400 manat məbləğində əmlakı gizli talamışdır. Əməl necə tövsif edilməlidir**.
a) “Oğurluq”( CM 177.1)
b) “Soyğunçuluq” kimi (CM 180.1)
c) saxlanc yerinə qanunsuz daxil olmaqla oğurluq kimi (CM 177.2.3)
d) saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədilən soyğunçuluq kimi (CM 180.2.3)

**9. Özgə əmlakını 200 manat məbləğində talayan təqsirkar başqa şəxsin onun bu əməlini gördüyünü və dərk etdiyini güman edir, lakin həmin şəxs təqsikarın törətdiyi əməli görmür. Əməl necə tövsif edilməlidir.**
a) “Soyğunçuluq” kimi (CM 180.1)
b) “Oğurluq” kimi (CM 177.1)
c) xırda talama kimi (İXM 227)
d) əməldə cinayət tərkibi yoxdur

**10. Təqsirkar yararsız silahla zərərçəkən şəxsi hədələyərək 20 manat almışsa və zərərçəkən şəxs silahın yararsız olduğunu dərk etmişsə, o zaman əməl tövsif edilməlidir:**
a) “Soyğunçuluq” kimi (CM 180.1)
b) həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə törədilən soyğuçuluq kimi (CM 180.2.4)
c) “Quldurluq” kimi (CM 181.1)

d) silah və silah qismində istifadə edilən əşyalar tətbiq etməklə törədilən quldurluq kimi (CM 181.2.5)

**11. Quldurluq zamanı zərərçəkmişin sağlamlığına qəsdən ağır zərər vurularsa və bu ehtiyatsızlıqdan onun ölümünə səbəb olarsa, əməl .....**

a) sağlamlığa ağır zərər vurmaqla quldurluq (CM 181.3.3) və qəsdən sağlamlığa ağır zərər vurmanın ehtiyatsızlıqdan ölümə səbəb olması (CM 126.3) tövsif olunmalıdır;

b) “Quldurluq” (CM181.1) və “Ehtiyatsızlıqdan adam öldürmə” (CM 124) tövsif olunmalıdır,

c) sağlamlığa ağır zərər vurmaqla törədilən quldurluq və ehtiyatsızlıqdan adam öldürmə (CM 181.3.3 və CM 124) tövsif olunmalıdır,

d) “Quldurluq” (CM 181.1) və qəsdən sağlamlığa ağır zərər vurmanın ehtiyatsızlıqdan ölümə səbəb olması (CM 126.3) tövsif olunmalıdır.

**12. Təqsirkar tapança maketi (oyuncaq) ilə zərərçəkmişi hədələyərək, digər ağırlaşdırıcı hallar olmadan onun əmlakını ələ keçirərsə əməl necə tövsif edilməlidir**

a) “Oğurluq”la (CM 181.1)

b) “Soyğunçuluq”la (CM 180.1)

c) silah qismində istifadə edilən əşyalar tətbiq etməklə törədilən quldurluqla (CM 181.2.5)

d) həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə soyğunçuluqla (CM 180.2.4)

**13. İqtisadi sahədə cinayətlər:**

a) maddi nemətlərə sahiblik, istifadə və sərəncam verilməsi, habelə malların və xidmətlərin istehsalı, mübadiləsi, bölüşdürülməsi və istehlakı ilə bağlı ictimai münasibətlərə qəsd edən ictimai təhlükəli əməllərdir;

b) dövlət hakimiyyət, yerli özünüidarəetmə orqanlarının normal idarəetmə fəaliyyətinə, vətəndaşların hüquq və qanuni maraqlarına ziyan vuran və ya ziyan vurulması təhlükəsi yaradan ictimai təhlükəli əməldir;
c) dövlətin iqtisadi münasibətlərinin və siyasi sisteminin əsaslarına qəsd edən ictimai təhlükəli əməllərdir;
d) fərdi və ya ümumi istehlak təyinatına malik maddi nemətlərin bölüşdürülməsi və ya istehsal fəaliyyətinin həyata keçirilməsi sahəsində yaranan münasibətlərə qəsd edən ictimai təhlükəli əməllərdir;

## Mövzu № 25

## İqtisadi fəaliyyət sahəsində olan cinayətlər.

***Vaxt: - 4***
***Mühazirə: - 2***
***Seminar: - 2***

### Seminar məşğələsinin sualları:

1. İqtisadi fəaliyyət sahəsində olan cinayətlərin anlayışı və təsnifatı
2. İqtisadi fəaliyyət sahəsində olan cinayətlərin anlayışı və növləri

### Mövzunun qısa məzmunu

İqtisadi fəaliyyət sahəsində olan cinayətlərin anlayışı və növləri. Hüquqi şəxslərin və digər təsərrüfat subyektlərinin sahibkarlığı və digər iqtisadi fəaliyyətini tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlərin anlayışı və növləri.

Qanuni sahibkarlıq fəaliyyətinə mane olma. Anlayışı və tövsifedici əlamətləri.

Torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı cinayətinin anlayışı və əlamətləri.

Qanunsuz sahibkarlıq. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq lotoreyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi. Anlayışı və tövsifedici əlamətləri.

İdman yarışlarının manipuliyasiyası. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə. Anlayışı və tövsifedici əlamətləri.

Dövlət borcundan və ya dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Daxili və xarici borc alma qaydasını pozma. Anlayışı və tövsifedici əlamətləri

Kreditor borclarını ödəməkdən qəsdən yayınma. Anlayışı və tövsifedici əlamətləri.

Yalançı sahibkarlıq. Anlayışı, növləri və tövsifedici əlamətləri.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma. Anlayışı və tövsifedici əlamətləri.

Cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə. Anlayışı və tövsifedici əlamətləri.

Əmtəə nişanlarından qanunsuz istifadə etmə. Anlayışı və tövsifedici əlamətləri.

Bilə-bilə yalan reklam etmə. Anlayışı və tövsifedici əlamətləri.

İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma. Anlayışı və tövsifedici əlamətləri.

Genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz dövriyyəsi. Anlayışı və tövsifedici əlamətləri

Dərman vasitələrinin qanunsuz dövriyyəsi. Anlayışı və tövsifedici əlamətləri.

Əqdin bağlanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə. Anlayışı və tövsifedici əlamətləri.

Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi. Anlayışı və tövsifedici əlamətləri

İxrac nəzarətinə aid sənəd və məlumatları yayma. Anlayışı və tövsifedici əlamətləri

Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma. Anlayışı, növləri və əlamətləri.

İxrac nəzarətinə aid sənəd və məlumatları yayma. Anlayışı və tövsifedici əlamətləri.

İnsayder tərəfindən xidməti məlumatdan qanunusuz istifadə. Anlayışı və tövsifedici əlamətləri.

Dövlətin və təsərrüfat subyektlərinin maliyyə-kredit fəaliyyətini tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlərin anlayışı və növləri.

Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Qiymətli kağızlar bazarında manipulyasiyalar. Anlayışı və tövsifedici əlamətləri.

Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma. Anlayışı və tövsifedici əlamətləri.

Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama, əldə etmə və ya satma. Anlayışı və tövsifedici əlamətləri. Saxta aksiz markalarının dövriyyəsi. Anlayışı və əlamətləri.

Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı. Anlayışı və tövsifedici əlamətləri.

Maddi qiymətli şeylərin gömrük sərhədindən keçirilməsini tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlərin anlayışı və tövsifedici əlamətləri.

Qaçaqmalçılıq. Anlayışı və tövsifedici əlamətləri.

Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama cinayətinin anlayışı və əlamətləri.

Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama. Anlayışı və tövsifedici əlamətləri.

Gömrük ödənişlərinin ödənilməsindən yayınma. Anlayışı və tövsifedici əlamətləri. Onun qaçaqmalçılıqdan fərqi.

Müflisləşmə prosesini tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlərin anlayışı və növləri.

Müflisləşmə zamanı qanunsuz hərəkətlər. Anlayışı, formaları və növləri.

Qəsdən müflisləşmə. Anlayışı və tövsifedici əlamətləri

Saxta müflisləşmə. Anlayışı və tövsifedici əlamətləri.

Ticarət və əhaliyə xidmət sahələrini tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlərin ümumi xarakteristikası.

İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma. Anlayşı və tövsifedici əlamətləri.

Vergilər və digər ödənişlərin ödənilməsi qaydalarını tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlərin anlayışı və növləri.

Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqları ödəməkdən yayınma. Anlayışı və tövsifedici əlamətləri.

Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, belə məhsulların (malların) nəğd qaydada alqı-satqısı. Anlayışı və tövsifedici əlamətləri.

Qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma. Anlayışı və əlamətləri.

Dövlət əyar damğalarını saxtalaşdırma. Anlayışı və tövsifedici əlamətləri.

**Yoxlama sualları:**

1. Sahibkarlıq fəaliyyəti nədir?
2. Qanuni sahibkarlıq fəaliyyətinə mane olma hansı formalarda həyata kecirilə bilər?
3. Torpaqla əlaqədar qanunsuz əqd nə deməkdir?
4. İstehlakçıları aldatma cinayətini dələduzluq cinayətindən fərqləndirin
5. Yalançı sahibkarlıq nədir?
6. Əmtəə nişanlarından qaunumsuz istifadə etmə nədir?
7. Bilə-bilə yalan reklam etmə nədir?
8. Gömrük ödənişlərindən yayınma cinayətinin qaçaqmalçılıq cinayətindən fərqi.
9. Qanunsuz sahibkarlıq nədir?

**Mövzuya aid ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası (13,15,29,59-cu maddələr). Bakı, 2019
2. “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında” Avropa Şurasının 8 noyabr 1990-cı il tarixli Konvensiyası (AR 1 mart 2003-cü il tarixli Qanunla qoşulmuşdur)
3. “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair” 2005-ci il mayın 16-da Varşava şəhərində imzalanmış Avropa Şurasının Konvensiyası (AR 31 may 2017-ci il tarixli Qanunla qoşulmuşdur)
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021
5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2021

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2021
7. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2021
8. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanunu
9. "Sahibkarlı fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli Qanunu
10. "Publik hüquqi şəxslər haqqında "Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli Qanunu
11. "Lisenziyalar və icazələr haqqında Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli Qanunu
12. "İstehlakşıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 19 sentyabr 1995-ci il tarixli Qanunu
13. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 56.1-ci maddəsini və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75 və 213-cü maddələrinin şərh edilməsinə dair" 8 aprel 2002-ci il tarixli Qərarı.
14. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.1-ci maddəsinin və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 78.3 və 78.4-cü maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 9 sentyabr 2013-cü il tarixli Qərarı.
15. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2 iyun 2016-cı il tarixli 10 saylı Qərarı.

16. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y.Səməndərovun red. ilə). Bakı, 2019.
17. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019
18. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
19. Əfəndiyev E. Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
20. Əliyev S.O. Qanuni sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə qarşı törədilən cinayətlərin xüsusiyyətləri. Bakı, 2011
21. Əliyev S.O. Bank fəaliyyəti əleyhinə törədilən cinayətlərin xüsusiyyətləri (cinayət – hüquqi və kriminoloji problemlər). Bakı, 2018.
22. Уголовное право. Особенная часть. Учебник. (под. ред. Ветрова Н.И. и Ляпунова Ю.И.) М., 2003.
23. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
24. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
25. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юрист. 2011.

## Referat mövzuları:

1. Torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
2. Qanunsuz olaraq lotareyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

3. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və tövsif problemləri
4. Cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və tövsif problemləri
5. Əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və tövsif problemləri
6. İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və ya satma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

## Terminoloji tapşırıq

**Aksiz** – fr. Accise.- malın məhsulun və ya göstərilən xidmətin qiymətinə daxil edilən vasitəli verginin bir növü

**Bank** - ital. Banco pol vəsaitlərinin toSeminar məşğələsinin suallarıması, pulla hesablaşmaların həyata keçirilməsi, müxtəlif qiymətli kağızların buraxılması, ayrı-ayrı şəxslərlə, müəssisələr, firmalar, idarələr və s. arasında qarşılıqlı hesablaşmalarda və ödəmələrdə vasitəçilik edən iqtisadi təşkilat

**Banknot** – ing. Bank –note emissiya bankı tərəfindən buraxılan faizsiz kredit, əskinaz

**Bəyan etmək** – bir məsələni rəsmi və ya təntənəli surətdə elan etmək

**Əqd** - fiziki və ya hüquqi şəxsin mülki hüquq və vəzifələrinin əmələ gəlməsinə, dəyişməsinə yönəldilmiş hərəkəti

**Emissiya** – lat emissio- buraxılma, qiymətli kağızların, bank biletlərinin və kağız puıların dövriyyəyə buraxılması

**Eyniləşdirmə** - son lat. identifico-eyniləşdirirmə, identikləşdirmə - kriminalistikada məhkəmə sübutlarını əldə etmək üçün müəyyən obyektin, yaxud şəxsiyyətin ümumi və

xüsusi əlamətlərini miqyaslı şəkildə öyrənməklə onların eyniliyini və ya fərqini müəyyən etmə

**Kreditor -** lat. creditor – vəkalət verən – mülki hüquqda öhdəlik tərəflərindən biri, borcludan müəyyən hərəkəti etməyi (əmlakı vermək, işi yerinə yetirmək, pulu qaytarmaq və s.) yaxud müəyyən hərəkətlərdən çəkinməyi tələb etməyə haqlı olan şəxs

**Leqalizasiya** – 1) sənədin hüquqi qüvvəsinin və hüquqiliyinin təsdiq edilməsi; 2) qanuni qüvvənin verilməsi, qanuniləşdirmə, rəsmi tanınma

**Lisenziya** – lat. lecentia - azadlıq, hüquq – səlahiyyətli dövlət orqanının xarici ticarət əməliyyatlarını aparmaq üçün verdiyi icazə

**Lotareya** – kütləvi və ya qrup şəklində aparılan oyun; onun gedişatında lotereya təşkilatçısı lotareya biletlərinin sahibləri və udanlar arasında uduş tirajı keçirir və lotareya mükafat fondunu bölüşdürür

**Qaçaqmalçılıq-** malların, qiymətli əşyaların və s. dövlət sərhədindən qanunsuz keçirilməsi

**Qanqster** – mütəşəkkil cinayət dəstəsi iştirakçısı; bu termin daha çox ABŞ-da yayılmışdır

**Tranzit -** lat. transitus – keçmə, keçid 1) bir ölkədən başqasına göndərilən və ya gedən sərnişinlərin yolda üçüncü bir ölkədən keçməsi; 2) malların birbaşa göndərilməsi

**Valyuta** – it. Valyuta – dəyər, qiymət 1) bir ölkədə qəbul edilmiş pul sistemi; 2) xarici ölkə pulu

**Məsələlər:**

1. Hüseyin Kamilov Şirvan şəhərində qonşu küçədə yaşayan şəhər sakini Qədirovun evinə daxil olmaqla evdən ona məxsus olan qızıl-zinət əşyalarını götürmüş və qızılları Gəncə şəhərində tanışı Məmmədova 22 min manata satmışdır və sonra isə həmin pulu Gəncə şəhərində yerləşən bankda işləyən yaxın qohumu Zakirova əmanət kimi təqdim etməklə adına hesab

açılmasını xahiş etmişdir. Məlum olmuşdur ki, Zakirovla qohumu Kamilov bu hadisəni əvvəlcədən Seminar məşğələsinin suallarılaşdırmışdırlar. Kamilov həmin pulla bağlı bankda adına hesab açılmasına və pulun 20 min manatının həmin hesaba yerləşdirilməsinə görə Zakirova 1500 manat pul vermişdir.

**Əmələ hüquqi qiymət verin.**

2. Qulam Babaxanov vətəndaş Kamilovun evini almaq üçün saxta pul hazırlamışdır.

**Əmələ hüquqi qiymət verin.**

3. Baş Gömrük İdarəsinin əməkdaşları "Qırmızı Körpü" gömrük postunda telefonların qanunsuz yolla ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısını alıb.Belə ki, Baş İdarənin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında Gürcüstan istiqamətindən gələn "Mercedes-Benz" markalı yük nəqliyyat vasitəsi saxlanılıb və gömrük baxışı keçirilib. Yoxlama zamanı avtomobilin salonundakı soyuducuda yerləşdirilən yağ qutusunun içərisində gömrük nəzarətindən gizlədilən 10 ədəd "İphone 11" markalı mobil telefon aşkar edilib.

**Əmələ hüquqi qiymət verin.**

4. Arif Kərəmov “S.A.A” MMC-nin nizamnaməsində nəzərdə tutulmuş funksiyaları özü yerinə yetirib təşkilatın maliyyə təsərrüfat fəaliyyəti uçotunun aparılması vəzifəsini öz üzərinə götürmüş, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi vəzifəsini nəzərdə tutan əməliyyatlar apararaq rəsmiləşdirmiş və bununla bağlı vergi ödəyicisi kimi məsuliyyət daşıyaraq, müvafiq vergilərin ödənilməsinin təmin edilməsinə cavabdeh olduğu halda, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.1,16.1.3, 16.1.6, 16.1.7, 72, 78.1, 101, 103-105

150,155,157, 168, 173,174, 177, 180.1 və 196-202-ci maddələrinin tələblərini pozarar, cəmiyyətin qeydiyyatda olduğu vergi orqanına təqdim etdiyi bəyannamələrə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil etməklə və bəyannamə təqdim etməməklə 215.191,58 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməmişdir.

**Əmələ hüquqi qiymət verin.**

5. Saleh Fərzəliyev tanışı Dadaş Şahbazovla əldə edilmiş razılığa uyğun olaraq, gəlir əldə etmək üçün aldığı 12 ədəd müxtəlif ölçülü karton qutularda qablaşdırılmış Azərbaycan Respublikasının aksiz markası ilə markalanmalı olan, lakin, belə marka ilə markalanmamış ümumilikdə 15281,60 manat dəyərində müxtəlif markalı siqaretləri Bakı şəhəri, Nərimanov rayonunda yerləşən dükanında saxlamış, onu satmaq üçün daha sonra qohumunun "Mersedes" markalı, avtomobilinin salon və baqajına yükləmişdir. 21.02. 2021-ci il tarixində saat 23:00 radələrində Dövlət Gömrük Komitəsi Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində avtomobil saxlanılmış Dövlət Gömrük Komitəsinin inzibati binasının həyətinə gətirilərək orada keçirilmiş baxış zamanı qeyd edilən siqaretlər həmin minik avtomobilinin salonu və baqajından 12 ədəd müxtəlif ölçülü karton qutulardan aşkar edilərək götürülmüşdür.

**Əmələ hüquqi qiymət verin**.

## Test tapşırıqları

**1. İstehlakçıları aldatma cinayəti (CM mad. 200.1) hansı andan başa çatmış sayılır?**

a) istehlakçıya xeyli miqdarda ziyan vurulan andan;

b) istehlakçıya ziyan vurulmasından asılı olmayaraq, onun aldadılmasına yönəlmiş bütün hərəkətlərin həyata keçirildiyi andan;

c) nəticələrin baş verməsindən asılı olmayaraq, istehlakçının aldadılmasına yönəlmiş ilkin hərəkətlərin edildiyi andan;
d) ziyanın aşkar edildiyi andan

**2. Xaricdən qaytarılmayan valyuta vəsaitləri hansı məbləğdə olduqda CM-in 208-ci maddəsilə məsuliyyət yaranır?**
a) 20000 manatdan 30000 manatadək
b) 7000 manatdan çox
c) 7000 manatdan 20000 manatadək
d) 1000 manatdan 7000 manatadək

**3. Qanunsuz sahibkarlıq (CM mad. 192) fəaliyyəti hansı bənddə daha dəqiq ifadə olunmuşdur?**
a) xeyli miqdarda ziyan vurmaqla və ya xeyli miqdarda gəlir əldə etməklə müşayiət olunan, qeydiyyatsız və ya xüsusi razılıq (lisenziya) almadan, yaxud lisenziyalaşdırma şərtlərinin pozulması ilə həyata keçirilən sahibkarlıq fəaliyyətidir;
b) məcburi qaydada icazə (lisenziya) alınmalı olduğu halda, belə icazə (lisenziya) almadan həyata keçirilən və külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə müşayiət olunan sahibkarlıq fəaliyyətidir;
c) lisenziya qaydalarını pozmaqla həyata keçirilən sahibkarlıq fəaliyyətidir;
d) sahibkarlıq fəaliyyətinin xüsusi icazə olmadan həyata keçirilməsidir

**4. Terrorçuluq (CM mad.214) cinayəti hansı andan başa çatmış hesab edilir?**
a) terrorçuluğa görə məsuliyyət müəyyən edən normanın dispozisiyasmda nəzərdə tutulmuş hərəkətlərdən hər hansı biri edildiyi andan;

b) partlayış, yanğın və sair bu kimi hərəkətlərin edilməsi ilə qanunla qorunan mənafelərə əhəmiyyətli zərər vurulduğu andan;
c) ictimai təhlükəli nəticələrin baş verdiyi andan;
b) heç olmazsa bir insanın sağlamlığına zərər vurulduğu və ya xeyli miqdarda maddi ziyan vurulduğu andan

**5. İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və ya satma (CM mad. 200) cinayətinin külli miqdarda törədilməsi hansı məbləği əhatə edir?**
a) üç min manatdan yuxarı olan məbləği
b) qırx manatdan artıq məbləği
c) yeddi min manatdan artıq məbləği
d) min manatdan yeddi min manata qədər olan məbləği

**6. Qaçaqmalçılıq cinayətinin törədilmə üsullarından biri səhv göstərilib**
a) malların və digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirilməsi
b) malların və digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirilməsi
c) malların və digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq ediləcəyi ilə hədələmə yolu ilə keçirilməsi
d) malların və digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə keçirilməsi

**7. Qaçaqmalçılıq cinayətinin tərkibinin yaranması üçün nəzərdə tutulan külli miqdarda dedikdə**
a) keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin 7000 manatdan çox olması başa düşülür
b) keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin 4000 manatdan çox olması basa düşülür

c) keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin 1000 manatdan çox olması başa düşülür
d) keçirilən qaçaqmalçılıq əşyalarının dəyərinin 10.000 manatdan çox olması başa düşülür

## MÖVZU № 26

## İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər

***Vaxt: - 8***
***Mühazirə: - 4***
***Seminar: - 2***
***Təcrübi məşğələ- 2***

### I seminar məşğələsinin sualları:

1. İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərin ümumi anlayışı və növləri.
2. İctimai təhlükəsizlik əleyhinə olan cinayətlərin anlayışı, növləri, tərkiblərinin təhlili və tövsifedici əlamətləri.
3. İctimai qayda əleyhinə olan cinayətlərin anlayışı, növləri, tərkiblərinin təhlili və tövsifedici əlamətləri.
4. Ümumi təhlükəli predmetlərlə davranma qaydalarının pozulması ilə əlaqədar cinayətlərin anlayışı, növləri, tərkiblərinin təhlili və tövsifedici əlamətləri.

### Mövzunun qısa məzmunu

İctimai təhlükəsizlik əleyhinə olan cinayətlərin anlayışı, növləri və ümumi xarakteristikası.

Terrorçuluq. Anlayışı və tövsifedici əlamətləri.

Terrorçuluğu maliyyələşdirmə cinayətinin anlayışı və əlamətləri.

Terrorçuluq məqsədi ilə təlim keçmə. Anlayışı və tövsifedici əlamətləri.

Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətinin anlayışı.

Adamları girov götürmə. Anlayışı və tövsifedici əlamətləri. Adamları girov götürmə cinayətinin adam oğurluğundan fərqli əlamətləri.

Banditizm. Anlayışı, formaları və əlamətləri. Bandanın anlayışı və əlamətləri. Bandanın silahlı quldur dəstəsindən fərqli əlamətləri.

Cinayətkar birlik (təşkilat) yaratma. Anlayışı və növləri. Bu cinayətin banditizmdən fərqi.

Hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma. Anlayışı və tövsifedici əlamətləri.

Dəniz quldurluğu. Anlayışı və tövsifedici əlamətləri.

Kütləvi iğtişaş. Anlayışı, formaları və tövsifedici əlamətləri.

Xuliqanlıq. Anlayışı və tövsifedici əlamətləri.

Tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Özbaşına tikinti işləri aparma. Anlayışı və tövsifedici əlamətləri.

Müvafiq icazə almadan mühafizə zonalarında tikinti və ya quraşdırma işləri aparma. Anlayışı və tövsifedici əlamətləri.

Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin dayandırılması barədə dövlət orqanlarının qərarlarını qərəzli olaraq icra etməmə. Anlayışı və əlamətləri.

Partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Partlayıcı, tez alışan maddələrin və ya pirotexniki məmulatın uçotu, saxlanması, daşınması və istifadə edilməsi qaydalarını pozma cinayətinin anlayışı və əlamətləri.

İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) istifadə qaydalarını pozma cinayətinin anlayışı və əlamətləri.

İxrac rejimini pozma cinayətinin anlayışı və əlamətləri.

Yanğın təhlükəsizliyi qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Radioaktiv materiallarla qanunsuz davranma. Anlayışı və tövsifedici əlamətləri.

Radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq silah hazırlama. Anlayışı və tövsifedici əlamətləri.

Odlu silahı diqqətsiz saxlama cinayətinin anlayışı və əlamətləri.

Silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların mühafizəsi üzrə vəzifələri lazımınca yerinə yetirməmə cinayətinin anlayışı və əlamətləri.

Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə. Anlayışı və tövsifedici əlamətləri.

İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə cinayətinin anlayışı və əlamətləri.

Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma. Anlayışı və tövsifedici əlamətləri.

Sertifikatlaşdırılmamış rabitə vasitələrinin satışının təşkili. Anlayışı və əlamətləri.

Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması. Anlayışı və əlamətləri.

Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili. Anlayışı və tövsifedici əlamətləri.

**Yoxlama sualları:**

1. İctimai təhlükəsizlik nədir?
2. Cinayətkar birlik yaratma cinayətinin anlayışını verin.
3. Kütləvi iğtişaşa necə anlayış vermək olar?
4. İctimai qayda nəyə deyilir?
5. Xuliqanlığın növləri hansılardır?
6. Yanğın təhlükəsizliyi qaydalarını pozma hansı hallarda cinayət məsuliyyətinə səbəb olur?
7. Odlu və ya soyuq silaha anlayış verin.
8. Odlu silahın komplekt hissəsinə anlayış verin.
9. Terrorçuluğa açıq çağırışlar cinayətinin anlayışını verin.

**Aşağıdakı məsələləri həll edin:**

**Təcrübə məşğələsi**

| | |
|---|---|
| 1-ci taqım № 1-3 | 4-cü taqım № 10-12 |
| 2-ci taqım № 4-6 | 5-ci taqım № 13-15 |
| 3-cü taqım № 7-9 | 6-cı taqım № 16-19 |

**Mövzuya aid ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası (28,32-ci maddələr). Bakı, 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. NATO-nun "Terrorrizmə qarşı mübarizə üzrə ilk İstinad Tədris Seminar məşğələsinin suallarıı"nı (Counter-terrorism Reference Curriculum) əsasında hazırlanmış "Terrorizmlə mübarizə üzrə istinad tədris proqramı".

4. “Terrorizmin qarşısının alınması haqqında” 27 yanvar 1977-ci il Avropa Konvensiyası (AR 5 dekabr 2003-cü il tarixli qanunla qoşulmuşdur).
5. “Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında” BMT-nin 9 dekabr 1999-cu il Konvensiyası (AR 1 oktyab 2001-ci il tarixli qanunla qoşulmuşdur).
6. “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” BMT-nin 15 noyabr 2000-ci il Konvensiyası (AR 13 may 2003-cü il tarixli qanunla qoşulmuşdur).
7. “Terrorçuluğun qarşısının alınması haqqında” Avropa Şurasının 16 may 2005-ci il Varşava Konvensiyası (AR 3 fevral 2014-cü il tarixli qanunla qoşulmuşdur).
8. “Adamların girov götürülməsi ilə mübarizə haqqında” 18 dekabr 1979-cu il tarixli Nyu–York Beynəlxalq Konvensiyası (AR 9 noyabr 1999-cu il tarixli qanunla qoşulmuşdur).
9. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 10 fevral 2009-cu il tarixli Qanunu.
10. “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli Qanunu.
11. “Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanunu.
12. Azərbaycan Respublikası Milli Məclisinin “AR CM-in bəzi normalarının tətbiqi qaydası haqqında 11 aprel 1995-ci il tarixli Qərarı.
13. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 29 dekabr 2003-cü il tarixli Qərarı.

14. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 21 iyun 2010-cu il tarixli Qərarı.
15. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.3-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 20 may 2011-ci il tarixli Qərarı.
16. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Banditizm üzrə məhkəmə təcrübəsi haqqında" 7 iyun 1996-cı il tarixli 1 №-li Qərarı.
17. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2004-cü il tarixli 1 №-li Qərarı.
18. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). "Bakı, 2019.
19. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019.
20. Ağayev İ. Azərbaycan Respublikasının Cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
21. Əfəndiyev E. Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
22. Комментарий к Уголовному кодексу (под. ред. Лебедева В.М).М., 2004.
23. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Сукратова Ю.И. и Лебедева В.М). М., 2013.
24. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юрист. 2011.

25. Уголовное право. Особенная часть. Учебник. (под. ред. Ветрова Н.И. и Ляпунова Ю.И.) М., 2003.

## Referat mövzuları:

1. Terrorçuluq cinayətinin anlayışı, və obyektiv cəhətinin xüsusiyyətləri.
2. Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə cinayətinin tövsif məsələləri.
3. Bandanın anlayışı və əlamətlərinin şərhi.
4. Kütləvi iğtişaş cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
5. Odlu silahı diqqətsiz saxlama cinayətinin predmeti və obyektiv cəhətinin xüsusiyyətləri.
6. Sertifikatlaşdırılmış rabitə vasitələrinin satışının təşkili cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.
7. Xuliqanlıq cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və onun oxşar cinayət tərkiblərindən fərqli cəhətləri.
8. Özbaşına tikinti işləri aparma cinayətyinin obyektiv cəhətinin xüsusiyyətləri.
9. Müvafiq icazə almadan mühafizə zonalarında tikinti və ya quraşdırma işləri aparma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

## Terminoloji tapşırıq

**Banda** – ital. Banda orta əsrlərdə muzdlu qoşun ddəstəsi; hazırda isə birgə cinayət törətmək məqsədilə yaradılmış sabit silahlı dəstə, qrup

**Xuliqan –** ictimai qaydanı kobud surətdə pozan adam

**Terror -** lat. terrir-qorxu, dəhşət qorxutmaq, siyasi rəqibləri əzmək və müəyyən davranış xəttini zorla qəbul etdirmək məqsədi ilə zorakı hərəkətlərin - təqiblər, dağıntılar, girovların alınması, qətillər və s. törədilməsi

**Vandal** – mədəniyyət abidələrini dağıdan, məhv edən şəxs

**Vandalizm** - tarix- mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılması, məhv edilməsi
**Qanqster** – mütəşəkkil cinayət dəstəsinin iştirakçısı, bu termin daha çox ABŞ-da yayılmışdır

**Məsələlər:**

1. Akif Kərimli 12.02.2021-ci il saat 13 radələrində sərxoş vəziyyətdə Bakı şəhəri, Sabunçu rayonunda, yerləşən kafedə tanışı Sakit Səlimovu onun masasında əyləşməkdən imtina etməsini bəhanə edərək pivə qədəhi ilə onun sifət nahiyyəsinə bir neçə dəfə vuraraq sağlamlığın uzun müddətə pozulması ilə nəticələnən burun tənəffüsünün pozulmasına səbəb olan burun sümüklərinin yerini dəyişən, qəlpəli, açıq sınığı, ənsə, qaşarası və burun nahiyyələrinin əzilmiş-cırılmış yaraları, hər iki gözətrafı və burun nahiyyələrinin qançırları ilə müşayiət olunan xəsarətlər yetirrmişdir.

**Əmələ hüquqi qiymət verin.**

2. Rəfayil Aslan oğlu 24.12.2021- ci tarixdə saat 15 radələrində yaşadığı rayonun mərkəzində yerləşən "Fərid kafe"-də spirtli içki içərək stol-stulu yerə aşırmış, kafedə olanları söyüb təhqir etmiş, hətta kafedə yemək yeyən rayonun Zəhmət kənd sakini Novruzalıyev Sahib Qəzənfər oğlunun burununa yumuruqla zərbələr vurub sındırmaqla sağlamlığına az ağır zərər yetirmişdir. O bundan dərhal sonra isə kafedə stolların birinin üzərində olan araq butulkasını götürərək kafenin pəncərəsini vurub sındırmışdır. Onun atdığı butulka pəncərəni sındırmaqla bayırda dayanmış xidməti iş başında olan polis əməkdaşı Bəxtiyar Şahsuvar oğlunun başına dəyərək onun sağlamlığına az ağır xəsarət yetirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

3. Dadaşov Sabir 24yanvar 2020-ci il tarixdə saat 17:30 radələrində Nərimanov rayonunda yerləşən yanacaqdoldurma

məntəqəsinin yaxınlığında olan avtomobil dayanacağında keçmiş arvadının hazırki əri Zaur Quluzadənin sosial şəbəkələrdə onun ünvanına nalayiq məlumatlar yaymasını səbəb kimi bəhanə edib mübahisə yaradaraq zor tətbiq etməklə Quluzadənin üz nahiyəsinə yumruqla bir neçə zərbə vurmuş və onun ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlətmişdir. Səs-küyə hadisə yerinə gəlib onları sakitləşdirməyə cəhd edən polis əməkdaşlarına məhəl qoymayan Dadaşov Quluzadəni döyməkdə davam etmişdir. Bu zaman Dadaşovun orada olan tanışları Əzizov və Quluyev polis əməkdaşlarına kömək edib dalaşanları sakitləşdirmək adı ilə onları aralamış və Quluzadəyə bir neçə təpik-yumuruq zərbəsi vurmuşdurlar. Dadaşovu tutub saxlayan polis əməkdaşları bunun səbəbini soruşduqda, onlar Dadaşovun sakitləşməsi üçün belə etdiklərini bildirmişlər. Dadaşov və onun tanışları ərazi aidiyyatı üzrə Polis İdarəsinə aparılmışdır. Döyülməsi ilə əlaqədar olaraq Zaur Quluzadə burnundan az ağır, bədən səthinin müxtəlif nahiyyələrindən isə sağlamlığa zərər vurmayan xəsarətlər almışdır.

**Əmələ hüquqi qiymət verin.**

4. Qulamlı Arif Səməd oğlu 19 mart 2021-ci il tarixdə, saat 15 radələrində, Bakı şəhəri Yasamal rayonu, Atatürk prospektində yerləşən kafenin ikinci mərtəbəsində Abbasov Qəhrəman Arzu oğlunun onu təhqir etməsini bəhanə edərək heç bir əsaslı səbəb olmadan masanın üzərində olan stəkandakı isti çayı Qəhrəmanov Abbasovun üzərinə atmış, daha sonra masanın üzərində olan dəmkeşi götürərək bir neçə dəfə onun baş-boyun nahiyəsinə zərbə endirmiş, sonra isə yumuruqla onun sifət nahiyyəsindən vurmuşdur. Nəticədə Arif Səməd oğlu az ağır bədən xəsarəti almışdır. O bundan iyirmi dəqiqə keçdikdən sonra orada işləyən ofisantdan spirtli içki gətirməsini tələb etmişdir. Ofisant ona spirtli içki gətirərkən o ofisanta niyə ləng işləyirsən deyərək stulu götürüb onun başına vurmuş və kafe sahibinin ünvanına təhqiramiz söyüşlər söyməklə stol və

stulları dağıtmışdır. Kafe sahibi həmin vaxt zəng etməklə polis əməkdaşlarını köməyə çağırmışdır. Hadisə yerinə gələn polis əməkdaşları Arif Qulamlıdan onlarla birlikdə rayon Polis İdarəsinə getməsini tələb etdikdə o getməkdən imtina edib stəkanla polis əməkdaşı Həmidlinin sifət nahiyyəsindən vuraraq onun sağlamlığına yüngül xəsarət yetirmişdir.

**Əmələ hüquqi qiymət verin**

5. Göyçay şəhər sakini Pərviz Quluzadə 24 yanvar 2021-ci il tarixdə saat 17 radələrində Bakı şəhəri, Səbail rayonu, Salyan yolu 4 ünvanda yerləşən "Məkan" kafesində olarkən ona qulağına mobil telefonun qulaqcığını taxıb musiqiyə qulaq asmadığı üçün iradını bildirən Bakı şəhər sakini Azər Kərimli ilə mübahisə etmişdir. Aralarında yaranmış mübahisə zamanı hər iki şəxs kafenin qarşısına çıxmışdır. Həmin vaxt Pərviz Quluzadə insanlar arasında bərqərar olmuş birgəyaşayış və davranış qaydalarının qərəzli surətdə pozulması, ətrafdakı şəxslər üçtin aşkar surətdə ictimai qaydaya əhəmiyyətli dərəcədə laqeydlik,etinasızlıq göstərməsi, cəmiyyətdə hamı tərəfindən qəbul olunmuş davranış qaydaları, əxlaq və mənəviyyat normalarına qarşı saymamazlıqda ifadə olunan hərəkətlər etməklə kafesinin qarşısında küçədə üzərində gəzdirdiyi, tikintidə təmir zamanı divar kağızını kəsmək üçün istifadə olunan kəsici alətlə Azər Kərimlinin sifətinin sol tərəfinə bir neçə dəfə qəsdən vuraraq ona sağlamlığın qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərər vurmaya aid bədən xəsarətləri yetirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

6. Əziz Musazadə oğlu 01 dekabr 2009-cu il tarixli, 05/K saylı əmr əsasında "N” məhdud məsuliyyətli cəmiyyətində (MMC) iş icraçısı vəzifəsində işləyərkən və MMC-nin 05 yanvar 2017-ci il tarixli 01/BD saylı əmri ilə Bakı şəhəri, N ünvanında "N” MMC tərəfindən "N”-ın tikintisində işçilər tərəfindən texniki təhlükəsizlik və əmək mühafizəsi qaydalarına riayət edilməsi

vəzifəsi ona həvalə olunduğu halda, texniki təhlükəsizlik və əmək mühafizəsinin tələblərinə riayət etmədən 2017-ci ilin yanvar ayından MMC-yə qeyri-rəsmi fəhlə kimi işə cəlb edilmiş Əziz Musazadə ilə iş yerində əməyin mühafizəsi və təhlükəsizlik texnikasına dair təlim, təlimatlandırma keçirməsini, biliyinin yoxlanılmasını təmin etməyərək S.A.Au "N Hospital" binasının tikintisində aparılan yüklərin yerdəyişməsi gedişinə müstəqil işə buraxmış, onun tərəfindən kütləsi 20 kiloqramdan çox olan "N" material rulonunu əli ilə daşımasına (yerdəyişməsinə) yol vermiş, Əziz Musazadənin yolverilməz (yəni əmək mühafizəsi təlimatına zidd olan) rezin materialdan olan başmaqla hərəkət etməsinin qarşısını almayaraq, "111-4-80 Tikinti norma və qaydaları"nın 1.20, 2.1,2.30 bəndlərinin, "III-4-80 Tikinti norma və qaydaları"nın 1 saylı əlavəsinin 10-cu bəndinin, "Müəssisələrdə yüklərin yerdəyişməsi prosesləri 12.3.020-80 DST"-nin 3.3.2 bəndinin, "İşçilərin əməyin mühafizəsi üzrə təlimin təşkili. Ümumi tələblər 12.0.004-79 DST»-nin 1.1, 1.4, 3.10 bəndlərinin, "Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif- İxtisas 2 Sorğu Kitabçası"nda olan iş icraçısının "Əmək funksiyası başlığının tələblərini, 01 dekabr 2009-cu il tarixli əmək müqaviləsinin və 05 yanvar 2015-ci il tarixdə təsdiq edilmiş "N» MMCnin iş icraçısının funksional vəzifə bölgüsü"-nün və" N» MMC- nin "Əməyin mühafizəsi üzrə mühəndisinin funksional vəzifə bölgüsü"nün tələbləri ilə müəyyən edilmiş işlərin aparılmasının təhlükəsizliyi qaydalarını pozmuş və nəticədə Mansur Daşdəmir oğlu 09 fevral 2017-ci il tarixdə, saat 11 radələrində "N İnternotional Hospital"ının tikintisində əlilə linoleum daşıyarkən ehtiyatsızlıqdan yerə yıxılaraq sol incik sümüyünün və sol içəri topuğun qapalı qəlpəli sınıqları ilə nəticələnən, sağlamlığın uzun müddət pozulmasına səbəb olan sağlamlığa az ağır zərər vurmaya aid xəsarətlər almışdır.

**Əmələ hüquqi qiymət verin**

**7.** Asəf Əbülfət oğlu keçmiş məhkum yoldaşı Vahid Abbasovda “Zəfər-K”tapançası olduğunu və silahı satmaq istədiyini bilirdi və buna görə Fəqanovu aldadaraq silahı ondan almış lakin, pulunu verməmişdir. Bu səbəbdən onlar arasında narazılıq yaranmışdır. Asəv Əbülfət oğlu bu narazılığa görə silahı Fəqanova qaytarmış və 102 xidmətinə zəng edərək onda silah olması barədə məlumat vermişdir. Məlumat əsasında Abbasovun evində təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilmiş və tapança götürülmüşdür. Məlum olmuşdur ki, Abbasov həmin silahı gizli talamaqla əldə etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

8. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Şəhər Polis İdarəsinin 2-ci Polis Bölməsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində H. Z. Tağıyev qəsəbə sakini, əvvəllər məhkum olunmuş Qabil Həsənlidən lüləsi və qundağı kəsilmiş ov tüfəngi və üç ədəd patron götürülüb.

**Əmələ hüquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Əməlin xuliqanlıq cinayəti kimi tövsifi olunması üçün məcburi deyildir**

a) odlu silahdan istifadə etmə;
b) cəmiyyətə açıqca hörmətsizlik göstərmə;
c) ictimai qaydanı kobud surətdə pozma;
d) şəxslər üzərində zor tətbiq etmə və ya belə zor tətbiqi ilə hədələmə, habelə əmlakı məhv etmə

**2. Banditizm cinayətinin əlaməti deyildir?**

a) ağır və xüsusilə ağır cinayətlər törətmək məqsədinin mövcudluğu;
b) sabit silahlı qrupun yaradılması;

c) sabit silahlı qrupa rəhbərlik etmə;
d) ayrı-ayrı şəxslərə və ya təşkilatlara basqın etmək məqsədinin mövcudluğu

**3. CM-in 228-ci maddəsinin "Qeyd" hissəsinə görə şəxs odlu silah saxlamağa görə cinayət məsuliyyətindən hansı şərtlə azad edilir?**
a) müvafıq icazə olmadan saxladığı odlu silahı könülüü olarag təhvil vermdikdə;
b) odlu silah saxlamanın qanunsuz olmasına münasibətdə yanıldıqda;
c) odlu silah saxlamağa icazə almaq üçün müvfıq orqana müraciət etdikdə;
d) silahı saxlanmaq üçün başqa şəxsə vermdikdə.

**4. Odlu silahın, döyüş sursatının, partlayıcı maddə və qurğuların talanması cinayəti (CM mad. 232.1) hansı andan başa çatmış sayılır?**
a) predmetlər ələ keçirildiyi andan;
b) predmetlərdən istifadə olunduğu andan;
c) talanmış predmetlərin digər şəxslərə verildiyi andan;
d) predmetlər üzərində faktiki sərəncam verilməsi ilə

**5. Banda:**
a) İki və daha çox şəxsdən ibarət olan, iştirakçılar arasında möhkəm təşkilati birlik olan, iştirakçılardan hər hansı birində odlu və ya soyuq silah olan və digər iştirakçıların bunu bildiyi və iştirakçıların basqınlar (basqın) etmək məqsədi ilə qabaqcadan birləşdiyi mütəşəkkil dəstədir
b) iki və ya daha çox mütəşəkkil dəstənin birləşdiyi cinayətkar təşkilatdır
c) ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün birləşmiş iki və ya daha çox mütəşəkkil dəstədən ibarət olan cinayətkar təşkilatdır

d) ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün qabaqcadan razılığa gəlmiş iki və ya daha çox şəxsdən ibarət olan, iştirakçılar arasında möhkəm təşkilati birlik olan, odlu və ya soyuq silahın olduğu, basqınlar etmək üçün yaradılmış mütəşəkkil dəstədir

**6. Biri mütəşəkkil dəstənin banda hesab edilməsi üçün şərtlər sırasına daxil deyil:**
a) iştirakçılardan birində odlu və ya soyuq silah olmalı və digər iştirakçılar bunu bilməlidir
b) dəstə iki və ya daha çox şəxsdən ibarət olmalıdır
c) dəstənin iştirakçıları basqınlar (basqın) etmək məqsədi ilə əvvəlcədən birləşməlidir
d) dəstə ağır və (və ya) xüsusilə ağır cinayət törətmək üçün yaradılmalıdır

**7. Bandanın üzvü olmayan, başqalarında iştirak etməyən, lakin onun cinayətkar əməllərinin həyata keçirilməsinə kömək edən şəxslər**
a) banditizm cinayətinin törədilməsində köməkçiliyə görə məsuliyyət daşıyırlar
b) banditizm cinayətinin icraçısı kimi məsuliyyət daşıyırlar
c) banditizm cinayətinə görə məsuliyyət daşımırlar
d) banditizm cinayətinə görə deyil, törətdikləri konkret cinayətlərə (məsələn, qəsdən adam öldürmə, qəsdən əmlakı məhv etmə və ya zədələmə) görə məsuliyyət daşıyırlar

**8. Cinayətkar birlik (təşkilat) yaratma cinayətinin məqsədlərinə daxildir:**
a) ağır cinayətin törədilməsi
b) ağır və xüsusilə aqır cinayətin törədilməsi
c) istənilən kateqoriyadan olan cinayətin törədilməsi
d) istənilən kateqoriyadan olan cinayətin sistemli şəkildə törədilməsi

**9. Kütləvi ixtişaşın törədilməsi zamanı 14 yaşından 16 yaşına qədər olan iştirakçı şəxslər digər cinayət törədərlərsə...**

a) törətdikləri və 14 yasdan məsuliyyət yaradan cinayətlərə görə cinayət məsuliyyəti daşıyırlar

b) kütləvi iğtişaş və 14 yaşdan məsuliyyət yaradan törətdikləri cinayətlərə görə cinayət məsuliyyəti daşıyırlar

c) kütləvi iğtişaş cinayətlərinə görə cinayət məsuliyyəti daşıyırlar

d) 14 yaşdan məsuliyyət yaradan cinayətlərə görə və kütləvi iğtişaş cinayətinin iştirakçısı kimi cinayət məsuliyyəti daşıyırlar

**10. Xuliqanlıq zamanı hakimiyyət nümayəndəsinə qarşı onun həyat və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə müşayət olunan müqavimət göstərdikdə**

a) “Xuliqanlıq” (CM mad.221.1) kimi tövsif olunmalıdır

b) əməl aqırlaşdırıcı hallarda xuliqanlıq (CM mad.221.2.2) və hakimiyyət nümayəndəsinə qarsı müqavimət göstərmə və va zor tətbiq etmə (CM mad.315.2) cinayətlərinin məcmusu qaydasında tövsif olunmalıdır

c) əməl yalnız hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə (CM mad.315.2) kimi tövsif olunmalıdır

d) əməl ağırlaşdırıcı hallarda xuliqanlıq (CM 221 2.2-ci) və qəsdən sağlamlığa ağır zərər vurma (CM 126) cinayətlərinin məcmusu qaydasında tövsif olunmalıdır

## MÖVZU № 27

## Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər və ictimai mənəviyyət əleyhinə olan cinayətlər.

***Vaxt: - 4***
***Mühazirə: - 2***
***Seminar: 2-***

### Seminar məşğələsinin suallarıı:

1. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin anlayışı və ümumi xarakteristikası
2. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin növləri
3. İctimai mənəviyyat əleyhinə olan cinayətlərin anlayışı və ümumi xarakteristikası və səciyyəsi
4. İctimai mənəviyyat əleyhinə olan cinayətlərin növləri

### Mövzunun qısa məzmunu

Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma. Anlayışı və tövsifedici əlamətləri.

Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə. Anlayışı və tövsifedici əlamətləri.

Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə. Anlayışı və tövsifedici əlamətləri.

Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama. Anlayışı və tövsifedici əlamətləri.

Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma cinayətinin anlayışı və əlamətləri. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi. Anlayışı və tövsifedici əlamətləri.

İctimai mənəviyyat əleyhinə olan cinayətlərin anlayışı, növləri və ümumi xarakteristikası.

Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma cinayətinin anlayışı və əlamətləri.

Fahişəliyə cəlb etmə. Anlayışı və tövsifedici əlamətləri.

Əxlaqsızlıq yuvaları saxlama. Anlayışı və tövsifedici əlamətləri.

Qumarxana təşkil etmə və ya saxlama. Anlayışı və tövsifedici əlamətləri.

Qəbir üzərində təhqiredici hərəkət. Anlayışı və əlamətləri.

Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayətinin anlayışı və əlamətləri.

## Yoxlama sualları:

1. Əhalinin sağlamlığı əleyhinə olan cinayətlərə anlayış verin.
2. Bu cinayətlərin sağlamlıq əleyhinə olan cinayətlərdən fərqi nədir?
3. Narkotik vasitə nədir?
4. Psixotrop maddə nə deməkdir?
5. Prekursora anlayış verin.
6. Güclü təsir edən və ya zəhərli maddələr nədir və onun qanunsuz dövriyyəsi dedikdə nə başa düşülməlidir?
7. İctimai mənəviyyat dedikdə nə başa düşülməlidir?

8. Fahişəliyə cəlb etmə cinayətinin anlayışını verin və onun növlərini göstərin.
9. “Əxlaqsızlıq yuvası” nə deməkdir?
10. Əxlaqsızlıq yuvası təşkil etmə dedikdə nə başa düşülməlidir?

**Mövzuya aid ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021
2. “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında” Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanunu.
3. Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 mart 2011-ci il tarixli Qərarı
4. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 25 fevral 2013-cü il tarixli Qərarı
5. Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 4 mart 2011-ci il tarixli 2№-li Qərarı
6. Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli 7№-li Qərarı
7. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrap maddələrin miqdarına, habelə onların külli miqsarına görə siyahıları

(I,II,III suallar) 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmişdir
8. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). "Bakı, 2019.
9. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019
10. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
11. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
12. Həsənov E.N. Narkotizm: meyllər və aradan qaldırma tədbirləri. Bakı, 1999.
13. Nağıyev R.T. Uyuşdurucu, süni cənnətin cəhənnəm odu (narkotiklərlə mübarizə haqqında) Bakı, 2005.
14. Əhmədov M., Məmmədli İ., Rüstəmov R. Əhalinin sağlamlığı və ictimai mənəviyyat əleyhinə olan cinayətlər. Dərs vasaiti. Bakı. 2011.
15. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
16. Комментарий к Уголовному кодексу (под. ред. Лебедева В.М).М., 2004.
17. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

**Referat mövzuları:**

1. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə.
2. Əxlaqsızlıq yuvaları saxlama cinayətinin tövsif problemləri.

3. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə cinayətinin anlayışı və tövsif problemləri
4. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama cinayətinin xüsusiyyətləri
5. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və tövsif problemləri

## Terminoloji tapşırıq

**Ampula**- steril vəziyyətdə dərman preparatlarının saxlanılması üçün şüşə qab
**Anaşa** – hind çətənəsindən narkotik
**Eksataz** – yun. Ekstasis-hiddət, heyranlıq , vəcd, cuşa gəlmə, özündən çıxma, cuşdan özünü itirmə
**Geroin-** çox təsirli narkotik olan və tiryək laləsindən istehsal edilən ağ kristal toz
**Narkoman -** narkotiklərə qurşanmış şəxs
**Narkomaniya -** yun. narke-şüurun tutqunlaşması, minia mübtəlalıq, düşgünlük; narkoticos – bihyş edən-narkotik vasitələrindən istifadəyə patoloji meyil
**Narkotik -** yun. narktikos-keyidən, eşitməz hala gətirən-insanda fiziki və psixi asılılıq meydana gətirən, ruhi vəziyyətə, bədənə və zehni fəaliyyətə mənfi təsir göstərən maddə
**Nekrofiliya** – yun. nekros-ölü,phileo-sevirəm –ölülərlə cinsi əlaqəyə girmə

## Məsələlər:

1. Səməd həyətyanı sahəsində güllərin içərisində yağlı çətənə əkərək onları birlikdə becərirdi. Yayın əvvəllərində Səməd xəstəxanaya yerləşdirilir. Səməd Seymura onun evinə baxmağı tapşırır və ona güllərə baxmağın gərək olmadığını bildirir. Lakin gülləri sulayan Seymur çətənə kolunu görür və onu

becərməkdə davam edir və fikirləşir ki, sağalıb gəldikdən sonra Səməd bu çətənədən ona da pay verəcək.

**Variant 1.** *Gəldikdən sonra Səməd Seymurla əldə etdiyi narkotik vasitəni tən yarı bölür.*

**Variant 2.** *Gəldikdən sonra Səməd Seymura heç nə vermir.*

**Variant 3.** *Səməd hələ xəstəxanada olarkən Seymura çətənəni becərməyin və əldə olunan narkotik vasitənin hamısını özünə götürməyi tapşırır.*

2. Biləsuvar rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bərdə şəhər sakini Mirzəyevin idarə etdiyi "Hyundai" markalı avtomobil saxlanılıb və avtomobilə baxış zamanı oradan 1 kiloqram 105 qram heroin aşkar edilərək götürülmüşdür. Sürücü və sərnişinləri - Bakı şəhər sakini Sabir Kərimov və Neftçala rayon sakini Qadir Həsənov polis əməkdaşları tərəfindən saxlanılıb.

**Əmələ hüquqi qiymət verin.**

3. Bakı şəhər sakini Sabir Xudaverdiyev 2021-ci ilin fevral ayında başqa mənbədən satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda – ümumi təmiz çəkisi 31 kq, 106,388 qram tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış narkotik vasitə qurudulmuş marixuana əldə etmiş, həmin narkotik vasitəni yaşadığı Xəzər rayonunda yerləşən mənzilinə daşıyıb hissələrə bölməklə 15 qram çəkidə olan hissəsini bir zənbilin içərisində, təmiz çəkiləri 3.5qram və 12.5qram olmaqla ümumi çəkisi 16 qram olan hissəsini ayrı-ayrılıqda iki ədəd polietilen torbada yerləşdirib digər zənbilin içərisində qablaşdırmaqla yaşadığı evin həyətinin girişinin sol tərəfində yerləşən otaqda gizlədib saxlamış, təmiz çəkisi 6,523 qram olan hissəsini siqaretin sellofanının içərisində bir ədəd salfet kağızı bükümündə, 99,865 qram olan hissəsini göy rəngli sellofan bükümdə

qablaşdıraraq, Sabunçu rayonu, Pirşağı qəsəbəsi, Ə.Məlikov küçəsindəki körpünün yaxınlığına daşımış, 20 fevral 2021-ci il tarixdə, saat 14:10 radələrində həmin ünvanda yerləşən kafenin otaqlarının birində 99,865 qram qurudulmuş marixuananı tanışı, şərti alıcı olan X.X.B-yə 800 manata qanunsuz satmış və həmin an polis əməkdaşları tərəfindən saxlanılıb. Orada üzərinə baxış keçirilərkən, əynindəki qara rəngli gödəkçəsinin sol yan cibindən sellofanının içərisində bir ədəd salfet kağızına bükülmüş vəziyyətdə təmiz çəkisi 6,523 qram qurudulmuş marixuana və şalvarının sağ yan cibindən satmış olduğu narkotik vasitənin müqabilində X.X.B aldığı səkkiz yüz manat aşkar edilərək, götürülmüş, X.X.B 99,865 qram qurudulmuş marixuananı könüllü təqdim etmiş, həmin tarixdə də əməliyyat tədbirinin davamı olaraq, polis əməkdaşları tərəfindən Sabir Xudaverdiyevin yaşadığı ünvana keçirilmiş baxış zamanı otaqdan iki ədəd zənbildə ümumi xalis çəkisi 31 kq qurudulmuş marixuana aşkar edilərək götürülmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

4. Novruzalıyev Sahib tanışları Əliyev Eldəniz Kərimov Mənsur və şəxsiyyəti məlum olmayan İran İslam Respublikasının vətəndaşı «S.A.» adlı şəxslə əlbir olub narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olaraq, narkotik vasitənin satışından əldə edilmiş qazancı aralarında bölüşdürmələri barədə İran İslam Respublikasında olarkən razılaşmış, 2020-ci ilin iyul-avqust aylarında Novruzalıyev Sahib və Əliyev Eldəniz, Fizuli rayonunun Horadiz qəsəbəsindən "S.A." adlı şəxsin göndərdiyi bir ədəd selofan paketdə təmiz çəkisi 920 qram və bir ədəd selofan paketdə təmiz çəkisi 140 qram olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış narkotik vasitə qurudulmuş marixuananı əldə etmişdirlər. Bundan sonra Novruzalıyev Sahib həmin narkotik vasitəni Sumqayıt şəhəri, Saray bağlarında yerləşən bağına apararaq orada saxlamışdır. Sonuncu, 11 yanvar 2021-ci

il tarixdə həmin selofan paketdə olan 920 qram çəkidə çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış narkotik vasitə-külli miqdarda qurudulmuş marixuananı özü ilə götürüb saat 17 radələrində Xətai rayonu, Nobel prospekti, 23 ünvanında fəaliyyət göstərən "Amay" Ticarət Mərkəzinin qarşısına gətirmişdir. Cinayət Axtarış Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Novruzalıyev orada saxlanılaraq Binəqədi RPİ-nə aparılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

5. Narkotik tərkibli bitkilərin aqrotexniki qaydada qulluq edilərək yetişdirilməsi ilə məşğul olan şəxslərə qarşı Xaçmaz rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən əməliyyat tədbiri həyata keçirilib. Belə ki, şöbəyə rayonun Nərəcan kəndi ərazisində meşəlik sahədə külli miqdarda narkotik tərkibli çətənə kollarının əkildiyi bardə əməliyyat məlumatı daxil olub. Həmin ünvan dərhal əməliyyat nəzarətinə götürülüb. Həyata keçirilən əməliyyat nəticəsində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan Xaçmaz rayon sakini Əkbər Qəribov iş başındaca, yəni çətənə kollarına qulluq edən zaman saxlanılıb. Onun çətənə kollarını əkdiyi sahəyə baxış zamanı ümumi çəkisi 140 kq olan 97 ədəd narkotik tərkibli çətənə bitkisi, 1 ədəd müvafiq sənədləri olmayan ov tüfəngi 4 ədəd patron aşkar olunaraq götürülüb. **Əmələ hüquqi qiymət verin.**

6. Asif Çovdarov çətənə bitkisinin toxumlarını istintaqa məlum olmayan mənbədən əldə edib, N ünvanda yerləşən fərdi yaşayış evinin həyətyanı əkin sahəsində kartof və bitki kollarının arasında əkərək 28 iyun 2020-ci il tarixə kimi olan dövrə qədər ona aqrotexniki qaydada qulluq edib, ümumi çəkisi 255,0 qram əkilib becərilməsi qadağan olunmuş ümumi sayı 33 (otuz üç) ədəd narkotik tərkibli çətənə (kannabis) bitkilərini qanunsuz olaraq yetişdirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

7. Arif Muxtarov digər şəxs və İran İslam Respublikasında müvəqqəti yaşayan “Vüqar” adlı şəxs və şəxsiyyəti məlum olmayan qeyriləri ilə əlaqəyə girərək, narkotik vasitə olan 166 ədəd həbdə təsiredici maddəsinin təmiz çəkisi 6,64 qram təşkil edən metadon və narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən külli miqdarda 397 ədəd flakonda təsiredici maddəsinin təmiz çəkisi 39,70 qram təşkil edən tropikamidi İran İslam Respublikası ərazisindən xəlvəti yolla Azərbaycan Respublikası ərazisinə keçirilməsini sifariş etmişdir. Aldığı sifarişin icrası ilə bağlı cinayət əməllərini davam etdirən şəxsiyyəti istintaqa məlum olmayan İran İslam Respublikasında olan S.A.A. adlı şəxs 12.01.2021-ci il tarixdə digər şəxslə əlaqə saxlamış, sifariş olunmuş və istintaqa məlum olmayan vaxtda və şəraitdə İran İslam Respublikası ərazisindən xəlvəti yolla Azərbaycan Respublikası ərazisinə keçirilərək, Biləsuvar rayonunun ərazisində gizlədilmiş külli miqdarda narkotik vasitə olan metadonu və narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan külli miqdarda güclü təsir edən maddə olan tropikamidi oradan götürməsini tapşırmışdır. Digər şəxs onunla 12.01.2021-ci il tarixdə, saat 10:30 radələrində telefonla əlaqə saxlayaraq, axırıncıya İran İslam Respublikası ərazisindən xəlvəti yolla məlum olmayan vaxtda və şəraitdə Azərbaycan Respublikası ərazisinə keçirdiyi külli miqdarda narkotik vasitə olan «metadonu» və narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan külli miqdarda «tropikamidi» Biləsuvar rayonu ərazisində əldə edib Bakı şəhərində ona çatdırmağı tapşırmışdır. Əməlin törədilmə Seminar məşğələsinin suallarıına uyğun olaraq, S.A.A. 12.01.2021-ci il tarixdə Biləsuvar rayonuna gedərək, şəxsiyyəti məlum olmayan İran İslam Respublikası ərazisində olan S.A.A. adlı şəxslə mütəmadi telefon əlaqəsi saxlamış və Biləsuvar rayonu ərazisində “Bizim market” adlı mağazanın yaxınlığında S.A.A. adlı şəxsin əlaqəsi olan şəxsiyyəti məlum olmayan şəxsdən külli miqdarda narkotik vasitə olan «metadonu» və

narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddəyə münasibətdə külli miqdarda «tropikamidi» qanunsuz olaraq əldə edərək, Bakı şəhərinə gətirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

8. Kamil Vəzirov 10.10.2020-ci il tarixdə Bakı şəhər sakini Qədirovadan onun evini kirayə götürüb həmin mənzili dəfələrlə cinsi əlaqədə olmaq istəyən şəxslərə verərək evi tərk etmişdir. O gördüyü bu “xidmətin” əvəzində həmin şəxslərdən 50 manat almışdır.Sonuncu dəfə isə o 21.02.2021-ci il tarixdə tanışı X soyadlı qadına həmin evdə cinsi xidmətin göstərməsini və onun müqabilində qadının “hər görüşü”nə görə ona 25 manat pul verəcəyini təklif etmişdir. Qadın onunla razılaşmışdır. Həmin vaxt DİN-in keçirdiyi əməliyyat tədbirləri nəticəsində Vəzirov tutulmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

9. Bakı şəhərində yerləşən məşhur hamamların birində masajçı işləyən Aleksandrovna və onun iki rəfiqəsi gələn müştərilərə hətta intim xidmət göstərir bu sahədə biri-birilərinə müştəri tapırdılar. 24.02.2020-ci il tarixdə o cazibədar olan qonşusu Nuraya da masajçı kimi orada işləməyi məsləhət bilmişdir. Hamamda intim xidmətin göstərildiyindən xəbərsiz olan Nura onun təklifi ilə razılaşmışdır. O hamamda masaj işi görərkən müştəri ondan intim münasibətdə olmalarını tələb etmişdir. Bu səbəbdən onların arasında mübahisə yaranmışdır. Məlum olmuşdur ki, Aleksandrovna həmin müştəridən əlavə pul alaraq Nura ilə intim münasibət qurmasına şərait yaratmışdır. Bunu bilən Nura ərazi üzrə Polis Bölməsinə ərizə ilə müraciət edərək məlumat vermişdir.

**Əmələ hüquqi qiymət verin.**

10. Sahib Qəzənfərzadə Zəhmət kəndində yaşadığı evin həyətində oğlunun sünnət toyundan sonra, dostlarını evinə qonaq çağırmış və orada onlarla qumar oynamışdır.

**Əmələ hüquqi qiymət verin.**

11. İfrat dərəcədə "dindarlıq"-la məşğul olan Ramal Kərimli "Baş daşının qoyulması İslam dininin qaydalarına ziddir " deyərək əsəbi halda yaşadığı kəndin ərazisində yerləşən qəbristanlıqda olan on altı ədəd baş daşını külünglə sındıraraq yerlə yeksan etmişdir. Sındırılmış daşların içərisində onun yaxın qohumlarının da baş daşı olnuşdur.

**Əmələ hüquqi qiymət verin.**

12. Kənd sakinləri bir neçə dəfə rayon polis şöbəsinə şikayət edərək həmkəndliləri Arifin saxladığı itləri qəbristanlığa buraxması barədə məlumat vermişdirlər. Məlum olmuşdur ki, nəzarətsiz buraxdığına görə itlər qəbristanlıqda olan sinə daşlarının üzərinə çıxaraq çirkləndirmiş, hətta bəzi qəbir daşlarını nəcisləri ilə bulamışdır.

**Əmələ hüquqi qiymət verin**

## Test tapşırıqları:

**1. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin obyekti**

a) əhalinin sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir;

b) əhalinin sağlamlığı və ictimai mənəviyyatıdır;

c)ictimai təhlükəsizliyin və əhalinin sağlamlığnm təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir;

d) ictimai təhlükəsizlik və ictimai qaydadır;

**2. Narkotik vasitələrin əldə edilməsi dedikdə....**

a) narkotik vasitələrin talanması və ya hədə-qoxu ilə tələb edilməsi ilə bağlı olmadan, belə vasitələrə sahib olmağa yönəlmiş qəsdən edilən hərəkətlər başa düşülür;

b) narkotik vasitələrin başqa şəxsin sahibliyinə verilməsinə yönəlmiş qəsdən edilən hərəkətlər başa düşülür;

c) narkotik vasitələrə yalnız əvəzli qaydada sahib olmağa yönəlmiş qəsdən edilən hərəkətlər başa düşülür ;

d) narkotik vasitələrə sahibliklə bağlı olan qəsdən edilən hərəkətlər başa düşülür ;

**3. Narkotik vasitələrin daşınması dedikdə başa düşülür;**

a) daşınma üsülundan və saxlama yerindən asılı olmadan narkotik vasitələrin yerinin dəyişdirilməsi üzrə qəsdən edilən hərəkətlər;

b) narkotik vasitələrə sahib olma imkanı ilə şərtlənən qəsdən edilən hərəkətlər;

c) talama ilə əlaqədar olmadan, narkotik vasitələrə sahib olmağa yönəlmiş qəsdən edilən hərəkətlər;

d) şəxsi istehlak üçün nəzərdə tutulmayan narkotik vasitələrin daşınması üzrə qəsdən edilən bütün hərəkətlər;

**4. Vətəndaşların pulunu və ya əmlakın ı ələ keçirmək məqsədi ilə narkotik vasitə, güclü təsir edən və ya zəhərli maddə adı ilə hər hansı digər vasitəni və ya maddəni satan şəxsin hərəkəti**

a) “Dələduzluq” (CM mad.178) kimi tövsif edilməlidir

b) satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma (CM mad.234.2) kimi tövsif edilməlidir

c) əməldə cinayət tərkibi yoxdur

d) “Dələduzluq” (CM mad.178) və satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma (CM mad.234.2) cinayətlərinin məcmusu qaydasında tövsif edilməlidir

# MÖVZU № 28

## Ekoloji cinayətlər

*Vaxt: - 4*
*Mühazirə: - 2*
*Seminar: - 2*

**Seminar məşğələsinin sualları:**

1. Ekoloji cinayətlərin anlayışı və sistemi
2. Ekoloji cinayətlərin növləri

**Mövzunun qısa məzmunu**

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaşların ekoloji hüquq və azadlıqlarının təminatçısı kimi.

Cinayət qanunvericiliyində ekoloji cinayətlərin anlayışı və növləri. Ekoloji cinayətlərin ümumi növləri. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma cinayətinin anlayışı. Ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri. Sahilyanı şelf haqqında Azərbaycan Respublikasının qanunvericiliyini pozma. Anlayışı və tövsifedici əlamətləri.

Ekoloji cinayətlərin xüsusi növləri. Baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri. Suyu (su mənbələrini) çirkləndirmə. Anlayışı və tövsifedici əlamətləri. Atmosferi (havanı) çirkləndirmə. Anlayışı və tövsifedici əlamətləri. Dəniz mühitini çirkləndirmə. Anlayışı və tövsifedici əlamətləri.

Torpaqları korlama. Anlayışı və tövsifedici əlamətləri. Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma cinayətinin anlayışı.

Balıqları və başqa su bioresurslarını qanunsuz tutma. Anlayışı və tövsifedici əlamətləri. Balıq və digər su bioresurslarının qorunması qaydalarını pozma cinayətinin anlayışı. Qanunsuz ov etmə. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz ağac kəsmə. Anlayışı və tövsifedici əlamətləri. Meşələri məhv etmə və ya korlama. Anlayışı və növləri. Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə. Anlayışı və tövsifedici əlamətləri

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma cinayətinin anlayışı.

## Yoxlama sualları:

1. Ekoloji cinayətlər nədir?
2. Ekoloji cinayətlərin obyektini göstərin.
3. Ekoloji cinayətlərin predmeti nədir?
4. Qəsdən və ehtiyatsızlıqdan törədilən ekoloji cinayətləri müəyyən edin.
5. Baytarlıq qaydalarının pozulması nədir?
6. Sahilyanı şelf dedikdə nə başa düşürsünüz?
7. Qanunsuz balıq tutma cinayəti nə vaxt başa catmış hesab olunur?
8. Lazımi icazə olmadan nə deməkdir?
9. Qadağan olunmuş vaxt nə deməkdir?
10. Qanunsuz ağac kəsmə nədir?
11. Xüsusi mühafizə olunan təbiət əraziləri və təbiət obyektləri nədir?

## Mövzuya aid ədəbiyyat:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. “Ekoloji təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli Qanunu.

4. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanunu.
5. “Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri tətbiq edilmə qaydaları və qeyri-qanuni balıq ovuna görə cərimələr” haqqında Nazirlər Kabinetinin 6 sentyabr 1999-cu il tarixli Qərarı.
6. Nazirlər Kabinetinin 24 sentyabr 1999-cu ili tarixli 152 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları”.
7. “Ovçuluq haqqında” Azərbaycan Respublikasının 20 aprel 2004-cü il tarixli Qanunu.
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 yanvar 2005-ci il tarixli 10 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları”.
9. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
10. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019.
11. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
12. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
13. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
14. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011.
15. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

16. Алиев А.И.Проблемы уголовно правовой охраны дикой фауны Азербайджанской Республики. Баку, 1996.

**Referat mövzuları:**

1. Ekoloji cinayətlərin ümumi növləri.
2. Ekoloji cinayətlərin xüsusi növləri.
3. Qanunsuz ov etmə cinayətinin tövsif məsələləri
4. İşlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma cinayətinin xüsusiyyətləri
5. Suyu (su mənbələrini) çirkləndirmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
6. Torpaqları korlama cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və tövsif elementləri
7. Qanunsuz ov etmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
8. Qanunsuz ağac kəsmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

**Terminoloji tapşırıq**

**Dampinq** ing. Dampinq tullantıların dənizə atılması, basdırılması

**Ekologiya** – yu. heyvan və bitki orqanizmlərinin mühitə qarşılıqlı münasibətindən bəhs edən elm

**Fauna** – müəyyən ərazi, rayon, ekosistem və ya biosenozun heyvan növlərinin məcmusu

**Flora** – müəyyən ərazi, rayon ekosistem və ya biosenonun bitki növlərinin məcmusu

**Məsələlər:**

1. Daxili İşlər Nazirliyi Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə icazələri olmadan balıq satışı ilə məşğul olan şəxslərə qarşı keçirilən

tədbir zamanı 23.01.2021-ci il tarixdə saat 16 radələrində Xəzər dənizində ovlanması qəti qadağan edilən nərə cinsli balıqların satışı ilə məşğul olan iki nəfər – Akif Qasımlı və Ağa Aslanov müəyyən edilib. Polis əməkdaşları tərəfindən həmin şəxslərə məxsus obyektlərə baxış zamanı xeyli miqdarda nərə cinsli balıq aşkar olunaraq götürülüb. Araşdırma zamanı bu şəxslərin müvafiq icazələri olmadan nərə cinsli balıqların qeyri-qanuni şəkildə ovlanmasını və satışını təşkil etdikləri məlum olub.

**Əmələ hüquqi qiymət verin.**

**2.** Saatlı Rayon Polis Şöbəsinin əməkdaşlarının qanunsuz ovun, mülki silahın daşınması qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə keçirdikləri tədbirlər nəticəsində rayonun Mahmudçala adlanan ərazisində qanunsuz ov edən rayon sakinləri Cəfər Əzimov və Şahin Muradov saxlanılıb. Həmin şəxslərdən birinin müvafiq sənədləri olmayan ümumilikdə 2 ədəd "İj" markalı ov tüfəngi, ov məqsədilə istifadə edilən digər alətlər və 20 ədəd qanunsuz olaraq ovladıqları çöl quşu aşkar edilərək götürülüb. Ovlanan həmin quşlardan 3-nün adı "Qırmızı kitab"a düşmüş “Sultan toyuğu” olduğu müəyyən edilib.

**Əmələ hüquqi qiymət verin.**

**3.** Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Meşələrin İnkişafı Departamentinin əməkdaşlarından Oğuz rayonunun Filfilli, Xaçmaz və sair kəndlərinin ərazilərində yerləşən meşə zolaqlarında kütləvi şəkildə qanunsuz ağac kəsilməsi əlamətlərinin müşahidə edilməsi barədə məlumat daxil olub. Hər iki qurumun əməkdaşları tərəfindən qeyd olunan xüsusatların hərtərəfli və obyektiv araşdırılması məqsədilə adı çəkilən kəndlərdə meşə zonaları nəzarətə götürülüb.

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri

nəticəsində qısa zamanda müəyyən olunub ki, həmin meşələrdə qiymətli növ ağacların qanunsuz kəsilərək emal sexlərinə satışı Oğuz rayon sakinləri Oruc Musayev və əvvəllər məhkum olunmuş Qulu Manafov tərəfindən həyata keçirilib. Həmin şəxslər əməliyyat nəticəsində saxlanılaraq Baş İdarəyə gətiriliblər.

Elşən Hüseynov və Ehtibar Muxtarov tərəfindən qanunsuz olaraq kəsilmiş ağaclar, onların oduncaqlarının yeri və digər ləvazimatlar maddi sübut kimi Baş İdarənin əməkdaşları tərəfindən aşkar olunaraq aktlaşdırılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

**4.** "Sarı bulaq " restoranının sahibi, restoranın göstərdiyi xidmətlərin nəticəsində yaranmış tullantıları mütəmadi olaraq yaxınlıqda olan meşə sahəsinə tökdürürmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

**5.** Arif Muxtarlı " Hirkan qoruğu"-nun ərzisində tonqal qalayıb odu nəzarətsiz buraxdığından qoruğun ərazisinin 2 hektaradək hissəsində ağac və kollar tamamilə yanmışdır.Yanğın FHN-nin əməkdaşları tərəfindən tez bir zamanda söndürülmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Təbii mühitdən götürülərək qapalı şəraitdə saxlanan heyvanların ovlanması məsuliyyətə səbəb olur;**

a) mülkiyyət əleyhinə olan cinayət kimi
b) "Qanunsuz ov etmə" (CM mad.258) kimi
c) cinayət məsuliyyətinə səbəb olmur
d) həm "Qanunsuz ov etmə" (CM mad.258), həm də mülkiyyət əleyhinə olan cinayət kimi

**2. "Torpaqları korlama" (CM 254) predmeti:**

a) mülkiyyət formasmdan asılı olmayaraq, istənilən təyinatlı

hər hansı torpaq sahəsidir
b) yalnız qoruqların, təbiət abidələrinin, sanatoriya-kurort zonalarının torpaqlarıdır;
c) dövlət mülkiyyətində olan hər hansı torpaq sahəsidir;
d) dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlardır

**3. "Balıq və digər su bioresurslarını qanunsuz tutma" (CM mad.256) və "Qanunsuz ov etmə" (CM mad.258) cinayətlərində "külli miqdar" məbləği**
a) 1.000 manatdan artıq olan məbləğdir;
b) 400 manatdan 1.000 manatadək olan məbləğdir;
c) 7.000 manatdan artıq olan məbləğdir;
d) 1.000 manatdan 7.000 manatadək olan məbləğdir.

## MÖVZU № 29

## Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər və kibercinayətlər.

***Vaxt: - 4***
***Mühazirə: - 2***
***Seminar: - 2***

**Seminar məşğələsinin sualları:**

1. Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin anlayışı və təsnifatı.
2. Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin növləri
3. Kibercinayətlərin anlayışı və ümumi xarakteristikası
4. Kibercinayətlərin növləri

## Mövzunun qısa məzmunu

Nəqliyyat cinayətlərinin ümumi xarakteristikası və növləri.

Dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozulması. Anlayışı və tövsifedici əlamətləri.

Yol nəqliyyat hadisəsi yerindən qaçma cinayətinin anlayışı və əlamətləri.

Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz olan vəziyyətdə işə buraxma. Anlayışı və tövsifedici əlamətləri.

Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma. Anlayışı və tövsifedici əlamətləri.

Nəqliyyat vasitələrinin təhlükəsiz işləməsini təmin edən qaydaları pozma. Anlayışı və tövsifedici əlamətləri.

Magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi cinayətinin anlayışı və əlamətləri.

Beynəlxalq uçuş qaydalarını pozma cinayətinin anlayışı və əlamətləri.

DİO-nun hərəkət təhlükəsizliyinin təmin olunmasında rolu.

Kibercinayətlərin anlayışı və ümumi xarakteristikası.

Kompyuter sisteminə qanunsuz daxil olma. Anlayışı və tövsifedici əlamətləri.

Kompyuter məlumatlarını qanunsuz ələ keçirmə. Anlayışı və tövsifedici əlamətləri.

Kompyuter sisteminə və ya kompyuter məlumatlarına qanunsuz müdaxilə. Anlayışı və tövsifedici əlamətləri.

Kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi. Anlayışı və tövsifedici əlamətləri.

Kompyuter məlumatlarının saxtalaşdırılması. Anlayışı və əlamətləri.

## Yoxlama sualları:

1. Nəqliyyat cinayətlərinin anlayışını verin.
2. Nəqliyyat cinayətləri inzibati xətalardan nə ilə fərqlənir?
3. Yol hərəkəti təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına anlayış verin. Bu cinayətin subyekti kumlər ola bilər?
4. Yol nəqliyyat hadisəsi yerindən qaçmacinayət tərkibi hansı hallarda yaranır?
5. Yol nəqliyyat hadisəsi yerindən qaçmanın təhlükədə qoymadan fərqi nədən ibarətdir?
6. Hansı hallarda cinayətin törədilmə yerinin tövsif üçün əhəmiyyəti vardır?
7. Kompyuter informasiyası sahəsində olan cinayətlərin ümumi anlayışını verin.
8. Kompyuter informasiyasına qanunsuz daxil olma nədir?
9. Kompyuter informasiyası sahəsində olan cinayətlərin predmeti nədir?
10. Ziyanverici proqramlar nədir?
11. Quruluşuna görə tərkibini xarakterizə edin.

## Mövzuya aid ədəbiyyat:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
2. Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 264-cü maddəsinin

Azərbaycan Respublikasının Konstitusiyasının 66-cı maddəsinə uyğun un yoxlanılmasına dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 29 yanvar 2004-cü il tarixli Qərarı
3. Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 10 aprel 2012-ci il tarixli Qərarı
4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin "nəqliyyat vasitələrin idarə etmək hüququ olmayan şəxs" müddəasının şərh edilməsinə dair" 21 sentyabr 2014-cü il tarixli Qərarı
5. "Yol hərəkəti haqqında" BMT-nin 8 noyabr 1968-ci il Konvensiyası (AR 29 aprel 1997-ci ildə qoşulmuşdur)
6. "Kibercinayətkarlıq haqqında Ü Avropa Şurasının 23 noyabr 2003-ci il tarixli Konvensiyası ( AR 30 sentyabr 2009-cu ildə qoşulmuşdur)
7. "Yol hərəkəti haqqında" AR-ın 3 iyul 1998-ci il tarixli Qanunu.
8. "Nəqliyyat haqqında" AR-ın 11 iyun 1999-cu il tarixli Qanunu.
9. "Avtomibil nəqliyyatı haqqında" AR-ın 2008-ci il tarixli Qanunu.
10. AR-ın İnformasiya. İnformasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" 3 aprel 1998-ci il tarixli Qanunu.
11. "Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" AR Məhkəməsi Plenumunun 15 noyabr 2013-cü il tarixli 5 saylı Qərarı

12. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
13. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019.
14. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
15. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar Dərs vəsaiti. Bakı, 2016.
16. Rüstəmov R.İ, Mustafayev N.İ "Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə əlaqədar cinayətlər" Bakı, 2009
17. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
18. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред., д.ю.н., профессора А.В. Бриллиантова). 2011
19. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

## Referat mövzuları:

1. Hərəkətin təhlükəsizliyi qaydalarının pozulması ilə əlaqədar olan cinayətlər
2. Nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə əlaqədar olan cinayətlər.
3. Yol nəqliyyat hadisəsi yerindən qaçma cinayətinin tövsif problemləri.
4. Kibercinayətlərlə cinayət hüquqi mübarizə məsələləri.
5. Kompyuter sisteminə qanunsazdaxil olma cinayətinin tövsif problemləri.
6. Kompyuter məlumatlarını qanunsuz ələ keçirmə cinayətinin tövsif problemləri.

## Terminoloji tapşırıq

**Xaker –** ing. Hacker- informatika sahəsində müxtəlif növ qanunsuz hərəkət edən şəxs

**İnsayder** - ing. Insider içəridə - xidməti vəzifələrinə və ya qohumluq əlaqələrinə görə məxfi məlumatlara çıxışı olan hər hansı bir şəxs

## Məsələlər:

1. 12.06.2020-ci il tarixdə saat 18 radələrində matorlu qayığı idarə edən Nərimanlı dostu Şahin Muxtar oğlunu " Başkənd gölü" deyilən ərazidə qayıqla gəzintiyə çıxarmışdır. qəflətən sərt manevir etdiyindən, qayıqda olan Muxtaroğlu suya yıxılıb boğularaq ölmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

2. Alməmmədov Gülağa 01 yanvar 2021-ci il tarixdə saat 19 radələrində etibarnamə əsasında əldə etdiyi Qafarova Südabə Məmməd qızının adına rəsmiləşdirilmiş «VAZ-21011» markalı, "N" qeydiyyat nişanlı avtomobillə Goranboy-Tərtər avtomobil yolunun Goranboy şəhərindən keçən 1-ci kilometrliyində Goranboy istiqamətində 90 km/saat sürətlə hərəkətdə olarkən yol hərəkəti üçün təhlükəsiz şərait yaratmalı, öz hərəkətləri və hərəkətsizliyi ilə digər hərəkət iştirakçılarına və başqa əmlaka zərər vurmamalı, diqqətini daim dəyişən yol şəraitindən ayırmamalı, avtomobilin öz hərəkət zolağı ilə hərəkətini təmin etməli, qarşıdan əks istiqamətdə nəqliyyat vasitəsi yaxınlaşdığı vəziyyətdə idarə etdiyi avtomobili qarşı sol hərəkət zolağma çıxarmamalı və hərəkət üçün təhlükə yaratmamalı, həmin yolun yaşayış məntəqəsi daxilində yerləşməsini nəzərə alaraq avtomobili hərəkətin təhlükəsizliyini təmin edə biləcəyi sürətlə, yəni yol şəraitinə uyğun olaraq 60 km/saat sürətdən yüksək olmayan sürətlə idarə etməli olduğu halda, bunlara riayət etməməklə "Yol hərəkəti haqqmda" Azərbaycan Respublikası Qanununun 36-cı

maddəsinin 1-ci hissəsinin 3-cü bəndinin və 50-ci maddəsinin 2-ci hıssəsinin 1-ci bəndinin tələblərini pozaraq, qarşı tərəfdən gələn Paşayev Asif Qələndər oğlunun idarə etdiyi «Kamaz» markalı, avtomobilin yaxınlaşdığı vəziyyətdə avtomobili qarşı hərəkət zolağına çıxarmış və idarə etdiyi avtomobil həmin avtomobillə toqquşmuş, nəticədə idarə etdiyi avtomobildə olan sərnişin Vəliyev Akif Arzu oğlu sağlamlığa ağır zərər vurmaya aid xəsarətlər yetirməsinə və onun aldığı xəsarətlərdən hadisə yerində ölməsinə, «Kamaz» markalı, avtomobili zədələməklə avtomobilin faktiki sahibi Asif Paşayevə 1743 manat dəyərində maddi ziyan vurulmasına səbəb olmuşdur.

**Əmələ hüquqi qiymət verin.**

3. Pənah Cəfərli 29 iyun 2020-ci il tarixdə, saat 11:20-də idarə etdiyi texniki cəhətdən saz vəziyyətdə olan «Hyundai Sonata» markalı N saylı dövlət qeydiyyat nişanlı avtomobillə Bakı şəhəri, Nərimanov rayonu, ərazisi ilə «Koroğlu» metrosu istiqamətində hərəkət edən zaman Heydər Əliyev prospekti 105 saylı ünvanda «Günəş» şadlıq evinin qarşısında yolun əks tərəfində "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunun 36-cı maddəsinin 1-ci hissəsinin, 3-cü bəndinin tələblərini pozaraq yol hərəkəti üçün təhlükəsiz şərait yaratmalı, öz hərəkətləri və ya hərəkətsizliyi ilə digər hərəkət iştirakçılarına zərər vurmamalı olduğu halda göstərilənləri etməyib idarə etdiyi avtomobilin qabaq sağ yan tərəfi ilə qarşısında eyni istiqamətdə hərəkətdə olan şəhər sakini Əli Vəliyevin idarə etdiyi «Volsvagen Golf III» markalı N dövlət qeydiyyat nişanlı avtomobilin sol yan tərəfindən vuraraq toqquşmuş və nəticədə həmin avtomobil idarəetməni itirib öz hərəkət zolağından çıxaraq sağ yan tərəfdə olan beton yolarıcıya dəyib təkrar sola qayıtmaqla eyni istiqamətdə hərəkətdə olan Sənan Əliyevin idarə etdiyi «Mercedes- Benz 200» markalı N saylı dövlət qeydiyyat nişanlı avtomobillə toqquşmuşdur.Nəticədə «Mercedes-Benz 200» markalı

avtomobildə olan sərnişin Əzizova ağır bədən xəsarəti almışdır. Pənah Cəfərli hadisə yerində dayanmayıb çıxıb getmişdir.

**Əmələ hüquqi qiymət verin.**

4. Əliyev Zamir Salman oğlu 08 may 2020-ci il tarixdə saat 14 radələrində ona məxsus olan «Mitsubishi Pajero İO» markalı, N qeydiyyat nişanlı avtomobili Bakı şəhəri, Binəqədi rayonu, «Mərkəz» adlanan ərazidə sürərkən idarəetməni itirdiyindən, avtomobil divara dəyərək aşmış və nəticədə avtomobildə olan Quluyeva Rüxsarə Əziz qızı almış olduğu alın, təpə və sağ gicgah sümüklərinin kəllə əsasına keçən qəlpəli sınıqları, baş-beyin qişaları altına, mədəciklərinə və toxumasına qansızmaları ilə nəticələnən həyat üçün təhlükəli olan ağır dərəcəli bədən xəsarətlərindən ölmüşdür.

**Əmələ hüquqi qiymət verin.**

5. Elvin Hüseyinli avtomobili magistral yolla idarə edərkən yaranmış texniki nasazlıq ucbatından idarəetməni itirmiş və bu səbəbdən yolun kənarında olan piyadanı vuraraq ona ağır bədən xəsarəti yetirmişdir. O avtomobildən düşərək hadisə yerini tərk etməyə cəhd etdikdə, yaralı vəziyyətdə olan Vüqar Hümmətli ona kömək edərək xəstəxanaya çatdırmağı xahiş etmişdir. Lakin Hüseyinli yaralının yalvarışına əhəmiyyət verməyib hadisə yerindən uzaqlaşmışdır. Məlum olmuşdur ki, Hüseyinlinin qəza törətməsində təqsiri yoxdur.

**Əmələ hüquqi qiymət verin.**

6. Sərnişin daşımaq üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan Fuad Məhəroğlu əlli nəfər sərnişin tutumu olan avtobusu Bakı şəhərində müəyyən edilmiş marşurut üzrə hərəkət etmişdir. 16.10.2020-ci il tarixdə saat 16 radələrində həmin avtobusu idarə edən Fuad Bakı şəhəri Binəqədi rayonu ərazisində yol hərəkət qaydasını pozmuş və

nəticədə avtobusun aşması nəticəsində iki nəfər sərnişin ölmüş, altı nəfər isə ağır bədən xəsarətləri almışdır.

**Əmələ hüquqi qiymət verin.**

7. Səbuhi Tofiq oğlu yaşadığı kəndin ərazisindən keçən avtomobil yolunu qazaraq evinə su xətti çəkmiş, lakin yolun qazılmış hissəsini bərpa etməmişdir. Bu səbəbdən həmin yolla hərəkətdə olan Bəhruz Şəkizadənin idarə etdiyi avtomobil aşmış və nəticədə sərnişin Ramal Kərimli ağır bədən xəsarəti almışdır.

**Əmələ hüquqi qiymət verin.**

8. Qasımlı Bakı-Qazax yolu ilə avtomobili idarə edərkən, yolun Qaradağ rayonunun ərazisindən keçən hissəsində qəflətən piyada Zamir Salmanlı ilə qarşılaşmışdır. Nəticədə Qasımlı idarə etməni itirmiş və avtomobil yolun kənarına yuvarlanmış, avtomobildə olan Elşad Qara oğlu isə ağır bədən xəsarəti almışdır. Məlum olmuşdur ki, hadisəyə səbəb Zamir Salmanlının qəflətən yola çıxmasıdır.

**Əmələ hüquqi qiymət verin.**

9. Qanuni istifadəçi olmayan Elnur İdriszadə icazəsiz kompyuter sisteminə daxil olaraq orada olan məlumatları əldə etmək istəsə də, buna nail olmamışdır.

**Əmələ hüquqi qiymət verin.**

10. Elvin Hacızadə tələbə yoldaşı Məsim Şəmmədzadənin icazəsi olmadan onun şəxsi kompyuterinə müdaxilə edərək, dərsləri ilə bağlı öyrənmək üçün Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarını elektron məlumat daşıyıcısından istifadə edərək ələ keçirmişdir.

**Əmələ hüquqi qiymət verin.**

11. Sənan Əlizadə qonşusu Rəşad Ələddin oğlunun kompyuter proqramlarının idarəsi altında fəaliyyət göstərməsinin təmin edilməsi məqsədi ilə kompyuter məlumatlarında dəyişiklik etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

12. Vüsal Kərimli dəfələrlə cəhd etsədə şəxsi kompyuterinin informasiya sisteminə daxil ola bilməmişdir. Məlum olmuşdur ki, xidməti iş yoldaşı Asəf Tahir oğlu ilə aralarında olan narazılığa görə Sadikli xüsusi bacarığından istifadə etməklə, onun istifadə etdiyi kompyuterin sisteminə giriş imkanını məhdudlaşdırmışdır.

**Əmələ hüquqi qiymət verin.**

13. Rəfael Hüseyinli yaxın qohumu Nuşirəvan Məcidlinin kompyuterində olan məlumatların məzmununu dəyişdirmiş, bəzi məlumatları silmiş, bəzilərinə isə əlavələr etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Sürücü maşını yolun kənarında saxlayıb mağazaya gedir. Avtomaşının peçini yandırmaq istəyən sərnişin maşını açarla işə salmış, yerindən tərpənən avtomobil qarşıda duran piyadanı vurmuşdur. Piyada öldüyü halda sürücü və sərnişinin əməlini tövsif edin.**

a) sürücünün əməli cinayət məsuliyyətinə səbəb olmur, sərnişin isə “Ehtiyatsızlıqdan adam öldürmə”yə (CM mad.124) görə məsuliyyət daşıyır

b) sürücü və sərnişin - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (CM mad.263.2) cinayətində birgə iştirakçılıqda məsuliyyətə səbəb olur.

c) sərnişin cinayət məsuliyyəti daşımır, sürücü isə - "Ehtiyatsızlıqdan adam öldürmə"yə (CM mad.124) görə məsuliyyət daşıyır
d) sürücünün əməli cinayət məsuliyyətinə səbəb olmur, sərnişin isə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozma( CM mad.263.2)

**2. Yol hərəkəti qaydalarının pozaraq ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan sürücü avtomobili dərhal arxaya verərkən digər bir şəxsin sağlamlığına ehtiyatsızlıqdan az ağır zərər vurmuşdur. Əməl tövsif edilməlidir:**

a) yol hərəkəti qaydalarının pozulmasının ehtiyatsızlıqdan ölümə səbəb olması (CM mad.263.2) və ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurması (CM mad.263.1) ilə;
b) yol hərəkəti qaydalarının pozulmasının ehtiyatsızlıqdan ölümə səbəb olması (CM mad.263.2) ilə;
c) yol hərəkəti qaydalarını pozulmanın ehtiyatsızlıqdan ölümə səbəb olması (CM mad.263.2) və "Ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma" (CM mad.131) ilə;
d) ehtiyatsızlıqdan adam öldürmə (CM mad.124) ilə.

**3. "Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə istismara buraxma" (CM 265) cinayətinin subyekti:**

a) nəqliyyat vasitəsini təmir edən, 16 yaşa çatmış və ya nəqliyyat vasitələrinin texniki vəziyyətinə məsul olan şəxsdir
b) nəqliyyat vasitələrinin təmirinin gedişinə nəzarət etmək vəzifəsi daşıyan şəxsdir
c) 16 yaşa çatmış hər hansı fiziki şəxsdir
d) yalnız təmirin aparıldığı müəssisənin rəhbəridir

**4. İki və üç təkərli mopedlərdən hansı yol hərəkəti qaydalarının pozma cinayətinin predmeti ola bilər:**

a) mühərrikinin iş həcmi 50 kub/sm-dən çox olan və maksimum surəti saatda 20 km-dən çox olan mopedlər
b) mühərrikinin iş həcmi 50 kub/sm-dən çox olan bütün mopedlər
c) maksimum surəti saatda 50 kmdən çox olan bütün mopedlər
d) yalnız üç təkərli mühərrikinin iş həcmi 50 kub/sm-dən çox olan və maksimum surəti saatda 50 km-dən çox olan mopedlər

**5. "Kibercinayətlər"ə (CM mad.30-cu fəsli) aid deyil.**
a) kommersiya və ya bank sirrini təşkil edən məlumatları yayma qaydasını pozma
b) kompyüter sisteminə qanunsuz daxil olma və ya onların istismarı qaydalarını pozma
c) kompyüter məlumatlarını saxtalaşdırılması
d) kompyüter sisteminə və ya kompyüter məlumatlarına qanunsuz daxil olma

**6. Kibercinayətlərin subyekti;**
a) 16 yaşa çatmış, anlaqlı fiziki şəxsdir
b) müəyyən kateqoriya informasiya ilə işləməyə icazəsi olmayan hüquqi və ya fiziki şəxslərdir
c) 18 yaşa çatmış, anlaqlı fiziki şəxsdir
d) 14 yaşa çatmış, anlaqlı fiziki şəxsdir

**7. Kompyüter sisteminə qanunsuz daxil olma (CM mad.271) cinayətinin subyekti kimi qeyd edilməlisir:**
a) 16 yaşa çatmış, anlaqlı fiziki şəxs
b) 16 yaşa çatmış, anlaqlı fiziki, həm də qulluq mövqeyinə görə müəyyən kateqoriya məlumatları əldə etmək imkanı olan şəxs
c) 16 yaşa çatmış, anlaqlı fiziki, qanunla mühafizə edilən məlumatlarla işləmək üçün icazəsi olan şəxs
d) 14 yaşına çatmış, anlaqlı, istənilən fiziki şəxs

**8. Biri CM-in XXX fəslinə ("Kibercinayətlər") daxil olan cinayət deyil**

a) kompyuter sisteminə qanunsuz daxil olma
b) kompyuter məlumatlarını qanunsuz ələ keçirmə
c) kompyuter məlumatlarının saxtalaşdırılması
d) elektron məlumat daşıyıcılarından (informasiya texnologiyalarından) istifadə etməklə əmlakın talanması

## MÖVZU № 30

## Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər

*Vaxt: - 4*
*Mühazirə: - 2*
*Seminar: - 2*

### Seminar məşğələsinin sualları:

1. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin anlayışı və təsnifatı
2. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin növləri

### Mövzunun qısa məzmunu

Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin anlayışı və növləri.

Azərbaycan Respublikasının xarici təhlükəsizliyinə qəsd edən cinayətlər. Dövlətə xəyanət. Bu cinayətin anlayışı və formaları.

Dövlətə xəyanət cinayətinin obyektiv cəhəti. Dövlətə xəyanətə görə cinayət məsuliyyətindən azad edən şərtlər.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə. Anlayışı və tövsifedici əlamətləri.

Casusluq. Casusluğun anlayışı və növləri. Casusluğun predmeti ola bilən məlumatlar.

Dövlət sirrini yayma. Anlayışı və tövsifedici əlamətləri.

Məzmununda dövlət sirri olan sənədləri itirmə cinayətinin anlayışı.

Dövlət sirri təşkil edən məlumatların qanunsuz əldə edilməsi cinayətinin anlayışı.

Azərbaycan Respublikasının siyasi sisteminə qəsd edən cinayətlər. Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə cinayətinin anlayışı.

Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsasları əleyhinə olan cinayətlər.

Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama cinayətinin anlayışı. Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma. Anlayışı və tövsifedici əlamətləri.

Silahlı qiyam cinayətinin anlayışı.

Dövlət əleyhinə yönələn açıq çağırışlar. Anlayışı və tövsifedici əlamətləri.

Azərbaycan Respublikasının iqtisadi əsaslarına qəsd edən cinayətlər.

Təxribat. Təxribatın anlayışı və tövsifedici əlamətləri.

Milli münasibətlər sahəsində dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə törədilən cinayətlər.

Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması. Anlayışı və tövsifedici əlamətləri.

## Yoxlama sualları:

1. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərin anlayışını verin.
2. Dövlətə xəyanət cinayətinin əlamətlərini göstərin.
3. Dövlətə xəyanət cinayətinə görə səmimi peşmançılıqla əlaqədar hansı hallarda cinayət məsuliyyətindən azad olunur?
4. Dövlət sirri nə deməkdir?
6 Casusluq cinayətinin subyekti kimlər ola bilər?
7. Dövlət sirrini yayma cinayətinin subyekti kimlər ola bilər?
8. Dövlət sirrini yayma cinayəti ehtiyatsızlıqla törədilə bilərmi?
9. Hakimiyyəti zorla ələ keçirmə nədir?
10. Milli münasibətlər zəmnində dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə törədilən cinayətlər hansılardır?

**Mövzuya aid ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. “Diplomatik əlaqələr haqqında” BMT-nin 18 aprel 1961-ci il Vyana Konqresi.
4. Azərbaycan Respublikası Alli Məhkəməsi Plenumunun “Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında” 12 dekabr 2002-ci il tarixli 3 saylı Qərarı.
5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
6. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019
7. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
8. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.

9. Əliyev Ə.İ.Məmmədli "Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər. Bakı, 2009
10. "Terrorizm qarşısının alınması haqqında" 27 yanvar 1977-ci il tarixli Avropa Konvensiyası
11. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 8 iyun 2001-ci il tarixli Qanunu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 57-1-ci maddəsində "Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və (və ya) konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmək ifadəsinin izahı haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1 sentyabr 1995-ci il tarixli Qərarı.
12. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu.
13. "Dövlət sirri" haqqında Azərbaycan Respublikası 7 sentyabr 2004-cü il tarixli Qanunu.
14. Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2005-ci il tarixli 248 saylı Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı".
15. Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2005-ci il tarixli, 249 saylı Fərmanı ilə təsdiq edilmiş "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları".
16. Уголовное право. Особенная часть. Учебник. (под. ред. Ветрова Н.И. и Ляпунова Ю.И.) М., 2003.
17. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
18. Уголовное право Российской Федерации. Особенная часть. (под. ред. Здравомыслова Б.В.) М., 2002.

19. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011.
20. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

**Referat mövzuları:**

1. Dövlətə xəyanət cinayətinin anlayışı, formaları və tərkibinin təhlili.
2. Dövlət sirrini yayma əməli ilə cinayət hüquqi mübarizə.
3. Ölkənin iqtisadi əsaslarına qəsd edən cinayətlər.
4. Dövlət sirri təşkil edən məlumatların qanunsuz əldə edilməsi cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.
5. Məzmununda dövlət sirri olan sənədləri itirmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

**Terminoloji tapşırıq**

**Casus-** casusluqla məşğul olan şəxs

**Casusluq -** dövlət sirri olan məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə, yaxud vermək məqsədilə oğurlama, toplama və ya saxlama

**Diplomat** - xarici dövlətlərlə, beynəlxalq təşkilatlarla və onların nümayəndələri ilə rəsmi diplomatik münasibətləri həyata keçirməyə səlahiyyəti olan dövlət orqanının xarici münasibətlərdəki rəsmi nümayəndəsi

**Məsələlər:**

1. Azərbaycan Respublikasının vətəndaşı Abbaszadə, ona məxsus olan yerli telekanalda seperatçıları "haqq işi" uğrunda mübarizə aparan qəhrəmanlar kimi təbliğ etmiş və dövləti onlarla danışıq aparmağa çağırmışdır.

**Abbaszadənin əməlinə hüquqi qiymət verin**

2. Fransa informasiya agentliyinin Azərbaycan Respublikasında işləyən müxbiri Pyer, onun üçün maraqlı olan Azərbaycan Respublikası kütləvi informasiya vasitələrində dərc olunmuş iqtisadi elmi-texniki və sair bu kimi məlumatları toplayardı. Bir gün o Fransa Baş Kəşfiyyat İdarəsindən həmin məlumatların xülasəsini onlara vermək barədə təklif alır. Pyer həmin xülasəni hazırlayaraq Fransa BKİ-yə təqdim edir.

**Pyerin əməlinə hüquqi qiymət verin.**

3. Elmi-Tədqiqat İnstitutunun əməkdaşı Turabxanlı xarici təşkilatın nümayəndəsinin tapşırığı ilə əvvəllər kütləvi informasiya vasitələrində açıq şəkildə dərc olunan, lakin sonralar dövlət sirri hesab olunmuş texniki quruluş barədə məlumatları müəyyən mükafat müqabilində ona vermişdir. Turabxanlı bu xarakterli məlumatların dövlətə heç bir ziyan vura bilməsi fikri ilə qətiyyən razılaşmırdı və hesab edirdi ki, bu məlumatlar əbəs yerə dövlət sirri hesab edilmişdir.

**Turabxanlının əməlinə hüquqi qiymət verin.**

4. Yusifli hərbi hava limanına yaxın olan ərazidə yaşayırdı . O, ay ərzində bu limana enən döyüş təyyarələri və helikopterlərinin sayı, uçuş vaxtı və enmə vaxtı barədə məlumtları dəftərçəsində qeyd edirdi. Təsadüf nəticəsində AR Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşının əlinə keçmiş bu məlumatların toSeminar məşğələsinin suallarımasında narkotik aludəçisi olan Yusiflinin niyyəti, onu Gürcüstan Respublikasındakı Ermənistan Respublikasının səfirliyinə satmaq olmuşdur.

**Yusiflinin əməlini tövsif edin.**

5. Hərbi hissənin məxfi şöbəsinin əməkdaşı gizir Ələsgərli saxlama müddəti başa çatmış məxfi məlumatların daşıyıcısı olan sənədləri məhv edərkən, onlarla birlikdə hələ vaxtı bitməmiş tam məxfi qrifli sənədi də məhv etmişdir.

**Ələsgərlinin əməlinə hüquqi qiymət verin.**

6. Osmanov dini düşmənçilik zəminində qəsdən Suriya Ərəb Respublikasının ərazisində, həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan sabit silahlı qrupun fəaliyyətində cinayətkar birlik (təşkilat) halında iştirak etmək və ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədilə yaradılmış Birləşmiş Millətlər Təşkilatı tərəfindən terror təşkilatı kimi tanınan "İraq-Şam İslam Dövləti" ("İŞİD"- hazırkı adı "İslam Dövləti") adlı cinayətkar birliyin tərkibinə daxil olaraq Atma vilayətində bu cinayətkar birliyin tabeliyində Bağırovun rəhbərlik etdiyi silahlı qrupa qoşularaq 2017-ci ilin iyul ayına kimi fəaliyyət göstərmişdir. Bundan sonra X.X. İŞİD-in Hələb şəhəri yaxınlığında S.S.S-in rəhbərlik etdiyi hərbi düşərgəyə üzv olmuş, bir ay ərzində terrorçuluq məqsədi ilə fiziki hazırlıq və döyüş taktikası üzrə təlimlər keçmiş və sabit silahlı qrupa qoşularaq həmin dəstənin tərkibində fəaliyyət göstərmişdir. O Haritan şəhəri uğrunda gedən döyüşlərdə "Kalaşnikov" markalı avtomat silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğınlar törətmişdir. Osmanov 2019-cu ilin yanvar ayına kimi qeyd edilən sabit silahlı qrupun tərkibində fəaliyyət göstərdikdən sonra Türkiyə Respublikasına keçmiş, 3 iyul 2020-ci il tarixdə isə Azərbaycan Respublikasına qayıtmışdır.

**Əmələ hüquqi qiymət verin.**

**7.** Qabil Musa oğlu Novruz Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək üçün Azərbaycan Respublikasının vətəndaşları- Əliyev Babək, Əhədov Tahir, Musayev Rəşid, Muxtarov Elşad və Eynalov Rövşəndən ibarət qrupla Suriya və İraq dövlətlərinin ərazilərində dini ekstremizm zəminində təlim və döyüşlərdə iştirak etmək üçün dövlət sərhəddini nəzarət buraxılış

məntəqəsindən kənarda keçmək istəmişdir.Lakin onlar Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər sisteminə daxil deyildir;**

a) terrorçuluq
b) rüşvət alma
c) dövlət sərhəddini qanunsuz keçmə
d) təxribat

**2. Dövlətin təhlükəsizliyini xarakterizə edən ifadələrdən hansı düz deyildir?**

a) dövlətin təhlükəsizliyi dövlət hakimiyyət orqanların idarəetmə normal fəaliyyətinin sahəsində mühafizə olunması vəziyyətidir
b) dövlətin təhlükəsizliyi, şəxsi və ictimai təhlükəsizliyi ilə yanaşı milli təhlükəsizliyinin bir hissəsini təşkil edir
c) dövlətin təhlükəsizliyi dövlət hakimiyyətinin ümumən, həmçinin onun ayır-ayrı institut və orqanlarının mühafizə olunmuş və normal halda fəaliyyət göstərməsi deməkdir.
d) dövlətin təhlükəsizliyi dövlət hakimiyyətinin ümumən fəaliyyət göstərməsi deməkdir

**3. CM-in 31 fəslində (Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər) nəzərdə tutulmuş cinayətlər qrupuna daxildir:**

1) casusluq
2) təxribat
3) terrorçuluq
4) dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə
5) kütləvi iğtişaş
6) dövlət sirrini yayma
7) muzdluluq
8) beynəlxalq üçuş qaydalarını pozma

a) 1,2,4,6
b) 1,2,3,7
c) 1,2,5,7
d) 1,2,3,4,6

**4. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər qrupunda subyektdi xüsusi olan cinayətlərə aiddir:**
1) casuzluq
2) dövlət sirrini yayma
3) məzmununda dövlət sirri olan sənədləri itirmə
4) dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə (terror aktı)
5) dövlətə xəyanət
6) təxribat
a) 1,2,3,5
b) 1,2,3,4,5,6
c) 1,2,3,4
d) 1,2,3,4

**5. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan aşağıdakı cinayətlərdə məqsədin və motivin cinayət tərkibinin zəruri elementləri olanları göstərin**
1) casuzluq
2) dövlət sirrini yayma
3) dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə (terror aktı)
4) təxribat
5) silahlı qiyam
6) milli, irqi, dini düşmənçiliyin salınması
a) 1,3,4,5,6
b) 1,2,3,4,5,6
c) 1,2, 4,5
d) 2,3,5

**6. "Dövlətə xəyanəti" (CM mad.274) xarakterizə edən ifadələrdən səhv olanı göstərin:**

a) "Dövlətə xəyanət, cinayəti obyektiv cəhətin konstruksiyasına görə maddi tərkiblidir, yəni AR-ın suverenliyinə, ərazi bütövlüyünə, dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə zərər vurulması əməlin obyektiv cəhətinin zəruri elementidir.

b) "Dövlətə Xəyanət cinayət tərkibinin subyektiv cəhəti yalnız birbaşa qəsdlə xarakterizə olunur, cinayətin məqsədi və motivi əməlin tövsifinə təsir etmir

c) CM 274-cü maddəsinin qeydində "Dövlətə xəyanət"ə görə cinayət məsuliyyətindən azad olunması xüsusi şərtləri göstərilir

d) cinayətin bilavasitə obyekti Azərbaycan Respublikasının xarici təhlükəsizliyidir

**7. Müdafiə Nazirliyinin əməkdaşının əməlini tövsif edin. O,hansı ki, dəfələrlə maddi mükafat müqabilində işinə görə ona məlum olan hərbi məlumatları xarici dövlətə vermişdir, sonradan isə o könüllü surətdə MTN-i məlumatlandırmışdır. Əməli tövsif edin:**

a) dövlət sirrini vermə formasında dövlətə xəyanətdir;

b) casusluq formasında dövlətə xəyanətdir;

c) cinayət məsuliyyəti yoxdur, belə ki, təqsirli şəxs könüllü sürətdə hakimiyyət orqanlarəna öz hərəkətləri barədə məlumat vermişdir;

d) "Casusluq" (CM mad.276)

**8. Cinayət tərkibinin hansı xüsusiyyətlərinə görə "Dövlətə xəyanət"in obyektiv cəhətinə aid olan casusluq, cinayətin müstəqil növü olan "Casusluqdan" (CM mad.276) fərqlənir**

a) cinayətin subyektinə görə

b) cinayətin subyektiv cəhətinə görə

c) cinayətin obyektiv cəhətinə görə

d) cinayətin obyektinə görə

**9. Casusluğun obyektiv cəhətinə aid deyil;**
a) digər məlumatları beynəlxalq təşkilata vermək məqsədi ilə saxlama
b) dövlət sirri olan məlumatları beynəlxalq təşkilata vermək məqsədi ilə saxlama
c) digər məlumatları xarici xidməti nümayəndəsinə vermək məqsədi ilə oğurlama
d) dövlət sirri olan məlumatları beynəlxalq təşkilatın nümayəndəsinə vermək məqsədi ilə oğurlama

**10. Təxribat cinayətinin obyektiv cəhətinİ xarakterizə edir:**
a) müəssisələrin, qurğuların, yolların, əlaqə və rabitə vasitələrinin, əhalinin həyat təminatı obyektlərinin dağıdılmasına yaxud zədələnməsinə yönəldilən partlayışlar, yanğınlar və sair hərəkətlər
b) insanların həlak olması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsinə yönəldilən partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə
c) milli, irqi, dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasını, bir qrupun üstünlüyünün müəyyən edilməsinə yönələn hərəkətlər
d) silahlı qiyamın təşkil edilməsi və qiyamda iştirak edilməsi ilə bağlı olan hərəkətlər

**11. Təxribat terrorçuluqdan fərqlənir;**
a) cinayətin məqsədinə görə
b) cinayətin motivinə görə
c) təqsirin formasına görə
d) cinayətin predmetinə görə

**12. Xarici ölkələrin xüsusi xidmət orqanlarına vermək məqsədilə sair məlumatları toplayan vətəndaşlığı olmayan şəxsin əməli necə tövsif edilməlidir?**
a) casusluğa hazırlıq kimi (CM mad. 28, 276)
b) əməldə cinayət tərkibi yoxdur
c) "Casusluq"kimi (CM mad. 276)
d) casusluğa cəhd kimi(CM mad. 29, 276)

## MÖVZU № 31

## Ədalət mühakiməsi əleyhinə olan cinayətlər

***Vaxt: - 4***
***Mühazirə: - 2***
***Seminar: - 2***

### Seminar məşğələsinin sualları:

1. Ədalət mühakiməsi əleyhinə olan cinayətlərin anlayışı, ümumi xarakteristikası və təsnifatı
2. Ədalət mühakiməsi əleyhinə olan cinayətlərin növləri

### Mövzunun qısa məzmunu

Ədalət mühakiməsi əleyhinə olan cinayətlərin ümumi xarakteristikası və növləri.

Ədalət mühakiməsi orqanlarının vəzifəli şəxsləri tərəfindən ədalət mühakiməsi əleyhinə törədilən cinayətlər.

Təqsiri olmadığını bilə-bilə şəxsi cinayət məsuliyyətinə cəlb etmə cinayətinin anlayışı. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə. Qanunsuz olaraq tutma, həbsdə saxlama. Anlayışı və tövsifedici əlamətləri.

İşgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza. Anlayışı və tövsifedici əlamətləri. Sübutları saxtalaşdırma. Anlayışı və tövsifedici əlamətləri. Bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma. Anlayışı və tövsifedici əlamətləri.

Qanuna müvafiq olaraq ədalət mühakiməsini həyata keçirməyə yardım edən şəxslər tərəfindən ədalət mühakiməsi əleyhinə törədilən cinayətlər.

Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə. Anlayışı və tövsifedici əlamətləri. Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi cinayətinin anlayışı.

Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma cinayətinin anlayışı.

Məhkəmə və hüquq-mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma. Anlayışı və tövsifedici əlamətləri.

Barəsində hüquqi məcburetmə tədbirləri tətbiq olunmuş şəxslər tərəfindən ədalət mühakiməsi əleyhinə törədilən cinayətlər.

Azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altından qaçma. Anlayışı və tövsifedici əlamətləri.

Azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma cinayətinin anlayışı.

Ədalət mühakiməsi əleyhinə sair şəxslər tərəfindən törədilən cinayətlər.

Ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma. Bu cinayətin növləri və tövsifedici əlamətləri.

Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə cinayətinin əlamətləri. Ədalət mühakiməsinin və ya ibtidai istintaqın həyata keçirilməsi ilə əlaqədar hədələmə və ya zor tətbiq etmə. Bu cinayətin növləri və tövsifedici əlamətləri.

Məhkəməyə hörmətsizlik etmə. Anlayışı və tövsifedici əlamətləri.

Bilə-bilə yalan xəbərçilik etmə. Anlayışı və tövsifedici əlamətləri.

İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma. Anlayışı və tövsifedici əlamətləri. Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər. Anlayışı və tövsifedici əlamətləri.

Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə. Anlayışı və tövsifedici əlamətləri.

Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə. Anlayışı və növləri.

## Yoxlama sualları:

1. Ədalət mühakiməsi əleyhinə olan cinayətlərə anlayış verin.
2. Ədalət mühakiməsi nədir?
3. Həbsə alma nədir və subyekti kimlər ola bilər?
4. Həbsdə saxlama nədir və subyekti kimlər ola bilər
5. Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə cinayətinin subyekti kimlər ola bilər?
6. Qanunsuz tutma nədir və subyekti kimlər ola bilər?
7. Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə cinayətinin anlayışını verin.
8. Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə cinayətinin obyektiv cəhətlərində olan fərqləri göstərin.
9. Bilə-bilə yalan xəbərçilik etmə cinayətinə anlayış verin.

## Mövzuya aid ədəbiyyat:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.

3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
4. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019
5. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
6. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
7. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
8. Уголовное право Российской Федерации. Особенная часть. (под. ред. Здравомыслова Б.В.) М., 2002.
9. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
10. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

**Referat mövzuları:**

1. Ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri və tövsif problemləri
2. Qanunsuz olaraq tutma, həbsə alma və ya həbsdə saxlama cinayətinin anlayışı və bu cinayətlərin subyekti
3. Bilə-bilə yalan xəbərçilik etmə cinayətinin anlayışı və tövsif problemləri
4. Şahidin və ya zərərçəkmiş şəxsin ifadə verməkdən imtina etməsi cinayətinin anlayışı və tövsif problemləri
5. İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə yaxud yanlış tərcümə etməyə məcbur etmə və pulla ələ alma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

6. Təhqiqat və ya ibtidai istintaq məlumatları yayma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
7. Məhkəmə hökmünü, qərarını, yaxud digər aktlarını icra etməmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.

## Terminoloji tapşırıq

**Apellyasiya-**lat. Appelatio-müraciət. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarından şikayət verilməsi
**Abolisiya** – lat: abollitio-ləğvetmə 1) qanun, vəzifənin ləğv edilməsi; 2) əfvetmə, bağışlama
**Absolyusiya-** təqsirləndirilən şəxsin cəzadan azad edilməsi barədə məhkəmə qərarı
**Bəraət qazandırmaq (vermək)-** cinayətin törədilməsində təqsirsiz bilib, məsuliyyətdən azad etmək
**Ekspert** – bir məsələ haqqında qəti fikir söyləyən mütəxəssis
**Ədalət mühakiməsi** – dövlət fəaliyyət forması; məhkəmələrin öz səlahiyyəti daxilində mülki işlərə, cinayət işlərinə mülki mübahisələrə baxması və onları həll etməsi
**Fakt -** lat. Factum- vermiş, gerçək hadisə, əhvalat
**Fiksiya -** lat. Fictio-uydurmaq - həqiqətdən uzaq olan, lakin müəyyən məqsəd üçün bir əsas və ya dəlil kimi istifadə edilən müddəa, mühakimə
**Məhkəmə -** ədalət mühakiməsini həyata keçirməklə, müəyyən edilmiş prosessual qaydalara və qüvvədə olan qanunvericiliyə uyğun olaraq müliki, cinayət və başqa işlərə baxan dövlət orqanı
**Məhkum** – cəza icra hüququnda barəsində cəza təyin edən məhkəmə hökmü qanuni qüvvəyə minmiş və haqqında ittiham hökmü çıxarılmış şəxs
**Məhkumluq -** cinayətə görə məhkum olmağın hüquqi nəticələri, cinayət məsuliyyəti elementlərindən biri
**Replika** - lat- replico- etiraz edirəm. 1) qısa fikir, etiraz, cavab; 2) məhkəmə prosesində tərəfin etirazı

**Protest** – lat.protestor- açıqca sübut edirəm–hüquqda prokurorun ümumi nəzarəti, habelə məhkəmələrdə cinayət işlərinə və mülki işlərə baxıldığı zaman aşkar etdiyi qanunpozmaları aradan qaldırmaq üçün əsas hüquqi vasitələrdən biri

**Sanksiya-** 2) müəyyən edilmiş qaydaları və normaları pozana qarşı tətbiq edilən ölçü;

**Məsələlər:**

1. Müstəntiq Əlizadə baş vermiş cinayətlə bağlı hadisə yerinə baxış keçirərkən həmin ərazidə olan Təbriz Həsənli hadisə yerində qalan odlu silahı gizlətmək istəmişdir. Bunu görən müstəntiq ondan silahı yerinə qoymağı tələb etsə də, o müstəntiqin tapşırığına əməl etməkdən imtina etmişdir.

**Əmələ hüquqi qiymət verin**.

2. Əvvəllər məhkum olunmuş Pərviz Əmirzadənin yaxın dostu Xaliq Bağırlının törətdiyi cinayətlə bağlı keçirilən məhkəmə baxışından sonra Əmirzadə hakim Həsənzadəyə yaxınlaşıb dostuna ağır cəza təyin edərsə, onu öldürəcəyini bildimiş və oradan kənarlaşmışdır. O bunu dedikdən sonra, həmin tarixdə Həsənzadənin həmin rayonda yaşayan yaxın dostu İsmayılzadənin evinə gedərək, Əmirzadənin Xaliq Bağırlıya yüngül cəza təyin etməsi barədə ona xahiş etməsini tələb etmişdir. Qeyd edək ki,Əmirzadənin bu fikri realdır.

**Əmələ hüquqi qiymət verin.**

3. Təqsirləndirilən Salmanzadə məhkəmə baxışında hakimə “vicdansız”, dövlət ittihamçısına isə “ şərəfsiz ” olması barədə fikir söyləmişdir.

**Əmələ hüquqi qiymət verin.**

4. Hakim Azərbaycan Respublikası CM-in 147.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin törədilməsi ilə əlaqədar zərərçəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə cinayət

təqibi üzrə icraata xitam vermişdir. Bununla bağlı hakimin cinayət məsuliyyəti yarana bilərmi?

**Əmələ hüquqi qiymət verin.**

5. Hakim vətəndaş İmranlıya 8 il azadlıqdan məhrum etmə cəzası təyin etmişdir. Məlum olmuşdur ki, İmranlının həmin cinayəti törətməkdə heç bir təqsiri olmamışdır. Həmin cinayət işi ilə bağlı aparılan icraat dövründə hətta İmranlıya iki ay müddətinə həbs qətimkan tədbiri də seçilmişdir.

**Əmələ hüquqi qiymət verin.**

6.Vüqar İdriszadə bir neçə dəfə qonşusu Bəhruz Kərimliyə bir nəfər şəxsi öldürmək barədə fikir söyləmişdir. Lakin konkret kimi öldürməsi barədə ona heç nə deməmişdir. İki gün sonra İdriszadənin əlini və geyim paltarını qanlı vəziyyətdə görən Kərimli ona "bu nə qandır" deyə soruşduqda, İdriszadə niyyətində olduğu şəxsi öldürdüyünü bildirmişdir. Kərimli bu barədə ərazi aidiyyəti üzrə rayon Polis Şöbəsinə zəng edərək qonşusunun adam oldürməsi barədə məlumat vermişdir.

Məlum olmuşdur ki, Vüqar İdriszadə xırda buynuzlu heyvan kəsdiyi üçün əli və geyim paltarı qana bulaşmışdır.

**Əmələ hüquqi qiymət verin.**

7. Cəzaçəkmə müəssəsindən 7 günlük yaşadığı evə qısamüddətli səfərə gedən Aslanov müddətin bitməsinə baxmayaraq müəssəyə qayıtmamışdır. Məlum olmuşdur ki, o qısamüddətli səfərdə olarkən qonşu kənd sakini Vəliyevin evindən qızıl-zinət əşyalarını oğurlayaraq gizlənmiş və ölkə sərhəddini Astara rayonu ərazisində nəzarət buraxılış məntəqəsindən kənar şəkildə keçərək İran İslam Respublikasının ərazisinə getmək istəmişdir. Aslanov Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılaraq aidiyyatı qurumlara təhvil verilmişdir.

**Əmələ hüquqi qiymət verin**

8. Sabir Quluyev törətdiyi cinayətlə əlaqədar məhkəmə tərəfindən ona əss cəza kimi təyin edilən cərimən ödəməmişdir.

**Əmələ hüquqi qiymət verin.**

9. Vüsal Kərimov cavabdeh kimi ondan 30.000 manat məbləğində pul vəsaitinin Sənan Əliyevin, 22.000 manat məbləğində pul vəsaitinin Mənsur Kərimovun, 16.000 manat məbləğində pul vəsaitinin Vüqar Verdiyevin və 19.000 manat məbləğində pul vəsaitinin Ramal Kərimovun xeyrinə tutulmasına dair Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 20aprel 2020-cı il tarixli, N saylı qanuni qüvvəyə minmiş qətnaməsini üzrsüz səbəbdən müəyyən olunmuş müddətdə icra etmədiyinə və icra məmurunun qanuni tələblərini yerinə yetirmədiyinə görə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 17 oktyabr 2020-cı il tarixli, N saylı qərarına əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinərək 500 manat məbləğində cərimə edilmişdir. Lakin O buna, və ona icra üçün yeni müddət təyin olunmasına baxmayaraq hərəkətlərini davam etdirməklə qeyd olunan rayon məhkəməsinin qanuni qüvvəyə minmiş qətnaməsini icra etməmişdir.

**Əmələ hüquqi qiymət verin.**

10. Nəsimi Nərimanlı qonşusu Natiq Ağakişi oğlundan həmkəndlisi Zamir Salmanlının adam öldürdüyünü eşitmişdir. Lakin o bu barədə hüquq mühafizə orqanına məlumat verməmişdir.

**Əmələ hüquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Ədalət mühakiməsi əleyhinə cinayətlərə aid deyil;**

a) hakimin rüşvət tələb etməsi

b) hakimin bilə-bilə ədalətsiz hökm çıxartması
c) ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hakimin həyatına sui-qəsd etmə
d) ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar əmlakının məhv etməklə hədələmə

**2. Predmeti məcburi element olan ədalət mühakiməsi əleyhinə olan cinayət tərkibini yaradır;**
a) sübutları saxtalaşdırma
b) azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma
c) qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə
d) ədalət mühakiməsinin, ibtidai istintaqın həyata keçirilməsinə mane olma

**3. 15 yaşlı Kərimli qardaşının barəsində cinayət işini istintaq edən müstəntiqin həyatına qəsd etmişdir. Aldığı xəsarətlərdən müstəntiq ölmüşdür. Kərimlinin əməli tövsif edilməlidir.**
a) CM 120.2.3 maddəsi ilə (zərərçəkmiş şəxsin xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar öldürmə);
b) CM-in 287-ci maddəsi (Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə) və CM 120-ci maddəsi (Qəsdən adam öldürmə) ilə;
c) cinayətlərin məcmusu ilə CM-in 287-ci maddəsi (Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə) və CM 120.2.3.-cü maddəsi (zərərçəkmiş şəxsin xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar öldürmə) ilə;
d) CM-in 287-ci maddəsi (Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə) və CM-in 228-ci maddəsi (Qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) ilə;

**4. “Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə” (CM mad.287) cinayətində zərərçəkmiş şəxs ola bilməz;**
a) məhkəmə iclası katibi
b) hakim köməkçisi
c) məhkəmə nəzarətçisi
d) məhkəmə icrası

**5. “Ədalət mühakiməsini və ya ibtidai həyata keçirən şəxsin həyatına qəsd etmə” (CM mad.287) hansı əlamətlərə görə zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar öldürmə (CM mad.120.2.3) cinayət tərkibindən fərqlənir**
a) qəsdin obyektinə görə
b) təqsirin növünə görə
c) törədilmə üsuluna görə
d) cinayətin məqsədinə görə

**6. Prokurorluğun müstəntiqinin qardaşı, təqsirləndirilən şəxsin qohumu ilə görüşərək cinayət işinin qanunsuz olaraq xitam olunmasına görə ondan 5000 manat pul almışdır. Sövdələşməyə görə o, aldığı pul məmləğinin 10%-ni özünə saxlamışdır**.
a) qardaş vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət almağa görə köməkçilik (CM mad.32.5,311.2), müstəntiq-vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətə (hərəkətsizliyə) görə rüşvət alma (CM mad.311.2) və “Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə” (CM mad.291)
b) qardaş-vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət almağa köməkçilik (CM mad.32.5, 311.2), müstəntiq “qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə” (CM mad.291) və “Vəzifə səlahiyyətlərindən sui-istifadə” (CM mad.308)

c) hər ikisi- qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma (CM mad.311.3.1)
d) qardaş-“Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə” (nüfuz alveri) (CM mad.312.3.1), müstəntiq-“Qanunsuz olaraq cinayət məsuliyyətindən azad etmə” (CM mad.291) və “Rüşvət alma” (CM mad. 311.2)

**7. Bilə-bilə ədalətsiz hökm, qətnamə qərardad və qərar çıxarma cinayətinin (CM mad.295) subyekti ola bilər;**
1) Konstitusiya məhkəməsinin üzvü
2) hərbi məhkəmənin hakimi
3) iqtisad məhkəməsinin hakimi
4) idman hakimi
5) şəhər(rayon) məhkəməsinin hakimi
6) zabitlərin şərəf məhkəməsinin üzvlər
7) apellyasiya məhkəməsinin hakimi
8) ali məhkəmənin hakimi
a) 1,2,3,5,7,8
b) 1,2,3,5,8
c) 2,5,7
d) 2,3,5

**8. Azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altında qaçma (CM mad.304) cinayət əmələ görə məsuliyyəti ağırlaşdıran halları sadalayın**
1) bir qrup şəxs tərəfindən törədilməsi
2) həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədilməsi
3) həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə hədəsi ilə törədilməsi
4) qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi
5)silahdan və silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədilməsi

6) ağır və xüsusi ilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər tərəfindən törədilməsi
7) təkrar törədilməsi
a) 2,3,4,5
b) 1,2,3,4
c) 2,5
d)1,2,4,6

**9. Aşağıda göstərilən əməllərdən hansına görə "Bilə-bilə yalan xəbərçilik etmə" (CM 296)-yə görə məsuliyyət yaranır**
a) təqsirləndirilən şəxs qismində cəlb olunan şəxs tərəfindən istintaq orqanlarına konkret şəxsi götürməklə bilə-bilə yalan ifadə vermə
b) şahidin ifadə verdiyi zaman istintaq orqanlarına bilə-bilə yalan məlumatlar verməsi
c) mətbuat orqanlarına konkret şəxs tərəfindən ağır cinayət törədilməsi barədə bilə-bilə yalan məlumat yayılması
d) təqsirləndirilən şəxs qismində cəlb olunan şəxs tərəfindən istintaq orqanlarına konkret şəxsi göstərmədən bilə-bilə yalan ifadə vermə

# MÖVZU № 32

## Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər

***Vaxt: - 4***
***Mühazirə: -2***
***Seminar: - 2***

### Seminar məşğələsinin sualları:

1. Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin anlayışı, növləri və ümumi xarakteristikası.
2. Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin növləri və bəzi tərkibinin təhlili.

### Mövzunun qısa məzmunu

Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin anlayışı və əlamətləri. Bu cinayətlərin ədalət mühakiməsi əleyhinə olan cinayətlərdən və idarəetmə qaydası əleyhinə olan cinayətlərdən fərqi.

Vəzifə səlahiyyətlərindən sui-istifadə. Anlayışı və tövsifedici əlamətləri. Vəzifəli şəxsin anlayışı və kateqoriyaları. Vəzifə səlahiyyətlərini aşma. Bu cinayətin anlayışı, tövsifedici əlamətləri və vəzifə səlahiyyətlərindən sui-istifadə cinayətindən fərqi.

Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə. Anlayışı və tövsifedici əlamətləri

Satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz kecirmə. Anlayışı və tövsifedici əlamətləri

Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə cinayətinin anlayışı.

Rüşvət alma (passiv rüşvətxorluq). Anlayışı və tövsifedici əlamətləri.

Rüşvət vermə (aktiv rüşvətxorluq). Anlayışı və tövsifedici əlamətləri.

Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri). Anlayışı və tövsifedici əlamətləri.

Vəzifə saxtakarlığı cinayətinin anlayışı.

Səhlənkarlıq cinayətinin anlayışı.

Dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qadağan edilən torpaq sahələrinə dair qanunsuz qərar qəbul etmə cinayətinin anlayışı və əlamətləri.

Qanunla müəyyən olunmuş qaydaları pozmaqla mühafizə zonalarında torpaq sahələri ayırma yaxud tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə. Anlayışı və tövsifedici əlamətləri.

Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin qarşısının alınmaması. Anlayışı və tövsifedici əlamətləri.

## Yoxlama sualları:

1. Korrupsiya nəyə deyilir?
2. Korrupsiya cinayətlərinin subyekti kimlər ola bilər?
3. Vəzifəli şəxsin anlayışını verin və əlamətlərini göstərin.
4. Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə cinayətinin anlayışını verin.
5. Vəzifə saxtakarlığı cinayətinin anlayışı, onun talamadan fərqi.
6. Rüşvət alma və rüşvət vermənin formalarını göstərin.
7. Rüşvət almanın predmeti nə ola bilər?
8. Səhlənkarlıq cinayətinin anlayışını verin.
9. Vəzifə saxtakarlığı cinayətinin subyekti kimlər ola bilər

## Mövzuya aid ədəbiyyat:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
4. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019
5. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
6. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
7. Əhmədov M., Əliyev Ə.Teymurov N. Korrupsiya cinayətləri. Dərs vəsaiti. Bakı , 2011
8. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
9. Уголовное право Российской Федерации. Особенная часть. (под. ред. Здравомыслова Б.В.) М., 2002.
10. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
11. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

**Referat mövzuları:**

1. Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.
2. Vəzifə səlahiyyətlərini aşma cinayətlərinin formaları və onların xüsusiyyətləri.
3. Korrupsiyanın anlayışı, əlamətləri və növləri
4. Vəzifəli şəxsin anlayışı və növləri
5. Vəzifə səlahiyyətlərindən sui-istifadə cinayət tərkibinin obyektiv cəhətinin xüsusiyyətləri

6. Vəzifə səlahiyyətlərini aşma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
7. Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
8. Vəzifə saxtakarlığı cinayətinin predmetinin və bu cinayətin obyektiv cəhətinin xüsusiyyətləri

## Terminoloji tapşırıq

**Korrupsiya -** ictimai, siyasi xadimlərin, dövlət məmurlarının vəzifələrindən sui-istifadə edərək cinayət əməllərinə qurşanması, satqınlığı , rüşvətxorluğu
**Mafiya** – ital. Maf(f)ia- cürət, cəsarət- hakimiyyət dairələrin nümayəndələri ilə əlaqəsi olan və qanunsuz fəaliyyətdən gəlirlər əldə edən mütəşəkkil cinayətkar qrup
**Vəzifəli şəxs** – hüquqi əhəmiyyətli hərəkətlər edən, mühüm qərarlar qəbul etmək səlahiyyətinə malik olan və yüksək vəzifə tutan dövlət orqanının işçisi

## Məsələlər:

1.Vaqif Qafarov vəzifəli şəxs kimi qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlamaqla tutmuş, eləcə də təkrarən həmin torpaq sahəsi üzərində özbaşına tikinti və quraşdırma işlərini aparmışdır.

**Əmələ hüquqi qiymət verin.**

2. İsayev Faiq İsrafil oğlu 2005-ci ildən hazıradək Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşə Mühafizə və Bərpası Müəssisəsinin baş mühasibi işləyərkən, “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun, həmin Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 mart 2000-ci il tarixli 32 nömrəli Qərarı ilə təsdiq edilmiş müəssisə və

təşkilatların fəaliyyəti nəticəsində yaranan sənədlərin saxlanma müddətlərinə qəsdən əməl etməyərək, sənədlərin saxlanma müddətlərini müəyyən etmədən, yəni həmin qanunvericiliyin müddəalarına əsasən mühasibat və maliyyə hesabatlarının təqdim edilməsi müddətləri barədə yazışmalar 3 il, mühasibat qeydiyyatı üçün əsas olan, təsərrüfat əməliyyatının aparılmasını qeydə alan ilkin sənədlər və onlara aid əlavə sənədlər 5 il olduğu halda, 2017-ci ilin iyul ayının əvvəllərində Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin 2013-2017-ci ilin iyul ayınadək olan mühasibat uçotu üzrə və digər rəsmi sənədləri müvafiq yoxlama aparılması üçün tələb olunarkən, sair şəxsi niyyətlə istintaqa məlum olmayan şəraitdə, müvafiq komissiya yaradılması ilə əlaqədar müəssisə direktorunun əmri olmadan, naməlum şəraitdə və üsulla qəsdən məhv etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

3. Şəhər bələdiyyəsinin bələdiyyə vergiləri və yerli gəlirlər şöbəsinin müdiri Poladov Elgün Azad oğlu ayrı-ayrı vaxtlarda həmin bələdiyyənin sədri və sədr müavini vəzifələrində işləmiş Musayev Rəşid Aslan oğlu və Qarayeva Afət Vahid qızı ilə birlikdə ümumilikdə 70 nəfər şəxsdən müxtəlif məbləğlərdə pul alınması müqabilində onların ölkə ərazisində pandemiya ilə əlaqədar tətbiq edilmiş karantin dövründə qanunsuz olaraq sərbəst hərəkət etmələri üçün saxta arayışlar vermişdirlər.

**Əmələ hüquqi qiymət verin.**

4. Xəstəxananın baş həkimi vəzifəsində işləyən Qəmbərova işlədiyi dövrdə ayrı-ayrı vaxtlarda ümumilikdə 10 şəxsdən müxtəlif məbləğlərdə olmaqla cəmi 20 min manat məbləğində pul vəsaitini alaraq həmin şəxsləri xəstəxanada müxtəlif vəzifələrə işə götürmüşdür. Həmçinin, Qəmbərova baş həkim işlədiyi müddət ərzində xəstəxanada müxtəlif vəzifələrdə işləmiş 34 nəfər işçidən hədə-qorxu tətbiq etməklə məcburi qaydada onlara müvafiq bayramlarla əlaqədar mükafat

qismində təyin edilib ödənilən cəmi 5 min 628 manat məbləğində bayram pullarını xidməti vəzifəsinin icrası ilə əlaqədar edəcəyi hərəkətə görə qanunsuz olaraq tələb edib almışdır. Bununla yanaşı, o, baş həkim işlədiyi müddət ərzində xəstəxana əməkdaşlarından 2 nəfər işçinin 4 aylıq, cəmi 1204 manat pulunu da onların bülletenə çıxmasına şərait yaradılmasına görə qanunsuz olaraq almışdır.

**Əmələ hüquqi qiymət verin.**

5. Sabir Vəliyev tamah niyyəti ilə "Zəhmət" bələdiyyəsinə məxsus 0.3 hektar torpaq sahəsinin satılması barədə qərara və kassa mədaxil orderinin qəbzinə vətəndaşın məlumatlarını, habelə 06.10.2006-cı il tarixdə guya alqı-satqı aparılmasına dair qeydlər yazmaqla rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil edərək özünün imzası və bələdiyyənin möhürü ilə təsdiq etmişdir. Faktla bağlı rayon prokurorluğunda cinayət işi qaldırılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

6. Rabitə xətləri keçən, taxta materialdan olan, torpağa basdırılmış rabitə dirəyinin üzərinə çıxmış və həmin dirəyin üzərinə bərkidilmiş işçi meydançasında dayanaraq işləyən Əsgərov İmran Həsən oğlu dirəyin torpağa basdırıldığı hissəsinin çürüməsi və həmin hissədən qırılaraq aşması səbəbindən dirəklə birlikdə yerə yıxılmış, nəticədə ağır dərəcəli bədən xəsarəti almışdır.

**Əmələ hüquqi qiymət verin**.

## Test tapşırıqları

**1. Özünə villa tikdirən müəssisənin rəhbəri haqqını ödəməməklə və həmin müəssisəyə məxsus olan buldozer və qaldırıcı krandan üç gün istifadə etmişdir. Əməl necə tövsif edilməlidir:**

a) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308)
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
c) cinayət tərkibi yaratmır
d) “Mənimsəmə və ya israf etmə” (CM mad.179)

**2. İnternat məktəbinin direktoru üç şagirdi tədrisdən ayıraraq bağ evinə aparmış və bir həftə işlətdikdən sonra məktəbə qaytarmışdır. Əməl necə tövsif edilməlidir**
a) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308) ilə
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309) ilə
c) “Vəzifə səlahiyyətlərindən sui-istifadə” (CM mad.308) və “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309) ilə
d) “Səhlənkarlıq” (CM mad.314)

**3. İdarə rəhbəri büdcədən kommunal xərclərin ödənilməsi məqsədi ilə ayrılmış iyirmi min manat pula müəssisə üçün kompyuter və kabinet mebelləri almışdır. Əməl necə tövsif aiddir:**
a) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308)
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
c) “İsraf etmə” (CM mad.179)
d) əməldə cinayət tərkibi yoxdur

**4. Vergi inspektoru ciddi əsaslar olmadan qanunla müəyyən edilmiş yoxlama müddətini pozaraq beş müəssisədə vaxtından əvvəl yoxlamalar aparmışdır. Əməl necə tövsif edilməlidir?**
a) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308)
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)

c) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308) və “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
d) əməldə cinayət tərkibi yoxdur

**5. Prokuror bir neçə cinayət işinə dair materialları alaraq uzun müddət bilə-bilə baxılmamış saxlamışdır. Əməl necə tövsif edilməlidir?**
a) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308) ilə
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
c) “Səhlənkarlıq” (CM mad.314)
d) əməldə cinayət tərkibi yoxdur

**6. Polis rəisi az ağır cinayətlər barədə üç şikayət ərizəsini bilə-bilə qeydiyyata aldırmamış və heç bir tədbir görməmişdir. Əməlin tövsifinə aiddir:**
a) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308)
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
c) “Vəzifə saxtakarlığı” (CM mad.313)
d) “Səhlənkarlıq” (CM mad.314)

**7. Vergi inspektoru əmrlə ona deyil, başqa iş yoldaşına tapşırılmış iki müəssisədə yoxlamalar aparmışdır. Əməl necə tövsif edilməlidir?**
a) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309) ilə
b) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308) ilə
c) əməldə cinayət tərkibi yoxdur
d) “Vəzifə səlahiyyətlərindən sui-istifadə” və “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309) ilə

**8. Vergi inspektoru bilə-bilə işlədiyi idarənin aidiyyatından kənarda yerləşən müəssisədə vergi yoxlamaları aparmışdır. Əməl tövsifinə daxildir:**
a) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
b) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308)
c) əməldə cinayət tərkibi yoxdur
d) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308) və “Vəzifə səlahiyyətlərini aşma” və (CM mad.309)

**9. Konsert zalına biletsiz daxil olmaq istəyən şəxsin baş nahiyəsinə rezin dəyənəklə bir zərbə endirən polis çavuşunun əməli tövsif edilməlidir;**
a) “xüsusi vasitələrdən istifadə etməklə vəzifə səlahiyyətlərini aşma” (CM mad.309) kimi
b) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309.1)kimi
c) “Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə” (CM mad.308) ilə
d) əməldə cinayət tərkibi yoxdur

**10. Cərimə adı ilə vətəndaşları aldadaraq, onlardan pul alan və həmin pulları mənimsəyən vəzifəli şəxsin əməlin tövsifinə aiddir:**
a) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilən dələduzluq (CM 178.2.3)
b) təkrar törədilən rüşvət alma (CM 311.2.3)
c) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilən dələduzluq (CM 178.2.3) və “Rüşvət alma” (CM 311.1)
d) şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilən dələduzluq (CM 178.2.3) və “Vəzifə səlahiyyətlərindən sui-istifadə” (CM 308)

**11. Aşağıdakı məbləğlərdən hansı məbləğ küllü miqdarda rüşvət alma hesab olunur**
a) 5000 manatdan yuxarı
b) 7000 manatdan yuxarı
c) 1.000 manatdan yuxarı
d) 8000 manatdan yuxarı

**12. İnternat məktəbin direktoru faktiki işləməyən beş nəfəri saxta əmrlə müvəqqəti "işə götürmüş" və onlara yazılmış əmək haqqının (5300 man) hamısına məktəb üçün zəruri olan kompyuter və idman ləvazimatları almışdır. Əməl necə tövsif edilməlidir:**
a) əməldə cinayət tərkibi yoxdur
b) "Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə" (CM mad.308) və "Vəzifə saxtakarlığı" (CM mad.313) ilə
c) "Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə" (CM mad. 308) ilə
d) "Vəzifə saxtakarlığı" (CM mad.313) ilə

**13. Cinayət tərkiblərindən hansı fomal tərkiblidir:**
a) "Rüşvət alma (passiv rüşvətxorluq)"
b) "Vəzifə səlahiyyətlərindən sui-istifadə etmə"
c) "Vəzifə səlahiyyətlərini aşma"
d) "Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə"

**14. Hansı cinayət qrupları maddi tərkiblidir?**
a) "Vəzifə səlahiyyətlərindən sui-istifadə" (CM mad.308), "Vəzifə səlahiyyətlərini aşma" (CM mad.309), "Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə" (CM mad.310), "Səhlənkarlıq (CM mad. 314)
b) "Vəzifə səlahiyyətlərindən sui-istifadə" (CM mad.308), "Vəzifə səlahiyyətlərini aşma" (CM mad.309) və "Rüşvət alma" (CM mad.311), "Rüşvət vermə (CM mad.312) və

“Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə) (nüfuz alveri) (CM mad.312-1)
c) “Vəzifəli şəxsi səlahiyyətlərini mənimsəmə” (CM mad.310), “Vəzifə saxtakarlığı” (CM mad.313), “Səhlənkarlıq” (CM mad.3134), “Dövlətin müstəsna mülkiyyətində olan torpaq səlahiyyətlərindən sui-istifadə (CM mad.308) (CM 314-1)
d) “Vəzifə səlahiyyətlərindən sui-istifadə (CM 308), “Vəzifə səlahiyyətlərini aşma” (CM 309), “Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə” (CM 310), “Vəzifə saxtakarlığı” (CM 313), “Səhlənkarlıq (CM mad.3134)

**15. Hansı cinayətin subyekti ümumidir?**
1) “Rüşvət alma” (passiv rüşvətxorluq) (CM mad.311)
2) “Rüşvət vermə” (aktiv rüşvətxorluq) (CM mad.312)
3) “Vəzifə saxtakarlığı” (CM mad.313)
4) “Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə” (CM mad.310)
5) “Vəzifə səlahiyyətlərini aşma” (CM mad.309)
6) “Səhlənkarlıq” (CM mad.314)
7) Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə) (nüfuz alveri) (CM mad.312-1)
a) 2,4,7
b) 1,2,4
c) 4,7
d) 2,3,4

# MÖVZU № 33

## İdarəetmə qaydası əleyhinə olan cinayətlər

*Vaxt: - 4*
*Mühazirə: - 2*
*Seminar: - 2*

**Seminar məşğələsinin suallarıı:**

1. İdarəetmə qaydası əleyhinə olan cinayətlərin anlayışı, növləri və ədalət mühakiməsi əleyhinə olan cinayətlərdən fərqi.
2. Dövlət idarəetmə orqanlarının qanuni fəaliyyətlərinə qəsd edən cinayətlərin anlayışı, növləri, tərkiblərinin təhlili və tövsifedici əlamətləri.
3. Rəsmi sənədlərlə davranma qaydalarına qəsd edən cinayətlərin anlayışı, növləri, tərkiblərinin təhlili və tövsifedici əlamətləri.

**Mövzunun qısa məzmunu**

İdarəetmə qaydası əleyhinə olan cinayətlərin ümumi xarakteristikası və növləri. Bu cinayətlərin ədalət mühakiməsi əleyhinə olan cinayətlərdən və korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərdən fərqi.

Dövlətin nüfuzuna qəsd edən cinayətlər. Azərbaycan dövlətinin başçısının – Azərbaycan Respublikası Prezidentinin şərəf və ya ləyaqətini ləkələmə, alçaltma. Anlayışı və tövsifedici əlamətləri.

Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər cinayətinin anlayışı.

Dövlət idarəetmə orqanlarının qanuni fəaliyyətinə qəsd edən cinayətlər.

Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə. Anlayışı və tövsifedici əlamətləri.

Cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma. Anlayışı və tövsifedici əlamətləri.

İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatlar yayma. Anlayışı və tövsifedici əlamətləri.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatları yayma. Anlayışı və tövsifedici əlamətləri.

Cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma. Anlayışı və tövsifedici əlamətləri.

Qanunsuz miqrasiyanın təşkili. Anlayışı və tövsifedici əlamətləri

Xarici dövlətlərin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi cinayətinin anlayışı

Rəsmi sənədlərin aparılması qaydalarına qəsd edən cinayətlər.

Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə cinayətinin anlayışı və növləri.

Dövlət təltiflərini və rəsmi sənədləri əldə etmə və ya satma cinayətinin anlayışı.

Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə. Bu cinayətin anlayışı və növləri.

Xüsusi qaydalarla müəyyən olunmuş idarəetmə qaydalarına qəsd edən cinayətlər.

Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə. Anlayışı və tövsifedici əlamətləri.

Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmə. Anlayışı və tövsifedici əlamətləri.

## Yoxlama sualları:

1. İdarəetmə qaydası əleyhinə olan cinayətlərin anlayışını verin.
2. Bu cinayətlərin obyekti nədir?
3. Dövlətin nüfuzuna qəsd edən cinayətlərin anlayışını verin.
4. Qanunsuz miqrasiya nə deməkdir?
5. Hakimiyyət nümayəndəsi kimdir?
6. Xüsusi qaydalarla müəyyən olunmuş idarəetmə qaydası əleyhinə olan cinayətlərin anlayışını verin.
7. Rəsmi sənədlər, dövlət təltifləri, möhürlər, ştamplar, blanklar nədir?
8. Hərbi xidmət keçməkdən boyun qaçırma cinayətinin subyekti kimlər ola bilər?
9. Hərbi xidmət keçməkdən boyun qaçırma cinayəti hansı andan başa çatmış hesab olunur?

## Mövzuya aid ədəbiyyat:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
4. İmanlı M.K. Cinayət hüququ. Xüsusi hissə. Dərslik. Bakı, 2019.
5. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
6. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
7. Комментарий к Уголовному кодексу Российской Федерации (под. Ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
8. Уголовное право Российской Федерации. Особенная часть. (под. ред. Здравомыслова Б.В.) М., 2002.

9. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
10. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

## Referat mövzuları:

1. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə cinayətindən zərərçəkmişlərin dairəsi və onların hüquqi əlamətləri.
2. İnsan alverindən zərər çəkmiş şəxs haqqında konfendisial məlumatları yayma cinayətinin anlayışı və ümumi xarakteristikası.
3. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi cinayətinin anlayışı və ümumi xarakteristikası.
4. Hərbi xidmət keçməkdən boyun qaçırma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.
5. Dövlət təltiflərini və ya rəsmi sənədi əldə etmə və ya satma cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri.

## Terminoloji tapşırıq

**Atribut** – lat. Attribuo nəyinsə mühüm əlaməti, xüsusiyyəti; predmetin yalmız ona məxsus əlaməti

**Blank**-əl ilə və ya maşın üsuluyla doldurulmaqüçün boş yerləri olan vərəqə

**Delimitasiya** – dövlət sərhədlərinin müəyyənləşdirilməsi

**Emblem** – hansısa simvolun nişanı, əlaməti, təmzi

**Pasport-** fr. Passeport–limandan keçmək üçün icazə!) vətəndaşların şəxsiyyətini təqdiqləmək məqsədilə dövlət tərəfindən verilən sənəd; 2) binaların, müəssisələrin, avadanlıqların, avtomobilin və s. təsdiq etdirən qeydiyyat sənədi.

**Rekvizitlər** – lat. Requsitum- tələb olunan zəruri- sənədin etibarlı hesab edilməsi üçün orada müyləq göstərilməli olan məlumatlar

**Vəsiqə** - təqdim edənin şəxsiyyətini (məs.pasport), hüquqi statusunu (məs, dövlət orqanı işcisinin), yaxud müvafiq faktları və ya hüquqları təsdiq edən sənəd

**Məsələlər:**

1. Xəlilov əvvəllər qəsdən ağır cinayət törətdiyinə görə məhkum olunaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin N saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkməsinə baxmayaraq yenidən qəsdən cinayət törədərək şəxsi marağı naminə, istintaqa məlum olmayan mənbədən əldə etdiyi bir ədəd alət-bizi özündə saxlamış, gəzdirmiş, daşımış, 13.09.2018- 2 ci il tarixdə saat 10:30 radələrində nəzarətçi Mərdanlının sağlamlığına az ağır xəsarət yetirməklə müəssədən qaçmağa cəhd etmişdir. Lakin o müəssənin digər əməkdaşları tərəfindən zərərsizləşdirilməklə saxlanılmışdır.

**Əmələ hüquqi qiymət verin.**

2. 28 yanvar 2021-ci il tarixdə saat 22 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Qapçıməhəllə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində 2 nəfərin dovlət sərhədini gizli şəkildə keçməsi əlamətləri aşkarlanıb. Əməliyyat-axtarış tədbirləri nəticəsində dövlət sərhədini gizli keçməkdə şübhəli bilinən Astara rayonu sakini, 1992-ci il təvəllüdlü Səlimov Məhəmməd Xeyrulla oğlu saxlanılmışdır və onun yaşadığı mənzilə baxış keçirilərkən 0,5 kq narkotik vasitə "heroin" və 115 ədəd "Metadon-40" həbləri aşkar olunaraq götürülmüşdür. Dindirmə zamanı Səlimov dövlət sərhədini qardaşı 1984-cü il təvəllüdlü Xəyyamla birlikdə keçdiyini etiraf etmişdir. Daxili İşlər Nazirliyinin

Astara rayon şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində Xəyyam Səlimov yaşadığı evdə saxlanılıb və araşdırma zamanı onun əvvəllər dəfələrlə oğurluq cinayəti törətdiyinə görə məhkum olunması müəyyənləşdirilib.

**Əmələ hüquqi qiymət verin.**

3. Zamanov Adil Qəmbər oğlu Gəncə şəhəri Kəpəz rayon məhkəməsinin 18.01.2020-ci il il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-nin 177.2.1, 177.2.2 və 177.2.3-cü maddələri ilə təqsirli bilinərək 1.800 manat cərimə cəzasına məhkum edilməsinə baxmayaraq, məhkumluğu ödənilmədən və götürülmədən, qəsdən qeyri-rəsmi ər-arvad münasibətində olduğu Nazlı İsayeva ilə 06 sentyabr 2020-ci il tarixdə saat 24 radələrində Əliyeva Dürdanə Bahadur qızına məxsus Bakı şəhəri Yasamal rayonunda yerləşən mənzilə daxil olmaqla, orada yataq otağında olan dolabın içərisində qoyulmuş Əliyevaya məxsus 600 manat dəyərində dəmir seyfi götürüb Lənkəran şəhərinə gəlmişdirlər. Onlar Lənkəran rayonu ərazisində olan meşə sahəsinə gedib seyfi qırmaqla seyfdən çıxan 48.000 (qırx səkkiz min) manatı öz aralarında bölüşdürmüşdürlər. Adil Zamanov həmin gün saat 18 radələrində şəxsiyyəti müəyyən edilməmiş İran İslam Respublikası vətəndaşı ilə əvvəlcədən razılaşdıqları kimi onun idarə etdiyi markası və dövlət qeydiyyat nişanı məlum olmayan motosikletin arxasında oturaraq Lənkəran şəhərindən çıxıb Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda İran İslam Respublikasına keçmişdir. O, 09 sentyabr 2020-ci il tarixdə isə İran İslam Respublikasının mühafizə olunan dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda Türkiyə Respublikasının İqdır şəhərinə keçmişdir. 19 sentyabr 2020-ci il tarixdə Türkiyə Respublikasının Ərzurum şəhərində Türkiyə Respublikasının hüquqmühafizə orqanları tərəfindən

saxlanılaraq Bakı şəhərinə gətirdilib Yasamal rayon Polis İdarəsinə təhvil verilmişdir.

**Əmələ hüquqi qiymət verin.**

4. Türkan qəsəbəsi sakini, fərdi şəkildə torpaq alqı-satqısı ilə məşğul olan Akif Hüseynov 2020-ci ilin iyul-avqust ayları ərzində Bakı şəhəri Xəzər rayon İcra Hakimiyyəti Başçısının Türkan qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin arayışını, Nəsibə Zamanova və Xumar Qədirovanın sağ olduqları halda onların ölməsi barədə ölüm haqqında şəhadətnamələrini saxtalaşdıraraq həmin saxta sənədlərdən istifadə edib onlara vərəsəlik üzrə məxsus olan Türkan qəsəbəsində yerləşən torpaq sahələrini 20.11.2020-ci il tarixdə digər şəxsə ümumilikdə 54 min manata satmışdır.

**Əmələ hüquqi qiymət verin.**

5. Sabir Daşdəmirov 22.02.202021-ci il tarixdə saat 16 radələrində işlədiyi müəssisənin inzibati binasının 1-ci mərtəbəsində yerləşən 12 saylı iş otağından iki min manat dəyərində olan “Dell” brend markalı kompyuteri gizli şəkildə götürərək həmin binanın 5-ci mərtəbəsində 511 saylı xidməti iş otağına gətirmişdir.

**Əmələ güquqi qiymət verin.**

## Test tapşırıqları

**1. Maddi tərkibli cinayətlərə aiddir:**

a) Özbaşnalıq

b) Azərbaycan Respublikasının dövlət sərhəddini qanunsuz olaraq keçmə

c) Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə

d) Cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma

**2. Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə cinayətində (CM 315) zərərçəkən şəxs qismində çıxış edə bilər;**
1) yol-patrul xidmətinin inspektoru
2) cinayət-axtarışını inspektoru
3) hakim
4) sahə inspektoru (polis)
5) cinayət axtarış inspektorunun yaxın qohumları
6) müstəntiq
7) prokuror
8) məktəb direktoru
9) vergi inspektoru
a) 1,2,4,5,9
b) 1,2,3,4,6,7,8
c) 1,3,6,7
d) 1,2,4,9

**3. Ata öz əmlakını oğluna deyil, qanunla müəyyən edilmiş qaydada digər şəxsə vəsiyyət edir. Bu vəsiyyətnamənin qanuniliyinə şübhəsi olan oğul atası öldükdən bir müddət sonra, həmin əmlaklardan bir neçəsini sonra gizli götürmüşdür. Əməlin tövsifinə aiddir**
a) Özbaşnalıq" (CM mad.322)
b) ağırlaşdırıca halları olmayan oğurluq (CM mad.177.1)
c) mənzilə qanunzus olaraq daxil olmaqla törədilən oğurluq (CM mad.177.2)
d) sadə mənimsəmə (CM mad.179.1)

**4. Çağırıcı hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə öz sağlamlığına ağır zərər yetirərsə, əməl necə tövsif edilməlidir?**
a) "Hərbi xidmətdən boyun qaçırma" (CM mad.321) ilə
b) əməldə cinayət tərkibi yoxdur
c) "Hərbi xidmətdən boyun qaçırma" (CM mad. 321), və "Qəsdən sağlamlığa ağır zərər vurma" (CM mad.126) ilə

d) “Qəsdən sağlamlığa ağır zərər vurma” (CM mad.126) ilə

**5. Cinayətlərdən biri “İdarəetmə qaydası əleyhinə olan cinayətlər” fəslində nəzərdə tutulmamışdır**
a) Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə
b) Özbaşnalıq
c) Hərbi xidmətdən boyun qaçırma
d) Səhlənkarlıq

**6. İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma (CM 316-1) cinayət tərkibi qnunvericilik quruluşuna görə;**
a) maddi tərkiblidir
b ) formal tərkiblidir
c) formal-maddi tərkiblidir
d) kəsik tərkiblidir

**7. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq dəyişmə cinayətinin predmeti**
a) sərhəd nişanlarıdır
b) Azərbaycan Respublikası dövlər sərhəd xəttidir
c) dövlət əmlakıdır
d) bu cinayətin predmeti yoxdur

**8. Cinayət prosesində iştirak edən şəxs barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma cinayətində zərərçəkmiş şəxs kimi çıxış edir;**
a) cinayət haqqında məlumat vermiş və ya cinayətin aşkar edilməsi, qarşısının alınması, yaxud açılmasında iştirak etmiş şəxs
b) törədilmiş cinayətdən zərərçəkmiş şəxs onun nümayəndəsi, şübhəli şəxs, təqsirləndirilən, onların müdafiəçiləri və nümayəndələri

c) şahid, ekspert, mütəxəssis , tərcüməçi, hal şahidi və ya onların qohumları
d) göstərilən bu şəxslərdən hər birisi bu cinayətdə zərərçəkmiş şəxsdir.

# MÖVZU № 34

## Hərbi xidmət əleyhinə olan cinayətlər

***Vaxt: - 2***
***Mühazirə: - 2***

**Seminar məşğələsinin sualları:**

1. Hərbi xidmət əleyhinə olan cinayətlərin anlayışı və təsnifatı
2. Hərbi xidmət əleyhinə olan cinayətlərin növləri və bəzi tərkiblərinin təhlili

**Mövzunun qısa məzmunu**

Hərbi xidmət əleyhinə olan cinayətlərin anlayışı. Hərbi cinayətlərin obyekti və subyekti.

Hərbi xidmət əleyhinə olan cinayətlər və hərbi intizam xətaları.

Hərbi xidmət əleyhinə olan cinayətlərin növləri.

Tabeçilik qaydaları və hərbi şərəf əleyhinə olan cinayətlər.

Əmri icra etməmə. Anlayışı və tövsifedici əlamətləri.

Rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə. Anlayışı və tövsifedici əlamətləri.

Rəisə qarşı zorakı hərəkətlər etmə. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə. Anlayışı və tövsifedici əlamətləri.

Tabeçilik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi xidmət keçmə qaydaları əleyhinə olan cinayətlər. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə. Bu cinayətin növləri.

Fərarilik. Anlayışı və tövsifedici əlamətləri.

Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi əmlakı saxlama, istifadə etmə və hərbi əmlakın istismarı qaydaları əleyhinə olan cinayətlər.

Hərbi əmlakı itirmə. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə. Bu cinayətin növləri.

Silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma. Bu cinayətin növləri.

Maşınları idarəetmə və istismar qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri. Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi gəmiləri idarəetmə qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Qarovul xidməti, daxili xidmət və digər xidmət qaydaları əleyhinə olan cinayətlər.

Qarovul xidmətinin nizamnamə qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Sərhəd xidməti qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri. Bu cinayətin növləri.

Döyüş növbəsi çəkmə qaydalarını pozma. Anlayışı və tövsifedici əlamətləri.

Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma cinayətinin anlayışı.

Hərbi vəzifə cinayətləri. Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə. Anlayışı və tövsifedici əlamətləri.

Qulluğa səhlənkar yanaşma. Anlayışı və tövsifedici əlamətləri.

Döyüş meydanında və hərbi əməliyyat rayonunda hərbi qulluq keçmə qaydaları əleyhinə olan cinayətlər.

Müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə cinayətinin anlayışı.

Batmaqda olan hərbi gəmini tərk etmə. Anlayışı və tövsifedici əlamətləri.

Döyüş meydanını özbaşına tərk etmə və ya silah işlətməkdən boyun qaçırma. Anlayışı və tövsifedici əlamətləri.

Əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri. Anlayışı və tövsifedici əlamətləri.

Hərbi xidmət keçməkdən boyun qaçırma. Anlayışı və tövsifedici əlamətləri.

Özbaşınalıq. Anlayışı və tövsifedici əlamətləri.

## Yoxlama sualları:

1. Hərbi cinayətlərin anlayışını verin.
2. Hərbi cinayətin obyekti nədir?
3. Hərbi cinayətlərin subyekti kimlər ola bilər?
4. Hərbi vəzifə cinayətlərinin anlayışını verin.
5. “Döyüş meydanı” və ya “Hərbi əməliyyat rayonu” dedikdə nə başa düşülür?
6. “ Müharibə vaxtı”na anlayış verin.
7. “Döyüş şəraitinə” anlayış verin.

## İstifadə olunan ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). Bakı, 2019.
4. İmanlı M.K Cinayət hüququ Xüsusi hissə Dərslik. Bakı, 2009
5. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Bakı, 2010.
6. Əfəndiyev E.Cinayət hüququna dair kazuslar. Dərs vəsaiti. Bakı, 2016.
7. Quliyev A.İ. Hərbi xidmət əleyhinə olan cinayətlərin şərhi. Bakı, 2001
8. Məmmədov M.N. Fərariliyə görə cinayət məsuliyyəti və cəza təyini məsələləri. Bakı, 2013.
9. Əliyev A.S. Hərbi xidmət əleyhinə olan cinayətlər. Bakı 2006
10. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2013.
11. Уголовное право Российской Федерации. Особенная часть. (под. ред. Здравомыслова Б.В.) М., 2002.
12. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
13. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

## Referat mövzuları:

1. Əmri icra etməmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri
2. Rəisə qarşı zorakı hərəkətlər etmə cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

3. Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətinin xüsusiyyətləri
4. Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətinin xüsusiyyətləri
5. Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma cinayətinin xüsusiyyətləri

## Terminoloji tapşırıq

**Fərari** - əsgərlikdən qaçan adam
**Fərarilik-** cinayət hüququnda hərbi qulluqçunun hərbi xidmətdən boyunqaçırmaq məqsədi ilə hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi)

## Məsələlər:

1. Sıravi Qənbərli sırada olarkən əsgər yoldaşı ilə mübahisə edərək, onun sifətinə 2 yumruq vuraraq onun sağlamlığına zərə vurmayan xəsarət yetirmişdir. Araşdırma zamanı isə müəyyən olunmuşdur ki, Qənbərli bu əməli faktiki olaraq ordudan tərxis oluhması haqqında əmr imzalandıqdan sonra törətmişdir.

**Qəmbərlinin əməlinə hüquqi qiymət verin.**

2. Artıq orduda 1 il 3 aydır xidmət edən Rüstəmli səhərlər iki kilojmetrlik məsafəyə qaçış zamanı, dəstədən geri qalan gənc əsgərlərə, əlindəki remenlə zərbələr vuraraq onlara geri qalmamağı əmr edirdi. Əsgərlər bir müddət keçdikdən sonra qaçmaq vərdişinə yiyələndikləri üçün Rüstəmli onları vurmağı dayandırırdı

**Rüstəmlinin əməlinə hüquqi qiymət verin.**

3. Hüseynli gecə vaxtı kazarmada yatmış və onunla tabelik münasibətində olmayan Poladlının barmaqlarının arasına kağız

qoyaraq zarafatla yandırmışdır. Nəticədə möhkəm yatmış Poladlının sağlamlığına yüngül zərər vurulmuşdur.

**Hüseynlinin əməlinə hüquqi qiymət verin.**

4. "N" saylı hərbi hissənin bolük komandiri Zülfüqar Abdullazadə tez-tez həmin bölükdə xidmət edən əsgər Kərimlini döyürdü. Bu səbəbdən Kərimlinin valideyinləri aidiyyəti hüquq mühafizə orqanına məlumat vermişdir. Məlum olmuşdur ki, Zülfüqar Abdullazadə ilə əsgər Kərimlinin atası Şahin Kərimli arasında əvvəllər şəxsi münasibətlər zəminində yaranmış narazılıq səbəbindən Abdullazadə onun oğlunu doyürmüş.

**Əmələ hüquqi qiymət verin.**

5. Qələndərov xidmət etdiyi hərbi hissə komandirinin əmri ilə 01 fevral 2020-ci il tarixdə 10 (on) günlük məzuniyyətə buraxılmış, lakin üzrlü səbəblər olmadan gecikərək 16 mart 2020-ci il tarixdə məzuniyyətdən xidmət yerinə qayıtmışdır. Bundan başqa o, qeyd olunan hərbi hissədə eyni vəzifədə, əsgər hərbi rütbəsində xidmətdə olarkən 17 mart 2020-ci il tarixdə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında stasionar müalicə və müayinəyə qəbul edilmiş, 02 aprel 2020-ci il tarixdə müalicəsi başa çatdığı üçün xidmət yerinə aparılan zaman həmin gün saat 21 radələrində Bakı Dəmiryol Vağzalından qaçmış, üzrlü səbəblər olmadan iki ay müddətdə xidmət yeri olan hərbi hissəyə qayıtmayaraq 09 iyun 2020-ci il tarixdə saat 22:30 radələrində Bakı Qarnizonu Hərbi polisin əməkdaşları tərəfindən saxlanılmışdır.. Bundan başqa, o, qeyd olunan hərbi hissədə eyni vəzifədə, əsgər hərbi rütbəsində xidmətdə olarkən 09 iyun 2020-ci il tarixdə barəsində saat 16:40-da Bakı Hərbi Məhkəməsi tərəfindən həbs qətimkan tədbirinin seçilməməsi haqqında qərar qəbul edildikdən sonra, həmin gün saat 16:45 radələrində Bakı Hərbi Məhkəməsinin inzibati binasını özbaşına tərk etmiş və yalnız Sabunçu Rayon

Polis İdarəsinin əməkdaşları tərəfindən 10 avqust 2020-ci il tarixdə tutularaq Bakı İstintaq təcridxanasına təhvil verilməklə, bir aydan artıq, lakin üç aydan çox olmayan müddətdə xidmət yerini özbaşına tərk etmişdir.

**Əmələ hüquqi qiymət verin.**

6. Əsgər Qənizadə ona həvalə edilmiş döyüş texnikasını döyüş meydanında qoyub, ərazini özbaşına tərk etmişdir. Məlum olmuşdur ki, o bununla düşmənə kömək etmək istəmişdir.

**Əmələ hüquqi qiymət verin.**

7. Hərbi hissə komandiri şəxsi heyyəti təlimatlandırıb üç saat sonra düşmənlə döyüşə başlanılacağını bildirmişdir. Buna görə hərbçilər müəyyən edilmiş vaxtda döyüş meydanında mövqe tutmuşdurlar. Həmin vaxt üç nəfər əsgər aidiyyatı komandirini məlumatlandırmadan həmin ərazini tərk etmişdirlər.

**Əmələ hüquqi qiymət verin.**

8. Əsgər Təbriz Mustafazadə erməni qəsbkarlarına qarşı döyüş zamanı yaxınlığına düşmüş raket mərmisinin zərbəsindən təpədən yıxılmış və nəticədə ona həvalə edilmiş avtomat silahı itirmişdir.

**Əmələ hüquqi qiymət verin**.

## Test tapşırıqları

**1. Fərarilik edən hərbi qulluqçu hərbi qulluq vəzifələrini yerinə yetirən şəxsə müqavimət göstərərək sağlamlığına ağır zərər vurarsa, əməl necə tövsif edilməlidir**

a) “Fərarilik” (CM mad.334) və sağlamlığa ağır zərər vurmaqla qulluq vəzifələrini yerinə yetirən şəxsə müqavimət göstərmə” (CM mad.329.2.3)

b) “Fərarilik” (CM mad.334) və hakimiyyət nümayəndəsinə həyat üçün təhlükəli zor tətbiq etmə (CM mad.315.2)

c) Fərarilik maddəsi (CM mad.334) ilə

d) “ Fərarilik” (CM mad.334) və “ Qəsdən sağlamlığa ağır zərər vurma” (CM mad.126)

**2. Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə (CM mad.33) cinayətinə görə məsuliyyətdən azad etmə hansı halda tətbiq edilə bilməz**

a) intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçular tərəfindən törədildikdə

b) cinayət zabit heyətindən olan hərbi qulluqçular tərəfindən törədildikdə

c) cinayət kontrakt üzrə xidmət edən hərbi qulluqçular tərəfindən törədildikdə

d) istənilən halda tətbiq oluna bilər

**3. Hərbi xidmət keçməkdən boyun qaçırmanın hansı müddəti əməli, “Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə” (CM mad.333.1) kimi tövsif etməyə əsas verir:**

a) üç gündən artıq, lakin on gündən az olan müddət

b) on gündən artıq, lakin bir aydan az olan müddət

c) bir aydan artıq, lakin üç aydan az olan müddət

d) üç aydan artıq olan müddət

**4. N. saylı intizam xarakterli hərbi hissədə cəza çəkən çavuş Məmməd xarici ölkədən qonaq gələn qohumları ilə görüşmək üçün hərbi hissəni ilk dəfə olaraq özbaşına tərk edir. Onun əməlində cinayət tərkibi hansı andan mövcud olacaqdır?**

a) hərbi hissəni özbaşına tərk edib getdiyi andan

b) hərbi hissəni özbaşına tərk edib 3 gün ərzində geri qayıtmadığı andan

c) hərbi hissəni özbaşına tərk edib 10 gün ərzində geri qayıtmadığı andan

d) hərbi hissəni özbaşına tərk edib 24 gün ərzində geri qayıtmadığı andan

**5. Aşağıdakılardan hansı "Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə" (CM mad.333) cinayətinə görə məsuliyyətin differensasiya olmasında iştirak edir;**
a) cinayətin müharibə vaxtı törədilməsi
b) cinayətin bir qrup şəxs tərəfindən törədilməsi
c) cinayətin silah tətbiq etməklə törədilməsi
d) cinayətin mütəşəkkil dəstə tərəfindən törədilməsi

**6. Səfərbərlik üzrə hərbi vəzifəlilər üçün hərbi xidmətin başlanğıcı hansı gün hesab edilir**
a) hərbi komissarlığın sərəncamında göstərilmiş xidmət yerinə yola düşdükləri gün
b) hərbi komissarlıqa gəldikləri gün
c) hərbi hissə komandirinin əmrinə əsasən şəxsi heyətin siyahısına daxil edildikləri gün
d) bütün təminat növləri üzrə təmin edildikləri gün

**7. Çağırışçılar üzrə hərbi xidmətin başlanğıcı hansı gün hesab edilir?**
a) hərbi hissə komandirinin əmrinə əsasən şəxsi heyətin siyahısına daxil edildikləri və bütüb təminat növləri üzrə təminata götürdükləri gün
b) hərbi komissarlığa və çağırış məntəqəsinə gəldiyi gündən
c) hərbi hissəyə yola salındığı gün
d) hərbi hissəyə çatdığı gün

**8. İntizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş və orada cəza çəkən şəxs həmin hərbi hissədən özbaşına getmişsə, əməl necə tövsif edilməlidir?**
a) tərk etmənin müddətindən və məqsədindən asılı olaraq "Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə"(CM mad.333) və ya "Fərarilik" (CM mad.334) maddələri ilə

b) “Azadlıqdan məhrum etmə növündə cəza çəkməkdən boyun qaçırma (CM mad.304) ilə
c) “Məhkəmə hökmünü, qərarını, yaxud digər aktlarını icra etmə” (CM mad.306) ilə

**9. İcazə vermək hüququ olmayan rəisin icazəsi ilə hərbi hissəni altı ay ərzində üç gündən az olmaqla buraxıb getməsi necə tövsif edilməlidir:**
a) əməldə cinayət tərkibi yoxdur
b) “Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə” (CM mad.333.1) ilə
c)”Fərarilik”(CM mad.334) ilə
d)”Hərbi xidmət keçməkdən boyun qaçırma” (CM mad.321) kimi

**10. Qəti imkan tədbiri kimi hərbi hissə komandanlığının nəzarəti altında verilmiş hərbi qulluqçunun hərbi hissəsini özbaşına tərk etməsi necə tövsif edilməlidir?**
a) tərk etmənin müddətindən və məqsədindən asılı olaraq “Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə” (CM mad.333) və ya “Fərarilik” (CM mad.334) ilə
c) Məhkəmə hökmünü, qərarını, yaxud digər aktlarını icra etməmə” (CM mad.337) kimi
d) “Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma” (CM mad.306) ilə

# CİNAYƏT HÜQUQU FƏNNİNDƏ RAST GƏLİNƏN TERMİNLƏR

1. **Affekt** (latınca – affektus) – ruhi təlatüm, həyəcanlanma, coşma.
2. **Amnistiya** (yunanca – amnestia) – bağışlamaq.
3. **Analogiya** (yunanca – analogiya) – oxşarlıq, bənzərlik.
4. **Blank** (fransızca – blanko) – ağ vərəq, ağ kağız.
5. **Dokument** (latınca – documentum) – sübut, şəhadətnamə.
6. **Delinkvent** (latınca – delingnens) – hüquq pozan, cinayətkar.
7. **Dispozisiya** (latınca – dispozito) – mövqe, yerləşdirmək.
8. **Diferensasiya** (fransızca – differentiation, latınca – differentia) – fərq, fərqləndirmək.
9. **Deklarasiya** – latın sözü olub elan etmək, bəyan etmək deməkdir.
10. **Ekzekusmya** – edam etmənin icra olunmasıdır.
11. **Ekzekutor** – edam hökmünü icra edən şəxsdir.
12. **Kazus** (latınca – kasus) – hadisə: a) şəxsin məqsədyönlü səylərinin nəticəsi sayılmadığı üçün mövcud şəraitdə nəzərə alınmayan hadisə; b) mürəkkəb və ya dolaşıq iş; c) təqsir ünsürünə malik olmayan təsadüfi hərəkət (hadisə).
13. **Kontrabanda** – italyan sözüdür, «kontra» - əleyhinə, «banda» - dövlət fərmanı.
14. **Konfiskasiya** (latınca – confiscatio - əmlakın xəzinəyə götürülməsi.
15. **Motiv** (latınca – motivere) – itələmək, dartmaq, hərəkətə gətirmək.
16. **Narkomaniya** (latınca – «narke», «tapusa») – bihuşluq.
17. **Pirat** (yunanca – peirates) – quldur, soyğunçu.
18. **Pornoqrafiya** – «parno» - ədəbsiz, əxlaqsız, «qrafia» yazıram.
19. **Sanksiya** (latınca – sanctia) – qəti qərar.

20. **Terror** (latınca – terror) – qorxutmaq, dəhşətə gətirmək, xof yaratmaq.
21. **Tövsif** (latınca – gualificatio) – dilimizə ərəb dilindən keçmişdir, mənası keyfiyyətini müəyyən etmək, qiymət vermək.
22. **Funksiya** (latınca – functio) – icra etmək, yerinə yetirmək.
23. **Casus** (fransızca – espionae, italyanca – spione) məxfi məlumatları əldə etmək, toplamaq, vermək.

## ƏSAS ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2013.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2013.
3. Qurani – Kərim (ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı. Azərnəşr, 1992.
4. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarları. Bakı, 2008.
5. Türk cəza Kanunu, Ankara, Seckin Yayınevi, 2005.
6. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə, Dərslik. Bakı, 2013.
7. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə, Dərslik. «Hüquq ədəbiyyatı» nəşriyyat. Bakı, 2002.
8. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y. Səməndərovun red.ilə). «Digesta» nəşriyyatı. Bakı, 2013.
9. Quliyev R.İ., İmanov M.H. Cinayət hüququ. Xüsusi hissə, Dərslik, «Digesta» nəşriyyatı. Bakı, 2001.
10. Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi. Xüsusi hissə. «Hüquq ədəbiyyatı» nəşriyyatı. Bakı, 2002.
11. Səməndərov F.Y. Şəxsiyyət əleyhinə edilən cinayətlər (tövsif məsələləri). Bakı, 1997.
12. Ağayev İ.A. Cinayət tərkibi. Dərs vəsaiti. Bakı 2008.
13. Vəliyev S.Ə. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı. 2010.
14. Ağayev İ. Cinayət tərkibi. Dərs vəsaiti. Bakı, 2005.
15. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. “Nurlar” nəşriyyatı, Bakı, 2010.
16. Vəliyev S.Ə. Cinayət hüququ. Ümumi hissə “Elm və təhsil” 2012.
17. Уголовное право. Общая часть. Под. ред. Козаченко И.Я. и Незнамова З.А. М., 2004.

18. Комментарий к Уголовному кодексу (под. ред. Лебедева В.М).М., 2004.
19. Уголовное право. Особенная часть. Учебник. Ветрова Н.И. и Ляпунова Ю.И. М., 2003.
20. Комментарий к Уголовному кодексу Российской Федерации (под. ред. Скуратова Ю.И. и Лебедева В.М). М., 2003.
21. Уголовное право Российской Федерации. Особенная часть. Под. ред. Здравомыслова Б.В. М., 2002.
22. Комментарий к уголовному кодексу Российской Федерации (под. ред. д.ю.н., профессора А.В. Бриллиантова). 2011
23. Судебная практика к уголовному кодексу Российской Федерации (под.ред., Председателя Верховного Суда РФ. В.М.Лебедева). Юриста. 2011.

## ƏLAVƏ ƏDƏBİYYAT:

24. İldırımzadə İ. Azərbaycan Respublikası cinayət hüququnun funksiyaları. «Azərbaycan» nəşriyyatı. Bakı, 1995.
25. Аликперов Х.Д., Расулов Р.И. Понятие и причины латентной преступности, Баку, 1996.
26. Ахмедов М.Б. Критерии истины в процессе познания уголовного закона. Баку, 1994.
27. Астемировv З.А. Проблемы теории уголовной ответственности и наказания. Махачкала, 1994.
28. Тарбогаев А.Н. Ответственность в уголовном праве. Красноярск, 1994.
29. Eyvazov Ə.X.Cinayət-hüquqi sanksiyaların effektivliyinin nəzəri problemləri. Bakı, 1997.
30. Баинзов А.И., Воложенкин Б.В. Уголовной закон, действие во времени и пространстве. Санкт-Петербург, 1993.
31. Тилле А.А., Блут М.И. Обратная сила закона. Действие уголовного закона во времени. М., 1969.

32. Qarayev T., Şəmsizadə R. Cinayətin tövsifinin nəzəri əsasları. Bakı, 1984.
33. Бурчак Ф.Г. Квалификация преступлений. Киев, 1985.
34. Кудрявцев Б.А. Общая теория квалификации преступлений. М., 1972.
35. Коржанский Н.И. Обьект и предмет уголовно-правовой охраны. М., 1980.
36. Таций В.Я. Обьект и предмет преступления в советском уголовном праве. Харьков, 1988.
37. Тимейко Г.В. Общее учение об обьективной стороне преступления. Ростов-на-Дону, 1977.
38. Коволев М.И. Проблемы учения об обьективной стороне состава преступления. Красноярск, 1991.
39. Həsənov E.H. Yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin qarşısını almaq məsələləri. «Maarif» nəşriyyatı. Bakı, 1991.
40. Лазарев А.М. Субьект преступления. М., 1981.
41. Устиненко В.С. Специальный субьект преступления. Харьков, 1989.
42. Назарова К.О. Специальный субьект преступления. Изд-во «Hüquq ədəbiyyatı». Bakı, 1999.
43. Səməndərov F.Y. Cinayətin subyektiv cəhəti. Bakı, 1989.
44. Волков Б.С. Мотивы преступлений. Казань, 1982.
45. Золобин Г.А., Никифоров Б.С.Умысел и его формы. М., 1972.
46. Тельнов П.Ф. Ответственность за соучастие в преступлении. М., 1974.
47. Бушуев И.А. Ответственность за соучастие в преступлении. М., 1965.
48. Тишкевич И.С. Условия и пределы необходимой обороны. М., 1969.

49. Курбанов Г.С. Юридическая природа и содержание института обстоятельств, устраняющих общественную опасность и противоправность деяния. Баку, 1988.
50. Курбанов Г.С. Применение института обстоятельств, устраняющих общественную опасность и противоправность деяния. Баку, 1988.
51. Крист Н. Пределы наказания. М., 1985.
52. Рагимов И.М. Философия наказания и проблемы его назначения. Изд-во «Дипломат», Баку, 1988.
53. Полубинский С.В. Цели уголовного наказания. М., 1990.
54. Анденс И. Наказание и предупреждение преступлений. М., 1979.
55. Горелик И.И. Наказание и его назначение, Минск, 1978.
56. Рагимов И.М. Теория судебного прогнозирования. Баку, 1987.
57. Ломко В.П. Приминение условного осуждения. Харьков, 1976.
58. Мученик А.К., Уткин В.А., Филимонов О.В. Условное осуждение и отсрочка исполнения приговора. Томск, 1990.
59. Аликперов Х.Д. Освобождение от уголовной ответственности, М., 1999.
60. Михлин А.С. Проблемы досрочного освобождения от наказания. М., 1999.
61. Qafarov T., Hüseynov V., Səməndərov F. Həddi-buluğa çatmayanların cinayətləri və məsuliyyəti. «Elm», Bakı, 1979.
62. İsmayılov N.V. Psixatriya. Bakı, «Maarif», 1992.
63. Попов А.М. Вина и квалификация преступлений, М., 1982.

64. Свидлов Н.М. Специальный субьект преступления. Волгоград, 1981.
65. Карпец И.И. Международная преступность. М., 1988.
66. Бородин С.В.Квалификация преступлений против жизни. М., 1999.
67. Загородников Н.И. Преступления против здоровья, М., 1969.
68. Zahidov B. S. Qısqanclıq motivi ilə qəsdən adam öldürmə, onun cinayət hüquqi və kriminoloji problemləri. Bakı, 1998.
69. Məmmədov İ.P. Şəxsiyyət əleyhinə olan cinayətlər. Bakı, 1971.
70. Владимиров В.А. Квалификация хищений личного имущества. М., 1974.
71. Здравомыслов Б.В. Должностные преступления. Понятие и квалификация. «Юридическая литература». М., 1975.
72. Тихий В.П. Ответственность за преступления против общественной безопасности. Харьков, 1984.
73. Велиев И. Обьект посягательства и квалификация преступлений. Баку, «Элм», 1993.
74. Həsənov E.N. Narkotizm: meyllər və aradan qaldırma tədbirləri. Bakı, 1999.
75. Романов Л.Н. Наркотики и преступность. Владивосток, 1998.
76. Яценко С.С.Ответственность за преступления против общественного порядка. Киев, 1976.
77. Алиев А.И.Проблемы уголовно правовой охраны дикой фауны Азербайджанской Республики. Баку, 1996.
78. Мамедов Ф.Г.Уголовный закон и охрана чистоты атмосферного воздуха и водоемов. Баку, 1986.
79. Дьяков С.В. Государственные преступления против основ конституционного строя и безопасности

государства и государственная преступность. М., 1999.

80. Quliyev A.İ. Hərbi xidmət əleyhinə olan cinayətlərin şərhi. Qanun, Bakı, 2001.
81. Əliyev A.S. Hərbi xidmət əleyhinə olan cinayətlər. Bakı, 2006.
82. Əhmədov M., Məmmədli İ., Rüstəmov R. Əhalinin sağlamlığı və ictimai mənəviyyat əleyhinə olan cinayətlər. Dərs vasaiti. Bakı. Təknur.2011
83. Əhmədov M., Əliyev Ə., Teymurov N. Korrupsiya cinayətləri. Dərs vəsaiti. Bakı. 2011
84. Rüstəmov R. Mustafayev N. Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər. Dərs vəsaiti Bakı. Elm və Təhsil, 2009.
85. Əliyev Ə. Məmmədli İ. Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər Dərs vəsaiti. Bakı. 2010
86. Əhmədov M., Əliyev Ə. Məmmədli İ., Mülkiyyət əleyhinə olan cinayətlər. Dərs vəsaiti. Bakı. 2008.
87. Əhmədov M., Əliyev Ə., Teymurov N.Ekoloji cinayətlər. Dərs vəsaiti. Bakı. 2009.
88. Rüstəmov R.İ. Ehtiyatsızlıqdan həyat və sağlamlıq əleyhinə törədilən ictimai-təhlükəli əməllərlə cinayət hüquqi mübarizə Bakı. 2006
89. Əliyev Ə. İnsan hüquqları. Dərslik. Bakı. Hüququ ədəbiyyatı, 2013
90. Əkbərov F.Q. Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı. Çaşıqoğlu, 2006
91. Əliyev S. Qanuni sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə qarşı törədilən cinayətlərin xüsusiyyətləri. Bakı. Şərq-Qərb, 2011.

## Sillabus (Sərbəst iş) sualları
## Mövzu №1. Cinayət hüququnun anlayışı, vəzifələri və sistemi.
## Cinayət hüquq elmi.
## (5-ci həftə)

1. Cinayət hüququnun anlayışı və predmeti.
2. Cinayət hüququnun metodu.
3. Cinayət hüququnun sistemi.
4. Cinayət hüququnun vəzifələri.
5. Cinayət hüquq elminin anlayışı və predmeti.
6. Cinayət hü ququnun funksiyaları.
7. Cinayət hüququnun digər hüquq sahələri ilə əlaqəsi.
8. Cinayət hüququnun beynəlxalq hüquqi aktlarla əlaqəsi.
9. Cinayət hüququnun mühafizəetmə və tənzimetmə predmeti.

## Mövzu №2. Cinayət qanunu
## (6-cı həftə)

1. Cinayət qanununun anlayışı.
2. Cinayət hüquq normasının anlayışı.
3. Cinayət qanununun zamana görə qüvvəsi.
4. Cinayət qanununun məkana görə qüvvəsi.
5. Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya).
6. Cinayət qanununun təfsiri.
7. Cinayət qanununun geriyə qüvvəsi.
8. Ümumi və Xüsusi hissə normalarının fərqi.
9. Dispozisiyanın anlayışı və növləri.
10. Sanksiyanın anlayışı və növləri.
11. Təsviri dispozisiyanın cinayət hüquqi əhəmiyyəti.
12. Cinayət törətmiş şəxsin verilməsindən imtina etmənin əsasları.
13. Cinayət hüquq normasının növləri.

## Mövzu № 3. Cinayət məsuliyyətinin əsasları, prinsipləri (7-ci həftə)

1. Cinayət məsuliyyətinin anlayışı və əsasları.
2. Cinayət məsuliyyətinin prinsipləri.
3. Cinayət məsuliyyətinin həyata keçirilməsi formaları.
4. Cinayət məsuliyyətinin həyata keçirilməsi mexanizmi.
5. Cinayət məsuliyyətinin digər hüquqi məsuliyyət növlərindən fərqi.
6. Cinayət məsuliyyətinin sosial-psixoloji əsasları.
7. Cinayət hüquqi münasibətlərin subyektləri.
8. Cinayət məsuliyyətinin yarandığı an.

## Mövzu № 4. Cinayətin anlayışı (8-ci həftə)

1. Cinayət anlayışı.
2. Cinayətlərin təsnifatı.
